SAHİB ƏSƏDOV

# HƏDİS İNKARÇILARININ MƏŞHUR ŞÜBHƏLƏRİNƏ CAVABLAR

İSLAMIN MÜDAFİƏSİ

# HƏDİS İNKARÇILARININ MƏŞHUR ŞÜBHƏLƏRİNƏ CAVABLAR

**MÜƏLLIF:**

*Sahib Əsədov*

**İXTİSAS REDAKTORLARI:**

*Fərman İsayev*

*Fərhad Adayev*

*Asim Məmmədov*

**REDAKTORLAR:**

*Qabil Şükürov*

*Xaqan Abbaslı*

# KİTABIN İÇİNDƏKİLƏR:

**1-Cİ ŞÜBHƏ:**
**"Hədislərimi Quranla tutuşdurun"** rəvayəti.

**2-Cİ ŞÜBHƏ:**
**"Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq"** ayəsinin mənası.

**3-CÜ ŞÜBHƏ:**
**"Biz Kitabı sənə hər şey üçün bir izah etdik"** ayəsinin mənası.

**4-CÜ ŞÜBHƏ:**
Allah Zikri qoruyacağını deyir, bəs hədislər?

**5-Cİ ŞÜBHƏ:**
**"Quranda hər şey ətraflı izah olunub"** ayəsinin düzgün izahı.

**6-CI ŞÜBHƏ:**
Zəif və uydurma hədislər var, bunu necə anlayaq?!

**7-Cİ ŞÜBHƏ:**
Hədislər vəhy deyilsə, ona necə inanaq?

**8-Cİ ŞÜBHƏ:**
Peyğəmbərə itaət ayələri yalnız peyğəmbərin zamanına aiddirmi?

**9-CU ŞÜBHƏ:**
Peyğəmbər hədis yazmağı birdəfəlik qadağan etmişdimi?

**10-CU ŞÜBHƏ:**
Hədislər peyğəmbərdən iki yüz il sonra yazılıb?

**11-Cİ ŞÜBHƏ:**
Hədislər ağıla ziddir, belə olduqda onu necə qəbul edək?!

**12-Cİ ŞÜBHƏ:**
Hədislər Qurana ziddir, belə olduqda onu necə qəbul edək?!

**13-CÜ ŞÜBHƏ:**
Ömər ibn Xəttabın **“Bizə Allahın kitabı yetər!”** sözünün izahı.

# ÖN SÖZ

*Bismilləhir-Rahmənir-Rahim*

**Dəyərli oxucu!** Bu dəfəki yazımızda quranilərin (hədis inkarçılarının) bəzi məşhur şübhələrinə cavablar verəcəyik.

Bu şübhələrdən bəzilərini qeyd edərək cavab vermək niyyətindəyik ki, insanlar maariflənsilər və bu təlbislərə[1] aldanmasınlar.

Bu kiçik kitabda biz bəzi açar sözlərə, terminlərə toxunmadan bilavasitə quranilərin şübhələrinə keçid edəcəyik. Bundan məqsəd isə bəzi sualların cavabını axtaran şəxslərə yardımçı vəsaitin hazırlanmasıdır.

Gələcəkdə bu kitaba əlavələr edilərək yeni və ya daha yayqın şübhələrə cavabların daxil edilməsi də nəzərdə tutulmuşdur.

---

[1] Təlbis: həqiqi mənanın batil mənalara yozulması və ya həqiqətə batil donunun geyindirilməsidir. Mənası haqda deyilmişdir: "həqiqəti örtmək və eybəcərləşdirmək" (Mucəmur-Raid. Cəbran Məsud. 1965). Həmçinin: "Həqiqəti bilinməsin deyə qəsdli şəkildə məsələləri bir-birinə qarışdırmaq" (Mucəmu Luğətul-Fuqaha. H. Qannibi. 1985).

Hələ ki, araşdırmamızın həcmi qarşınızdakı kitabın həcmi qədərdir və bu mətndə hədis inkarçılarının bəzi şübhələrinə yazdığım cavabları[2] bir araya toplamaq və sonra daha vahid bir fikir şəklində çalışmalarla yekun nəticə olaraq bir kitab formasında oxuculara təqdim etmək mümkün oldu.

Lakin, ümid edirəm ki, - Allahın izniylə - bu cür kitabların yazılması xüsusən də ölkəmizdə yayılmış hədis inkarçılığına düçar olmuş bütün camaatlara Muhəmməd ﷺ peyğəmbərin ilahi vəhylə gətirdiyi həqiqi yolu başa salmaqda, şübhəyə düşmüş şəxsləri aydınlatmaqda, hədis mövzusunda olan bəzi məsələləri başa salmaqda çox faydalı olacaqdır.

Şübhələrin bir arada cəm olunması və həmin şübhələrə bir-bir cavabların verilməsi həqiqət axtarışında olan insanlara çox mühüm bir yardım sayıla bilər.

İnsanların fitnələrə düşməsi, haqdan uzaqlaşması, batilin çoxalmasının səbəblərindən biri də haqq əhlinin batil önündə susması, batili bəyan etməməsidir.

Batilin aradan qalxması üçün isə haqqı insanlara çatdırmaq lazımdır.

---

[2] Yəni: eyni elmi üslubda yazılmış məqalələri.

Ona görə də Uca Allah buyurmuşdur: **De: «Haqq gəldi, batil puç olub getdi. Həqiqətən də, batil puçluğa məhkumdur!»** (əl-İsra, 81).

Allahdan istəyirəm ki, bu kiçik cəhdi bizdən qəbul etsin və insanlara faydalı etsin!

Allahın Elçisi Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

**Sahib Əsədov**

*Səudiyyə Ərəbistanı*

*Mədinə şəhəri*

*2019.01.15*

## BİRİNCİ ŞÜBHƏ:
## "Hədislərimi Quranla tutuşdurun" rəvayəti

**Şübhə belədir:** Peyğəmbərdən ﷺ rəvayət olunur: ***"Məndən sizə çatan xəbərləri Quranla tutuşdurun. Əgər o Qurana uyğun gələrsə, (deməli) onu mən demişəm. Əgər Qurana müxalif gələrsə, mən onu deməmişəm. Mən yalnız Allahın kitabına müvafiqəm və Allah onunla məni hidayət etmişdir"***[3].

Şübhəni gətirənlər bu rəvayəti dəlil gətirərək deyirlər ki: "Əgər hədisin (sünnənin) Qurana müvafiq gələni götürülürsə, onda hədisi hüccət kimi təqdim etmək doğru deyil. Ona görə ki, hüccət Qurana müvafiq olanda baş tutur, əgər müxalif olarsa, rədd edilir".

## Bu şübhənin cavabı iki yöndəndir;

**Birincisi:** Bu hədis olduqca zəifdir[4]. İbn Abdil-Bərr[5] İbn Məhdidən nəql edib ki: "Bu rəvayəti zındıqlar və xəvariclər

---

[3] Sunən Darəqutni, 4/28; Beyhəqinin "əl-Mərifə" əsəri, 1/23.

[4] Zəif hədis: Səhih və həsən (yaxşı) hədislərdə olan vəsflərin olmadığı bütün hədislər zəif və səqim hədis hesab edilir. (mənbə: İbn Salahın müqəddiməsi).

[5] İbn Abdil-Bərr (978-1071): Əbu Ömər Yusuf ibn Abdullah ən-Nəmri. Maliki fiqhinin fəqihlərindən, hədis alimi və Əndəlüslü tarixçi olmuşdur. Bir çox qiymətli kitabların müəllifidir, ən məşhur

uydurublar. İbn Həzm, əl-Beyhəqi, İbn Abdul-Bərr və Suyuti də bu rəvayətin zəif olmasını qətiyyətlə demişlər.”

**İkincisi:** Əsərin mətni münkərdir. əl-Beyhəqi demişdir: "Əksinə, bu özü batil bir şeydir. Çünki, Quranda elə bir dəlil yoxdur ki, o hədisi Quranla tutmuşdurmağa dəlalət etsin"[6].

İbn Abdil-Bərr (Allah ona rəhmət etsin) demişdir:

"Elm əhlindən bir qismi bu hədisə etiraz edərək demişlər: «Hər şeydən əvvəl biz bu hədisin özünü Qurana ərz edirik[7] və buna etimad edirik. O zaman ki, hədisləri Qurana ərz edirik, bunun Qurana müxalif olduğunun şahidi oluruq. Çünki, biz Allahın kitabında peyğəmbərin ﷺ hədisindən Qurana müvafiq olandan basqasını qəbul etməmək barədə bir şey tapmadıq. Əksinə, Quranda gördük ki, Allah hamımıza peyğəmbərə ﷺ əsaslanmağımızı və ona itaət etməyi əmr edib, onun əmrinə müxalif olmaqdan çəkindirib»" [8].

---

əsərlərindən biri də "əl-İstiab fi mərifətil-Əshab" kitabıdır, hansı ki, bu əsər peyğəmbərin səhabələrinin tərcümeyi-halı haqqında yazılmışdır. Yuxarıda qeyd etdiyimiz kitab da onun ən məşhur əsərlərindən biridir.

[6] əl-Mədxəl ilə dəläilin-Nubuvvət. Əbu Bəkr əl-Beyhəqi. 1/27.

[7] Yəni, Quranla tutuşdururuq, ona uyğun gəlib gəlmədiyini yoxlayırıq.

[8] Cəmiu bəyən əl-Elm va Fadlihi, İbn Abdil-Bərr. 2/1191.

## İKİNCİ ŞÜBHƏ:
## “Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq” - ayəsinin mənası

**Şübhə belədir:** "**Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq**". (əl-Ənam, 38).

Bu ayəni misal gətirərək bu ayədəki «**şey**» sözünü dəlil kimi göstərməyə çalışırlar ki, guya bu söz qeyri-müəyyənlikdə və nəfy[9] olduğu üçün Quranın tam mənada əhkamlardan və s. hər şeyi əhatə etdiyi anlamına yozulur.

Bu da guya Qurandan başqa mənbəyə ehtiyac olmadığı anlamına gəlirmiş.

**Bu şübhənin cavabı:** Ayənin ahəngi işarət edir ki, burada *"Lövhi-məhfuzda*" olan kitab qəsd olunur.

Uca Allahın eyni ayəsini əvvəldən axıra kimi oxusaq, hansı kitabdan söhbət getdiyi aydın olacaqdır.

O qorunmuş *"Lövhi-məhfuz"* kitabı ki, orada məxluqların qədəri barədə əvvəldən axıra kimi hər şey yazılmışdır.

---

[9] Nəfy: yəni, inkar. "Təsdiqin və razılığın əksi". (bax: əl-Mucəm əl-Vaciz əl-Mədrəsi". Dr. Salahuddin əl-Həvari. səh. 780.

Ayə tam olaraq belədir: "**Yer üzündə gəzən heyvanların və göydə uçan iki qanadlı quşların hamısı sizin kimi ümmətlərdir. Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq. Sonra onlar Rəbbinin hüzuruna toplanılacaqlar". **(əl-Ənam. 38)

Deməli, aydın olur ki, burada Quran kitabı deyil, *"Lövhi-Məhfuz"*da olan kitab qəsd olunur. Təfsir kitablarında da bu məqama işarət edilmişdir. əl-Qurtubi demişdir: *"Yəni: Lövhi-Məhfuzda. Çünki Allah o kitabda baş verəcək bütün hadisələri yazmışdır"*[10].

Bu təfsir bir çox sələflərdən gələn təfsirdir. Keçmiş sələf alimlərindən bu görüşə müxalif olan demək olar ki, bilinmir. Eyni təfsiri İbn Cərir ət-Təbəri də etmiş, Allahın əzəli elmi ilə bağlı olan *"Lövhi-məhfuz"*dakı kitabdan danışmışdır[11], İbn Kəsir də Allahın Lövhi-Məhfuzdakı elmi haqda danışaraq demişdir: *"Yəni: hər şeyin elmi Allah qatındadır, Allah yaratdıqlarının hamısından birini belə - istər suda yaşayan olsun, istər də quruda yaşayan - ruzisini, idarəsini unutmaz"*[12].

Əbdür-Rəhman əs-Sədi isə təfsirində demişdir: *"Lövhi-Məhfuzda - kiçik və ya böyük - heç nəyi nə ehmal etmədik, nə də heç nədən qafil qalmadıq, hər biri Lövhi-məhfuzda - olduğu kimi -*

---

[10] Təfsirul-Qurtubi. Bax, eyni ayənin təfsiri.

[11] Təfsirut-Təbəri. İbn Cərir ət-Təbəri. 13216.

[12] Təfsirul-Quranil-Azim. İbn Kəsir. Eyni ayənin təfsiri.

*sabitdir, bütün hadisələr (Allah qatında olan bu kitabdakı kimi) necə yazılıbsa, o cür də baş verir"*[13].

Bu haqda bir çox təfsirlərə baxsaq, alimlərin bu ayəni eyni mənada *"Lövhi-Məhfuz"*dakı, Allah qatındakı kitab olaraq vəsf etdiklərinin şahidi olarıq.

Sonda belə bir qənaətə gəlmək olar ki, hədis inkarçıları əsrlər boyu İslam alimlərinin, xüsusən də təfsirçilərin bu ayəyə verdikləri mənanı çox asanlıqla inkar edir, onları savadsızlıqda ittiham edir, şəriət elmlərini bilmədikləri halda Quran ayələrini özlərindən batilcəsinə yozurlar.

[13] Teysirul-Kərimur-Rahmən. Əbdür-Rəhman əs-Sədi. Eyni ayənin təfsiri. Burada qeyd edilən təfsir kitablarının səhifələrini qeyd etmirik. Səbəb isə eyni ayənin nömrəsinə eyni təfsir kitabında baxmaqla müxtəlif nəşriyyatlardan olan təfsirlərə rahat baxmağı təmin etməkdir. İstənilən təfsir kitabının adı və ayənin nömrəsi ilə nəzərdə tutulan ayəyə baxmaq mümkündür.

## ÜÇÜNCÜ ŞÜBHƏ:
## “Biz Kitabı sənə hər şey üçün bir izah etdik” ayəsinin mənası

**Şübhə belədir:** Uca Allahın bu ayəsi: "**Biz Kitabı sənə hər şey üçün bir izah etdik**" (ən-Nəhl, 89) ayəsini gətirərək deyirlər ki, artıq Quran dinin əhkamlarını bəyan edib, ona görə də peyğəmbərin ﷺ sünnəsinə ehtiyac yoxdur[14].

**Bu şübhənin cavabı:** Bu şübhəyə iki aspektdən cavab verəcəyik.

**Birincisi: Quranın “bəyan etməsi” iki cürdür;**

a) Ya açıq-aydın dəlil yolu ilə bəyan etmək;

Dinin bir çox əsaslarının bəyanı və ya namazın, zəkatın vacibliyini, ticarətin və nigahın halallığını bəyan etmək kimi məsələləri buna misal çəkmək olar. (Lakin, bu hökmlərin təfsilatları, izahları hədislərdə gəlir).

[14] Bax: Hucciyyətus-Sunnə. Abdulğani Abdulxaliq. səh. 384.

b) Ya da başqa dəlillərə yönəltmək yolu ilə bəyan etmək; o dəlillər ki, Allah onu Quranda mötəbər hesab etmişdir.

Ona görə də sünnədə və icmada bəyan olunan hər bir hökmü Quran bəyan etmiş kimidir. Çünki, Quran bizə bu yolu göstərmiş, biz də bu yola yönəlmişik.

Sonra Quranın hər bir şeyə bəyan olmasını Muhəmməd ﷺ peyğəmbər bizə öz sünnəsində bu ayəyə əsasən göstərmişdir: **"Sənə də Zikri nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən və bəlkə onlar fikirləşələr"**. (ən-Nəhl, 44)

Deməli, bu ayə bizə açıq-aydın dəlildir ki, peyğəmbərin ﷺ sünnəsinin izahı olmadan biz Quranın hökmlərini özbaşına anlaya bilmərik.

Bu ayəyə əsasən peyğəmbərin ﷺ Quranı etdiyi izaha, yəni, hədislərə, onun sünnətinə mütləq müraciət etməliyik.

**İkincisi: Bir də bu ayəyə fikir versək, ayə Məkkə ayələrindəndir**[15].

<u>Peyğəmbər ﷺ Məkkədə olduğu zaman Quranın əhkam ayələrinin çoxusu hələ nazil olmamış və Quran ayələri hələ</u>

[15] Bax: Təfsirul-Quranil-Azim. İbn Kəsir. səh. 272. Eyni ayənin təfsiri.

tamamlanmamışdı. Belə olduğu halda Quran «hər şey üçün bir izah» necə ola bilərdi?

Hətta, belə olsaydı, Məkkə müşrikləri peyğəmbəri ﷺ yalançılıqda ittiham edər və Qurana da tənə edərdilər.

Deməli, Quranilərin ayəni bu cür yozmaları Quranda nəzərdə tutulan və bizim yuxarıda izah etdiyimiz doğru mənaya ziddir.

## DÖRDÜNCÜ ŞÜBHƏ:
## Allah zikri qoruyacağını deyir, bəs hədislər?

**Şübhə belədir:** Həmçinin, bu ayəni **"Şübhəsiz ki, zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq"** (əl-Hicr, 9) misal gətirərək deyirlər ki: Əgər sünnə hüccət[16] sayılsaydı, Allah sünnəni də Quranı qoruduğu kimi qorumağı öz öhdəsinə götürərdi[17].

**Şübhənin cavabı:** Şübhənin cavabını iki məsələ üzərində ələ alacağıq.

**Birinci məsələ:** Ayədə keçən "**zikr**" sözü Qurana və sünnəyə şamil olunur.

**Əgər deyilsə ki:** Bu yalnız Qurana aiddir, çünki, Quranın qorunması onun hərflərinə və mənalarına da şamildir.

**Deyərik ki:** Quranın mənalarının qorunmasını Allah peyğəmbərə ﷺ həvalə etmişdir. Bu barədə ayəni yuxarıda qeyd etdik (ən-Nəhl, 44).

Ona görə də Quranın qorunmasına sünnənin qorunması da aiddir.

---

[16] Yəni, özü-özlüyündə dəlil və ya mötəbər qaynaq sayılsaydı.

[17] Bax, Hucciyyətus-Sunnə, Abdul-Ğani Abdul-Xaliq. səh. 390.

Əgər peyğəmbərin ﷺ kəlamı da vəhydəndirsə, deməli, Allah onu da qorumalıdır.

Necə ki, Allah peyğəmbərin ﷺ sünnəsinin də vəhydən olduğunu Quranda bəyan etmiş və buyurmuşdur: "**O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir**" (ən-Nəcm, 3-4)**.**

Gördüyünüz kimi sünnə də vəhydirsə, o məhz Allahın qoruyacağını buyurduğu Zikrə daxildir.

Ona görə də Allah özünə itaətlə peyğəmbərə ﷺ itaəti bir tutaraq buyurmuşdur: **“Allaha və Peyğəmbərə itaət edin ki, bəlkə sizə rəhm olunsun”.** (Ali İmran, 132) Allaha itaət Qurana tabeçilikdir.

Peyğəmbərə ﷺ itaət isə sünnəyə (hədislərə) tabeçilikdir. Sünnəyə müxalif olmaq böyük bir təhlükədir.

Ona görə də Uca Allah Quranda möminlərə bu barədə ciddi xəbərdarlıq etmişdir: **“Qoy onun (peyğəmbərin) əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar”** (əl-Furqan, 63).

**İkinci məsələ:** Allah öz peyğəmbərinə ﷺ Quranı və hikməti göndərmişdir. Quran ayələrində qeyd olunan "**hikmət**" sünnədir.

Gəlin bu ayələri oxuyaq:

**1 — "Ey Rəbbimiz! Onların içərisindən özlərinə elə bir elçi göndər ki, Sənin ayələrini onlara oxusun, Kitabı və hikməti onlara öyrətsin və onları günahlardan təmizləsin!"** (əl-Bəqərə, 129).

**2 — "Həmçinin öz içərinizdən ayələrimizi sizə oxuyan, sizi günahlardan təmizləyən, Kitabı və hikməti sizə öyrədən, habelə bilmədiklərinizi də sizə öyrədən bir Elçi göndərdik."** (əl-Bəqərə, 151).

**3 — "Allahın sizə olan nemətlərini, öyüd-nəsihət vermək üçün nazil etdiyi Kitab və hikməti yadınıza salın. Allahdan qorxun və bilin ki, Allah hər şeyi bilir."** (əl-Bəqərə. 231).

**4 — "Allah möminlərə, öz aralarından onlara Allahın ayələrini oxuyan, onları günahlardan təmizləyən, onlara Kitabı və hikməti (sünnəni) öyrədən bir Elçi göndərməklə mərhəmət göstərmişdir. Halbuki əvvəllər onlar açıq-aydın azğınlıqda idilər."** (Ali İmran, 164).

**5 — "Savadsızlara özlərindən elçi göndərən Odur. Elçi onlara Allahın ayələrini oxuyar, onları pis əməllərdən təmizləyər, onlara Kitabı və hikməti öyrədər. Halbuki onlar əvvəllər açıq-aydın azğınlıq içində idilər."** (əl-Cümə, 2).

**6 — "Allah sənə Kitabı və hikməti (Quranı və Sünnəni) nazil etdi və bilmədiyin şeyləri sənə öyrətdi. Allahın sənə olan lütfü böyükdür."** (ən-Nisə, 113).

**7 — "Evlərinizdə oxunan Allahın ayələrini və hikməti yada salın. Həqiqətən, Allah Lütfkardır, hər şeydən Xəbərdardır."** (əl-Əhzab, 34).

İnsan bu ayələr barədə düşünsə, görər ki, "**hikmət**" sözü ayədəki kitab (Quran) sözünə bağlı gəlmişdir. Yəni, Qurana bağlı gəlmişdir. Yalnız sonuncu ayədə "**hikmət**" kəlməsi Allahın ayələrinə atf (yəni, nisbət) edilmişdir.

Bu ona dəlalət edir ki, burada hikmət dedikdə Quran nəzərdə tutulmur. Çünki, ərəb ədəbi dilində (ərəb lüğətində) bir söz özünə atf (bağlı) istifadə edilmir[18].

**Deməli, peyğəmbərə ﷺ verilən kitabla yanaşı Quranda "hikmət" adlandırılan "sünnə" də verilmişdir.**

İbnul-Qeyyim[19] (Allah ona rəhmət etsin) demişdir: *"Hikmət sözü Quranla yanaşı qeyd olunarsa, bu sünnə anlamındadır. İmam Şafi və başqa İmamlar da belə demişlər… Hikmətin "sünnə" olaraq təfsir edilməsi daha ümumi və daha məşhurdur"*[20].

---

[18] "Xizənətul-Ədəb", Bağdadi. 5/108. Həmçinin, bu qaydanı əl-Mərzuqi "Şərhu Divanil-Həməsə. 1/148" - kitabında bildirmişdir.

[19] **İbn Qeyyim** böyük İslam alimlərindən biridir. Əsl adı: Muhəmməd ibn Əbi Bəkr ibn Eyyub ibn Səd ibn Hərizdir. Hicri təqvimlə 691-ci ildə doğulmuş, hicri təqvimin 751-ci ilində altmış yaşında vəfat etmişdir. Şeyxulislam ibn Teymiyyənin ən məşhur tələbələrindən hesab olunur.

[20] Təfsirul-Quranil-Kərim, İbnul-Qeyyim, 1141; səh 231. İxtisarla.

## BEŞİNCİ ŞÜBHƏ:
## "Quranda hər şey ətraflı izah olunub" ayəsinin düzgün izahı

**Şübhə belədir:** "Biz bu Quranda insanlar üçün hər cür məsəli ətraflı izah etdik. İnsan isə ən çox mübahisə edəndir" (əl-Kəhf, 54).

Onlar bu ayəni misal gətirib Quranda hər cür məsəl çəkildiyindən danışır və hər şeyin bəyan edildiyini deyirlər.

**Şübhənin cavabı:** Burada insanın doğru yolda, hidayət üzərində olmasına aparan və insanın azmasına səbəb olan bütün məsələlərin izah olunduğu və ya bu məsələlərə işarə olunduğundan söhbət gedir. Təfsir kitablarına müraciət etdiyimiz zaman da bunun şahidi oluruq.

Ona görə də burada quranilərin iddia etdikləri kimi ibadətlərin təfsilatlarının qəsd olunmadığını görə bilərik.

**Məsələn:** İmam ət-Təbəri[21] (Allah ona rəhmət etsin) öz təfsirində: "*Biz insanlar üçün bu Quranda hər cür məsəl çəkdik. Onlara hər cür moizələr verdik. Onların xatırlayaraq Allaha dönmələri, tövbə etmələri, ibrət alıb faydalanmaları üçün hər cür dəlil gətirdik ki, onlar Allaha şərik qoşmaqdan və bütlərə ibadət etməkdən çəkinsinlər. Lakin, insanlar isə çox mübahisə və*

[21] Əbu Cəfər Muhəmməd ibn Cərir ət-Təbəri (839-923): Böyük İslam alimi, təfsirçi, tarixçi, İbn Cərir və ət-Təbəri olaraq məşhurdur.

*düşmənçilik edirlər, haqqa qayıtmır və öyüd nəsihətdən fayda almırlar"*[22].

Yenə məsələ insanın həlakı və səadətiylə bağlı bütün öyüd-nəsihətlərə qayıdır. Lakin, ən məşhur və qədim təfsir alimi ət-Təbəri quranilərin dediyini demir və onlar kimi bu ayəni başa düşməyib.

İndi isə görək İbn Kəsir[23] (Allah ona rəhmət etsin) bu ayəni necə təfsir edib: *"Uca Allah buyurur*: **Biz bu Quranda insanlara haqq yoldan azmamaları və hidayət yolundan çıxmamaları üçün gərəkən məsələləri ətraflı izah etdik…**"[24].

Göründüyü kimi burada heç də quranilərin təsəvvür etdiyi ibadətlərin təfsilatından, ətraflı izahından bəhs edilmir. İbn Kəsir də İmam Təbəri (Allah hər ikisinə rəhmət etsin) kimi hidayətə və haqdan azmağa aid məsələlərin ətraflı izahından danışır.

Digər məsələlərin ətraflı izahı üçün biz peygəmbərin ﷺ sünnəsinə müraciət etməliyik.

Həmçinin, təfsir alimi Əbdür-Rəhman əs-Sədi (Allah ona rəhmət etsin) bu ayənin təfsirində demişdir: "Hər bir məsəli ətraflı izah etdik": *yəni, əbədi səadətə, faydalı elmə aparan hər bir*

---

[22] Təfsirut-Təbəri, Cəmiul-Bəyən, 18/48; təhqiq Əhməd Şakir.
[23] İbn Kəsir (1301-1373): Böyük İslam alimi, təfsir, fiqh, hədis və tarix elmləri üzrə tanınmış əsərlərin müəllifidir. Təfsirul-Quranil-Azim, əl-Bidayə vən-Nihayə və s. çox qiymətli əsərlərin müəllifidir.
[24] Təfsirul-Quranil-Azim. İbn Kəsir, 18/54.

*yolu və şərdən, həlak olmaqdan qoruyan hər bir yolu ətraflı izah etdik"*[25].

Xülasə, *yenə də məsələ hidayət olunma və yoldan azmaqla əlaqəli məsələlərin ətraflı izahına qayıdır. Quranı bizdən yaxşı bilən təfsir alimləri yenə də ayələri həqiqi mənasından başqa yerə yozanların batilini ifşa edirlər. Doğurdan da əgər Quranda bütün dini hökmlər ətraflı izah edilsəydi, onda biz Qurandakı "namaz qıl" əmrini götürüb onun ətraflı izahını hədislərdən götürməzdik. Eyni zamanda da Qurandakı "zəkat ver" əmrini götürüb lakin, onun ətraflı izahını hədislərdən götürməzdik.*

Ona görə də hər bir ağıl sahibi dərk edir ki, Quranda *"bunu edin"* deyə işarə edilirsə, yəni, nə isə əmr edilirsə, lakin, onun təfsilatı, necə edilməsi barədə məlumat yoxdursa, bu təfsilatlı izah peyğəmbərin ﷺ hədislərindən götürülür.

Elə bu, Quranın bizə əmridir ki gərək biz bu əmrə tabe olaq: **"Sənə də Zikri nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən və bəlkə onlar fikirləşələr".** (ən-Nəhl, 44)

Lakin, görəsən bu cavabları oxuyan quranilər bundan sonra peyğəmbərin ﷺ Quranı izah etməsi barədə fikirləşəcəklərmi? Müvəffəq edən Allahdır!

---

[25] Teysirul-Kərimur-Rahmən. Əbdür-Rəhman əs-Sədi. səh 552. İbnul-Cövzi nəşriyyatı.

## ALTINCI ŞÜBHƏ:
## Zəif və uydurma hədislər var, bunu necə anlayaq?!

**Şübhə belədir:** Sünnəyə zəif və uydurma rəvayətlər daxil edilmişdir. Hədislərin mətni və istinadı tənqidə məruz qalmışdır[26].

**Bu şübhənin cavabı:** Peyğəmbərin ﷺ səhih sünnəsi tarix boyu hədis alimləri tərəfindən daim bəyan edilmiş, mötəbər hədislərin qorunduğu kitablar mətn və istinadlarıyla bərabər qorunmuşdur.

Sünnə alimləri hətta, hədis uydurma cəhdlərini dəfələrlə ifşa etmişlər, onlar hədis qəbulunda o qədər çevik davranmışlar ki, onlardan məsələn; imam Buxari (Allah ona rəhmət etsin) bir hədisə görə yüzlərlə kilometr yol gedər, yalnız etibarlı insanlardan rəvayət edərdi.

Peyğəmbərin ﷺ hədisləri bu qədər doğruluğu, əmanəti və sadiqliyi ilə seçilən, dində imam olan şəxslər tərəfindən toplanmış və qorunmuşdur.

İmam Buxari (Allah ona rəhmət etsin) şəxsiyyətinin və etibarının ləkələnməməsi üçün səfərdə gəmidə olarkən pulunu saydığı zaman onu görən və pulunu əlindən almaq

[26] Bax, əl-Quraniyyun və şubuhətuhum həvləs-Sunnə. Yusuf Abdur-Rahman. səh 233.

istəyən oğrunun: “onda filan qədər pul var, o mənim pulumu götürüb” deyə böhtan atdıqda öz min dinar pulunu dənizə atacaq qədər sadiq bir kimsə idi[27].

Onun üçün əsas öz etibarını qorumaq idi. Bu etibar onun üçün minlərlə dinardan üstün idi. Sonda oğru məyus olmuş və onun bu hekayəsi dillərə əzbər olmuşdu.

Bax, peyğəmbərin ﷺ sünnəsi belə böyük, etibarlı hədis imamları tərəfindən bizə nəql edilmişdir.

Təkcə Buxari öz "Səhih" əsərində hədisin mötəbərliyi üçün iki ağır şərt qoymuşdu: muasarah (rəvayəti edənin rəvayəti eşitdiyi şəxslə eyni əsrdə yaşaması) və həmin şəxslə görüşməsi.

Bu iki şərt bir-birini tamamlayır və qüvvətləndirir.

Çünki, eyni əsrdə yaşamaq şərt olsa, lakin iki şəxsin görüşməsi hədisin qəbulu üçün şərt olmasaydı, o zaman bir-birilə görüşməyən iki şəxsin bir-birindən hədis rəvayət etməsi etibarlılığı aradan qaldırardı.

Buxarinin hədisin mötəbərliyi, qəbulu üçün qoyduğu bu şərtləri digər bir çox hədis kitablarında tapa bilməzsiniz.

Ona görə Buxarinin "Səhih" kitabı ən mötəbər hədis kitabı hesab edilir. Müslimin "Səhih" əsəri də mötəbərliyinə görə ikinci sırada gəlir.

[27] əl-Fəvaid əd-Dərari fi Tərcəməti əl-İməm əl-Buxari. səh. 51. Həmçinin bax: Siratul-Buxari. AbdusSələm Mubarəkfuri. 1/122-123.

Həmçinin, İslam alimləri tərəfindən hədis elmi o qədər inkişaf etmişdi ki, alimlər hətta hədis rəvayətinin silsəsindəki yaddaşı zəif və ya məchul[28] və ya başqa naqis, fasiq adamların hamısını tanımış, bu şəxslər barədə xüsusi kitablar[29] yazmış, onların hədislərini qəbul etməmiş və tədris etməmişlər.

Alimlər hədisləri etibarlılıq baxımından qismlərə bölmüş, uydurma[30] və zəif hədisləri bəyan etmiş, mötəbər və

---

[28] Hədis elminə əsasən burada kimliyi, halı tanınmayan, bilinməyən şəxs qəsd edilir. Lakin, məchul ravinin (rəvayətçinin) hədis alimləri nəzdində tərifləri müxtəlifdir. Kimisi elmdə mötəbər olmayan, tanınmayan şəxsləri məchul hesab etmişlər, kimisi özündən yalnız bir nəfərin rəvayət etdiyini məchul hesab etmişdir, kimisi isə ondan kimin rəvayət etməsinə fikir vermiş, mötəbər şəxslərin rəvayət etdiyi təqdirdə rəvayətçini məchulluqdan çıxarmış, mötəbər olmayan şəxslər rəvayət etdikdə isə məchulluqda saxlamışdır. Lakin, bu yanaşmalar məchul rəvayətçini tam tanıtmır, əvvəldə qeyd etdiyimiz mütləq izaha daha uyğundur.

[29] Məsələn: İbn Adiyin "əl-Kamil" əsəri, Zəhəbinin "Mizanul-Etidal", İbn Həcərin "Lisanul-Mizan" və "Təhzibut-Təhzib", Aqilinin "əd-Duafə" və s. bir çox əsərlər yazılmışdır.

[30] Alimlər uydurma hədisləri bəyan edən kitablar da yazmışlar. Gəlin onlardan bəzilərini qeyd edək: Əbül-Fadl Muhəmməd ibn Tahir əl-Məqdisinin "ət-Təzkira fil-Əhadis əl-Movduah" əsəri, İbnul-Cövzinin "əl-Movduat" əsəri, Amr ibn Bədr əl-Mosilinin "əl-Aqidətus-Sahihah fil-Əhadis əl-Movduah əs-Sarihah" əsəri, Cəlaləddin əs-Süyutinin "əl-Ləəli əl-Məsnuah fil-Əhadis əl-Movduah" əsəri, Muhəmməd Tahir əl-Hindinin "Təzkiratul-Movduat" əsəri, Molla Əliyul-Qarinin "əl-Əsrar əl-Mərfuah fil-Əxbar

səhih hədisləri də bəyan etmişlər. Bu barədə cildlərlə kitablar yazılmışdır. Bütün bunlar hədislərin qorunmasına xidmət edən addımlar idi.

Bu, peyğəmbər ﷺ sünnəsinin qorunması baxımından İslam ümmətinin bir müvəffəqiyyəti hesab olunur.

---

əl-Movduah" əsəri və s. (Ətraflı bax: əl-Hədisud-Daif va Hukmul-İhticəc bihi. Dr. Abdulkərim əl-Xudeyr. səh. 392. əl-Minhəc nəşriyyatı).

## YEDDİNCİ ŞÜBHƏ:
## Sünnə vəhy deyil, biz Qurana tabe olmalıyıq:

**Şübhə belədir:** Sünnə vəhy deyil, ona görə də biz yalnız vəhydən olan Qurana tabe olmalıyıq.

**Bu şübhənin cavabı:** Sünnə necə vəhy deyil ki, bu Quran ayələri sünnənin vəhy olduğunu bildirir. Söhbət hədis elmi əsasında Allahın izniylə qondarma və təhriflərdən qorunmuş sünnədən gedir.

Uca Allah buyurur: "**O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir**". (ən-Nəcm, 3-4) Bu ayədə peyğəmbərin ﷺ danışığı vəhy adlandırılır.

İbn Kəsir[31] (Allah ona rəhmət etsin) təfsirində bu ayənin mənası barədə danışarkən hər iki məsdərin də peyğəmbər ﷺ tərəfindən doğru şəkildə çatdırılmasına işarət edir.

Həmçinin, eyni ayələrin təfsirində imam Muhəmməd əl-Əmin əş-Şinqiti[32], peyğəmbərin ﷺ funksiyasının yalnız

[31] Beşinci şübhənin cavabının haşiyəsində İbn Kəsir haqda məlumat verilmişdir.

[32] Muhəmməd əl-Əmin ibn Muhəmməd əl-Muxtar ibn Abdul-Qadir əş-Şinqiti (1905 - 1973): 20-ci əsrin böyük İslam alimlərindən olan Muhəmməd əl-Əmin əş-Şinqiti müxtəlif İslami elmlərdə, xüsusən də

Quranı çatdırmaq olmadığını, onun bəzi məsələlərdə ictihad edə biləcəyini deyərək buna aid bəzi dəlilləri gətirir; Tövbə surəsi, 43 və əl-Ənfal, 67.

Təfsirçi alim Əbdür-Rəhman əs-Sədi[33] yuxarıda qeyd etdiyimiz ən-Nəcm surəsinin üçüncü və dördüncü ayələrinin təfsirində demişdir: *"Bu ayə həmçinin ona da dəlalət edir ki, Sünnə Allahdan olan bir vəhydir"*[34].

Həmçinin, "Təfsirul-Müyəssər" kitabında deyilir: *"Quran və Sünnə yalnız Allah tərəfindən elçisi Muhəmmədə ﷺ etdiyi vəhydir"*[35].

Tabe olmağa gəldikdə isə bizə yalnız Qurana tabe olmaq əmr edilməmişdir. Quranla bərabər müsəlmanlara hədislərə (sünnəyə) də tabe olmaq əmr edilmişdir.

**Gəlin görək Qurani-Kərimdə Allah bizə nəyə tabe olmağımızı əmr edib?**

Uca Allah buyumuşdur: **“Allaha və Peyğəmbərə itaət edin ki, bəlkə sizə rəhm olunsun”.** (Ali İmran, 132) Peyğəmbərə ﷺ itaəti əmr edən ayələr isə Quranda qırxa yaxın yerdə gəlib.

---

təfsir elmində daha böyük çalışmaları ilə seçilmişdi. Təfsir üzrə məşhur "Ədvaul-Bəyan" kitabının müəllifidir.

[33] Şeyxin tərcümeyi-halı beşinci şübhəyə cavabın haşiyəsində verilmişdir.

[34] Teysirul-Kərimir-Rahmən, Əbdür-Rəhman əs-Sədi. səh 973.

[35] Təfsirul-Müyəssər, Saleh ibn Əbdül-Əziz Ali Şeyxin elmi rəhbərliyi altında bir qism təfsir aliminin də iştirakı ilə hazırlanmış təfsir kitabı. səh 526.

Peyğəmbərə ﷺ itaət isə onun sağlığında da olur, o öldükdən sonra da olur[36].

İstər peyğəmbərin ﷺ sağlığında, istər də ölümündən sonra haqq yol budur. Bu mövzudan sonra bu həqiqəti (hədislərin peyğəmbərin vəfatından sonraya da aid olduğunu) inkar edənlərə ayrıca, qısa şəkildə cavab verəcəyik.

**Dəyərli oxucu!** Allah açıq-aydın şəkildə buyurub ki, Öz nazil etdiyi Quranın izahını özü verəcək. Bu da hədislər yoluyladır. Bu barədə ayə belədir: **"Biz onu oxuduğumuz zaman sən onun (Quranın) oxunuşunu izlə. Sonra, sözsüz ki, onu izah etmək də Bizə aiddir".** (Qiyamət, 18-19)

Bu ayədə Allah buyurur: **"Sən onun (Quranın) oxunuşunu izlə" Məsələn; peyğəmbər "zəkat verin"** (əl-Bəqərə, 43) ayəsini izlədi.

Allah isə sonra deyir ki, "**onu izah etmək də Bizə aiddir".** Biz bu məqamda quraniyə sual veririk: zəkatın necə veriləcəyini, hansı maldan nə qədər çıxarılacağının izahını indi bizə Quranda göstərə bilərsinizmi?

[36] Peyğəmbərə ﷺ itaətin onun həyatında da, ölümündən sonra da vacib olması haqqında daha geniş bu mənbədən oxuya bilərsiniz. (əs-Sunnə va Məkəntuhə fit-Təşri əl-İsləmi. Mustafa əs-Sibəi. səh. 90-dan 99-a kimi).

**Haydı, göstərin! Göstərə də bilməzsiniz!**

Lakin biz sizə mötəbər hədislərdə bu izahı göstərə bilərik.

Yuxarıda çəkdiyimiz misallar kimi, onlarla misal göstərə bilərik ki, Quranın izahı mötəbər hədislərdə mövcuddur. Deməli, bu hədislər vəhy olan mötəbər sünnədir. Çünki, bu izahları peyğəmbər ﷺ özündən etmirdi. Qurani-Kərimin təfsirləri buna misallarla zəngindir.

Bu cavabın əvvəlində qeyd etmişdik ki, peyğəmbərin ﷺ danışığı da vəhydəndir. Buna dəlil olaraq ən-Nəcm surəsi 3-cü və 4-cü ayələri göstərmişdik.

Növbətli fayda isə odur ki, Allah sonra belə buyurur: "**Sözsüz ki, onu (Quranı) izah etmək də Bizə aiddir.**" Quranı izah etməyi Allah özünə aid edir. Bu isə bir növ sünnəni Özünə aid etmiş olur – deməkdir. Bu "**aid etmə**" Quranın izah edilməsinin peyğəmbərə ﷺ tapşırılması yoluyla baş vermişdir. Yəni, Allah Cəbrayıl mələyi vasitəsilə Quranın mənalarını peyğəmbərinə ﷺ izah etmiş, peyğəmbər ﷺ də sünnəsi yoluyla o mənaları bizə çatdırmışdır.

Beləcə, Allahdan gələn izah da vəhy sayılır və peyğəmbər ﷺ yoluyla bizə çatdırılmış olur.

Uca Allah buyurur: **"Sənə də Zikri nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən və bəlkə onlar fikirləşələr".** (ən-Nəhl, 44)

Beləcə, biz bu izahı hədislərdə tapmış oluruq.

Həmçinin, "**Sözsüz ki, onu (Quranı) izah etmək də Bizə aiddir**" - ayəsi barədə ibn Kəsir (Allah ona rəhmət etsin) alimlərdən bir qisminin belə dediyini nəql edir: "**Sonra Quranı sənin dilinlə izah etmək bizə aiddir".** Eyni ayənin təfsirində yenə ibn Kəsir imam Qatadənin[37] belə dediyini rəvayət edir: *"Quranın halalının izahı, haramından və günahından çəkindirmək və itaətin izahı bizə aiddir"*.

Həmçinin, ibn Abbasdan da rəvayət olunur ki, o bu ayənin təfsiri barədə dedi: *"Quranı sənin dilinlə izah etmək bizə aiddir"*[38]. İbn Abbas (Allah ondan razı olsun) səhabələrin içində Quranın mənalarını ən yaxşı bilən şəxs idi, peyğəmbərimiz onun ﷺ haqqında dua edib:" *"Allahım ona təvili (təfsiri) öyrət" dediyi səhabədir"*.

O cümlədən də Uca Allah buyurmuşdur: **"Allahın evlərinizdə oxunan ayələrini (Quranı) və hikməti (Peyğəmbərin qoyduğu qayda-qanunu) xatırlayın. Allah (möminlərə) lütfkardır, (bəndələrinin bütün əməllərindən) xəbərdardır"!** (əl-Əhzab, 34).

---

[37] Qatadə (680-735) O, Əbül-Xəttab Qətadə ibn Dəamə ibn Qətadə ibn Əzizdir. Həmçinin deyilmişdir: Qətadə ibn Dəamə ibn Ukəbə əs-Sədusiəl-Bəsri. Onun haqqında Zəhəbinin bu sözləri kifayət edir: "Əsrin hafizi, təfsirçilərin və hədisçilərin nümunəsi idi, o, elm qablarından biri və əzbərinin qüvvəsinə örnək nümunə göstəriirdi. .

[38] Təfsirul-Quranil-Azim. İbn Kəsir. 23/505.

Başqa bir ayədə isə uca Allah buyurmuşdur: "**Allah sənə Kitabı və hikməti (Quranı və Sünnəni) nazil etdi və bilmədiyin şeyləri sənə öyrətdi. Allahın sənə olan lütfü böyükdür".** (Ən-Nisə, 113).

İmam Şafi[39] (Allah ona rəhm etsin) bu ayələr barədə buyurmuşdur: *"Allah Təala kitabı zikr etmişdir və o, Qurandır. Həmçinin, hikməti zikr etmişdir və Quran elminin əhlindən razı olduqlarımın belə dediklərini eşitmişəm: "hikmət Allah elçisinin ﷺ sünnəsidir"*[40].

Əgər biz Quranı Muhəmməd peyğəmbərin ﷺ izahından başqa bir izahla anlamağa çalışsaq, hədislərsiz, sünnəsiz bu yola çıxsaq, Qurandan uzaqlaşmış olar, Quranın əmrini tərk etmiş olarıq.

Nəhl surəsi 44-cü ayə bizə: "**Sənə də Zikri nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən**" əmrini verərkən, biz bu əmri inkar etmiş olarıq. Bu əzəmətli əmrdən açıq-aydın görünür ki, Allah bizə öz elçisinin ﷺ Qurana etdiyi izahla getməyimizi əmr edir. Bu izah isə sünnədə vardır.

---

[39] Əbu Abdullah Muhəmməd ibn İdris əş-Şafi əl-Mutallibi əl-Quraşi (767 - 820): Əhli Sünnənin böyük alimlərindən, imamlarından olmuşdur. O,Əhli Sünnənin məşhur dörd fiqhi məzhəbinin imamlarından biridir. O, "ər-Risələ", "əl-Umm", "Cəmməul-İlm", "Əhkamul-Quran", "Fədailu Qureyş" və s. bir çox kitabların müəllifidir. Dəyərli imam elmə böyük xidmətləri ilə tanınmış, vəfatından sonra Şafi məzhəbi ərsəyə gəlmişdir.

[40] "ər-Risələ" əsəri. Muhəmməd ibn İdris əş-Şafi. 111.

Sünnəni inkar edən elə bu ayə kimi onlarla Quran ayəsini də inkar etmiş olur.

Əgər insan düşünsə ki, Quran, Muhəmməd peyğəmbərin ﷺ sünnətində gətirdiyi bütün gözəl əxlaqları, əqidələri, hökmləri, müamilələri əvəz edəcəkdir, onda o insan Məhəmməd peyğəmbərin ﷺ bir elçi kimi göndərilmə missiyasını inkar etmiş olar. Onda əlimizdə olan Quran bu sünnədə olan təfsilatı vermək üçün ən azı indiki Quranın üç qatı olmalı idi.

Allah əbəs yerə buyurmamışdır: "**Allah möminlərə, öz aralarından onlara Allahın ayələrini oxuyan, onları günahlardan təmizləyən, onlara Kitabı və Hikməti (Sünnəni) öyrədən bir Elçi göndərməklə mərhəmət göstərmişdir. Halbuki əvvəllər onlar açıq-aydın azğınlıqda idilər".** (Ali İmran, 164)

Digər ayədə isə uca Allah buyurur: "**Allahın Elçisi sizlərə – Allaha və axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir".** (Əhzab. 21).

Gəlin, bu ayəyə fikir verək!

Əgər peyğəmbərin ﷺ sünnəsi bizə gəlib çıxmayıbsa, biz ondan necə örnək, nümunə götürək?

Belə halda biz necə onun yoluyla gedək və ona necə itaət edək? Bu zaman biz necə onun bizə verdiklərini götürüb qadağan etdiklərindən çəkinək?! Bu ayəyə də fikir verək:

**"Əgər Muhəmməd bəzi sözləri özündən uydurub Bizə aid etsəydi, Biz onu sağ əlindən yaxalayar, sonra da şah damarını kəsərdik".** (əl-Məaric. 44-46).

Bu ayəni oxuyan bir insan, Allahın təhdidini görən insan, görəsən, bundan sonra peyğəmbərin ﷺ nəyi isə vəhyə zidd olaraq özündən halal və ya haram etməsinə, onun nəfsinə, havasına uyub şəriətdə nəyi isə səhv izah etməsinə etiqad edə bilərmi?

Haşa, əlbəttə ki, yox! Şəkk yoxdur ki, o "Sadiqul-Əmin"[41] olan peyğəmbərdir.

O zaman bu peyğəmbərin ﷺ hərəkətləri, sözləri və feilləri də bu ilahi iradəyə tabe olacaqdır ki, onun dinlə əlaqəli olan sözü, feili və ya susması yalnız Allahdan bildiriş və öyrədilmə yolu ilə mümkündür.

İslami anlayışa görə isə məxluqla (yaradılmışla) xaliqin (yaradanın) bu cür rabitəsi yalnız vəhy yolu ilə mümkündür.

Bunun kimi sünnənin də vəhydən olduğuna inanırıq. Çünki, sünnə vasitəsilə Allahın şəriətinin təfsilatlarının öyrədilməsi və xəbər verilməsi gerçəkləşir ki, bu da Allahdan xəbər verilmə və öyrədilmə yoluyla baş verir.

**Məsələn:** məşhur Cəbrayıl hədisində Cəbrayıl insan surətində peyğəmbərin ﷺ yanına gəlib suallar verib

[41] Yəni, doğru və sadiq.

getdikdən sonra peyğəmbər ﷺ buyurur: ***"Bu gələn Cəbrayıl idi. Sizə dininizi öyrətməyə gəlmişdi"***[42].

**Hədislər Quranın işığında:** Uca Allah Qurani-Kərimdə buyurmuşdur: **"Biz hər bir elçini, Allahın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik".** (ən-Nisa, 64).

Allah bəzi peyğəmbərlərinə səmavi kitablar göndərmiş, bəzilərinə səhifələr göndərmiş, bəzilərinə isə hədisləri vəhy etmişdir - onların kitabları olmamışdır. Bu hədislər onların şəriətləri və əhkamları olmuşdur. İsmayıl, İshaq, Yunus, Lut, Hud (onların hamısına Allahın salavatı və salamı olsun) və başqa peyğəmbərlər bu növdən olan peyğəmbərlərdən olmuşlar[43].

Onların sünnəsinə müxalif olanlara əzab nazil olmuş və Qiyamətə kimi rüsvay edilmişlər.

Quranda həmin peyğəmbərlərin hansısa kitabının olduğu qeyd edilməyib.

Həmçinin, Allah öz peyğəmbəri Muhəmmədə ﷺ iki cür vəhy (Quran və Sünnə) göndərmişdir. Allah buyurur: **"Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi sənə də vəhy etdik".** (ən-Nisa, 163)

---

[42] Səhih əl-Buxari. İman kitabı. 1/18 və təfsir kitabı. 1/78. Səhihi Muslim. Səhihi Müslim. İman kitabı. 1/28.

[43] Mənbə: Hucciyyətul-Hədis ən-Nəbəvi, Muhəmməd İsmayıl, səh 110.

**Müxtəlif vəhy yolları:** Uca Allah vəhy yollarını bəyan edərək buyurur: "**Allah insanla ancaq vəhylə və ya pərdə arxasından danışır, yaxud bir elçi göndərir və o da Allahın izni ilə Onun istədiyini vəhy edir".** (Şura. 51).

Mümkündür ki, keçmiş peyğəmbərlərin hamısına ayədə qeyd olunan üç vəhy yolu ilə deyil, bu yollardan yalnız biri ilə vəhy olunsun.

Lakin, Məhəmməd ﷺ peyğəmbərə vəhyin nazil olması haqqında açıq-aydın bu ayədə danışılır: "**Onu sadiq Ruh (Cəbrail) endirdi – sənin qəlbinə ki, xəbərdar edənlərdən olasan".** (əş-Şuəra, 193-194).

Bu ayədə Allahın qullarına xitabı Quranın, sünnənin, peyğəmbərin sözlərinin əhəmiyyətinin bilinməsi üçündür.

Quranı nazil edən Allaha bu gələcəkdə yaranacaq problemlər, hədis rəvayətçilərinin əzbər səviyyəsi, adilliyi, naqisliyi, istisna halları, digər qüsurları gizli deyildi.

Əks halda hədislərin bu qədər əhəmiyyətli olması barədə Quranda bu qədər ayələr nazil olmazdı.

**Qurani-Kərimdə hədislərin iki cür qeyd olmasını görə bilərik.**

*Birincisi:* Peyğəmbərə ﷺ itaətin Allaha itaətdən müstəqil şəkildə qeyd olunduğu ayələr.

*İkincisi*: Allahın ayələrindəki məqsədlərin yalnız hədislər yoluyla tamamlanacağının xatırladıldığı ayələr.

Hər iki növ hədisləri ehtiva edən ayələri burada qeyd edəcəyik:

**Birinci qəbildən olan ayələrdən bəziləri:**

1 – "**Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar". **(ən-Nisa, 65).

Bu ayə sünnənin hüccət olmasına ən aydın dəlillərdən biridir. Bu Allahın vəhyi ilə təsdiqlənmişdir.

Burada Allahın hökmündən deyil, peyğəmbərin ﷺ verdiyi hökmlərdən söz açılmışdır.

Peyğəmbərin ﷺ hökmünün yalnız onun zamanına aid olduğunu deyənlər isə bu ayədəki kimi heç bir sıxıntı keçirmədən tam təslim olmamış kəslərdir.

2 – "**Biz hər bir elçini, Allahın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik.**" (ən-Nisa, 64).

Bu ayə itaət və tabeçiliyi peyğəmbərliyin həqiqi məqsədi etmişdir.

Əgər bir kimsə peyğəmbərliyə və ya bu peyğəmbərə iman gətirər, lakin, ona itaəti və tabeçiliyi zəruri görməzsə, deməli, həmin şəxs ən aşağı halda peyğəmbərliyin həqiqi qayə və məqsədindən cahil qalmışdır.

Bir şeyin qayə və məqsədini inkar etmək isə o şeyin faydasını və özü-özlüyündə xeyir verməsini inkar etməkdir.

3 – "**Allah və Onun Elçisi bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər. Allaha və Onun Elçisinə asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür**". (əl-Əhzab, 36).

Bu ayə dəlalət edir ki: Muhəmməd peyğəmbərin ﷺ hökmünü qəbul etmək imanın doğru olması üçün şərtdir.

Həmçinin, peyğəmbər ﷺ bir hökmü verdiyi zaman şəxsi seçim yeri qalmır.

Hər kimsə də peyğəmbərin bir məsələdə hökmünü bilə-bilə öz seçimində israr edərsə, ona açıq-aydın zəlalətə düşmək vəd edilmişdir.

4 – "**Qoy onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar**". (Nur. 63).

Peyğəmbərin ﷺ hökmlərindən hiylə yoluyla və üzürlər gətirib qaçmaq icazəli deyildir.

Bu, münafiqlərin sifətlərindəndir. Bu ayədə peyğəmbərin əmrinə qarşı çıxanlara şiddətli əzab vəd edilmişdir.

5 – "**Namaz qılın, zəkat verin və Peyğəmbərə itaət edin ki, sizə rəhm edilsin**". (Nur. 56).

Digər ayədə isə uca Allah buyurur: "**Namaz qılıb zəkat verin, Allaha və Onun Elçisinə itaət edin. Allah nə etdiklərinizdən xəbərdardır".** (əl-Mucədələ. 13)

Bu ayələrdə də peyğəmbərə ﷺ itaət, onun sünnəsinə tabeçiliyə diqqətlər yönəldilir. Allah kimin sünnəyə rəğbətli olduğunu, kimin də sünnədən yayınmaq istədiyini bilir.

6 – "**De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir".** (Ali İmran. 31)

Peyğəmbərin ﷺ ardınca getmək, ona itaət etmək isə həm onun sağlığında, həm də vəfatından sonra mümkündür. Vəfatından sonra isə bu tabeçilik sünnəyə tabeçilik ilə gerçəkləşir.

7 – "**Cəbrayıl sənə Quranı nazil etdikdə onu tələm-tələsik yadda saxlamaq üçün dilini tərpətmə! Şübhəsiz ki, sənin qəlbində onun qərar tutması və dilinlə onun oxunması Bizə aiddir. Biz onu oxuduğumuz zaman sən onun oxunuşunu izlə. Sonra, sözsüz ki, onu izah etmək də Bizə aiddir".** (Qiyamət. 16-19).

Quranın izahı isə peyğəmbərin ﷺ vasitəsilə olduğu üçün sünnə də vəhydən hesab edilir. Çünki, bizə məlum olan odur ki, Quranı peyğəmbər ﷺ izah edib. Bu izah sünnədə gəlmişdir. Allah isə bu izahı özünə nisbət etdiyi üçün sünnə də vəhydən hesab edilir.

8 – "**Biz onu (Quranı) sənin dilinlə asanlaşdırdıq ki, onunla müttəqilərə müjdə verəsən və inadkarlara xəbərdarlıq edəsən".** (Məryəm, 87).

Peyğəmbərin ﷺ diliylə Quranın asanlaşdırılması isə Quranın Sünnə ilə izahıdır.

9 – "**And olsun batmaqda olan ulduza! Sizin yoldaşınız nə haqdan azmış, nə də yoldan çıxmışdır. O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir. Bunu ona çox qüvvətli olan öyrətdi".** (ən-Nəcm. 1-5).

Bu ayədə peyğəmbərin ﷺ azğınlıqdan və zəlalətdən qorunması qeyd olunmuşdur.

Sonra isə onun danışığının hamısının vəhydən olduğu, həmçinin nəfsin istəklərindən uzaq olduğu qeyd olunmuşdur.

**İkinci qəbildən[44] olan ayələrdən bəziləri:**

Qurani-Kərimdə bəzi ayələr də vardır ki, bu ayələr hədislər olmadan tam izah olunmamış qalır və bu da bizə hədislərə olan zərurəti ortaya çıxarır.

---

[44] Xatırlatma asanlaşdırma üçün qeyd edək ki, ayələri sadalamağa başlamadan öncə bu məlumatı vermişdik: **Qurani-Kərimdə hədislərin iki cür qeyd olmasını görə bilərik.** *Birincisi*: Peyğəmbərə ﷺ itaətin Allaha itaətdən müstəqil şəkildə qeyd olunduğu ayələr. *İkincisi*: Allahın ayələrindəki məqsədlərin yalnız hədislər yoluyla tamamlanacağının xatırladıldığı ayələr. Bu səhifədə ikinci qeyddəkki mahiyyətli ayələrdən bəhs edilir.

Bu ayələrdən:

1) "**Həqiqətən, Allah yanında ayların sayı on ikidir. Bunu da Allah göyləri və yeri yaratdığı gündə Kitaba yazmışdır. Bunlardan dördü haram aylardır".** (ət-Tövbə. 36).

Bu dörd ay Quranda mücməl (ümumi) olaraq varid olmuşdur. Bu aylarda döyüş, döyüşə başlamaq və mübahisə etmək qadağan edilmişdir. Lakin, Qurani-Kərimdə on iki ayın adları yoxdur. Bu dörd ay barədə təfsilatlar da qeyd edilməmişdir. Lakin, bu təfsilatları, ətraflı izahları hədislərdə və ya ərəblərin tarixində tapmaq mümkündür. Biz indi bilmirik ki, quranilər bu məlumat və izahları tapmaq üçün iki mənbədən hasına istinad edəcəklər?!

2) Növbəti ayədə Uca Allah buyurmuşdur: "**Etdikləri əməlin əvəzində Allahın cəzası olaraq oğru kişinin və oğru qadının əllərini kəsin! Allah Qüdrətlidir, Müdrikdir".** (əl-Maidə. 39).

**"Əl"** sözü ərəb dilində dırnaqdan çiyinə kimi olan məsafəni əhatə edir. Quran isə əli kəsməyi əmr etdi, lakin, oğrunun əlinin haradan kəsiləcəyini qeyd etmədi.

Mütəvatir[45] hədislər yoluyla sabitdir ki, oğrunun əli onun biləyinə kimi kəsilə bilər.

---

[45] **Mütəvatir hədis**: bir çox səhabələrin ittifaqla rəvayət etdiyi hədislərdir. İstilahi cəhətdən ən aydın təriflərindən biri belədir: "Mütəvatir hədis: Özləri kimi (etibarlı) insanların yalan üzərində

Bu hədd isə sünnə üzərində qurulmuşdur. Əgər sünnə inkar olunsa, gərək əllərin çiyinlərdən kəsilməsinin gərəkdiyinə inanaq və ya özünə nisbət olunacaq başqa bir mənbə axtaraq. Bu da Qurandan sünnə barədə edilən bir çağırışdır. Yəni, Quran özü sünnənin izahı olmadan izah olunmayacaqdır. Bu da özlüyündə dəlildir ki, sünnə bir məsdər (mənbə) kimi hüccətdir.

3) "**Namaz qılın və zəkat verin".** (əl-Bəqərə, 43).

Qurani-Kərimdə namaz və zəkat əmrləri olduqca çox təkrarlansa da, lakin, namazın vaxtlarının, rükətlərinin, vaciblərinin, sünnələrinin, tək və cüt rükətlərinin, səsli və səssiz olanlarının necə qılınması izah edilməmişdir. Bu,

---

razılığa gəlmələri və ittifaq etmələri mümkün olmayan bir toplum (çoxsaylı insan və ya səhabə) tərəfindən rəvayət edilən hədislərdir. Xəbərlərinin istinadı hisdir". Yəni, eşitmək və ya görmək yoluyladır. Mütəvatir hədisin şərtləri:
1 - Çoxlu rəvayətçilər tərəfindən rəvayət edilməlidir. 2 - Rəvayətçilərin sayı o həddə olmalıdır ki, onların yalan üzərində razılığa gəlmələri mümkünsüz olsun. 3 - Hədisin sənədinin bütün təbəqələrində rəvayətçilərin sayı çox olmalıdır. Beləcə çoxsaylı insanlar peyğəmbərə ﷺ çatana kimi çoxsaylı insanlardan rəvayət etmiş olurlar. 4 - Xəbərlərinin istinadı hiss olmalıdır. Deməlidirlər ki: "eşitdik və ya gördük". Çünki, belə olmadığı təqdirdə bura səhv daxil ola bilər və rəvayət mütəvatir həddə olmaya bilər. (Teysiru Mustalah əl-Hədis. Dr. Mahmud ət-Tahhan. səh. 21-22. Misir nəşri. 1415 hicri).

namaz barədə olan təfsilatlardır ki, bunları ancaq hədislərdə tapmaq mümkündür.

Həmçinin, Quranda zəkat barəsində də təfsilat, ətraflı izah yoxdur. Yəni, sadəcə zəkat verin əmri var, amma zəkatın illik hansı maldan, hansı puldan nə qədər çıxarılmasının izahı barədə də bir izah yoxdur.

Zəkat barəsində o qədər xırda, incə məsələlər var ki, bunların izahları yalnız hədislərdə mövcuddur, tək Quranla bu suallara cavabların tapılması mümkünsüzdür.

Ona görə də sünnəni bir kənara qoyaraq, sünnəyə ehtiyac yoxmuş kimi Qurandakı bu ayələri özbaşına izah etmək istəyənlər uğursuzluqla üzləşmişlər.

Ona görə də Quranın özü sünnə yoluyla izah edilməyi tələb edir.

4) "**Ey libasına bürünüb örtünmüş peyğəmbər! Az bir hissəsi istisna olmaqla gecələr namaza dur! Onun yarısını, yaxud ondan bir az əskilt". **(Muzzəmmil. 1-3).

Digər ayədə uca Allah belə buyurub: "**Həqiqətən, Rəbbin bilir ki, sən və səninlə olan insanların bir qismi bəzən gecənin üçdə ikisindən az, bəzən yarısını, bəzən də üçdə birini ibadət üçün durursunuz". **(Muzzəmmil. 20).

Başqa ayə isə belədir: "**Onlar gecə namazını qılmaq üçün böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən Allah yolunda xərcləyirlər".** (Səcdə. 16).

Qurani-Kərimdə nafilə namazların növləri və ya qılınış şəkli, forması barədə məlumat yoxdur. Duha namazı, vitr namazı, istixarə namazı, məscidi salamlama (təhiyyət) namazı, təravih namazı və s. barədə məlumat və ya təfsilatlar, izahlar yoxdur.

Bütün bunların hamısı hədislərdə var. Hədisləri bu aspekdən Quranın izahıdır. Quranda bir əmr verilir, onu necə yerinə yetirməyin təfsilatı, izahı isə hədislərdə verilir.

Hədis inkarçıları nafilə ibadətləri inkar etməklə qul ilə rəbbi arasına girmiş olur və insanları bu böyük xeyirdən məhrum etmiş olurlar.

Sünnədə gündəlik beş namazdan əvvəl və sonra qılınan, hədislərdə təkidlə vurğulanmış 12 rükət nafilə (sünnə) namazları var ki,  quranilər onları  qəbul etmirlər.

Quranda özünə ümumi şəkildə işarə edilən bu nafilə namazları yuxarıda qeyd etdik.

## SƏKKİZİNCİ ŞÜBHƏ:
## Peyğəmbərə itaət ayələri yalnız peyğəmbərin zamanına aiddirmi?

**Şübhə belədir:** “Bizə dəlil olaraq gətirdiyiniz peyğəmbərə itaəti əmr edən ayələr peyğəmbərin zamanına və onu görən ərəblərə aiddir”.

**Cavab belədir:**

**Birincisi:** Əgər elə olsaydı, Muhəmməd peyğəmbər ﷺ son peyğəmbər olmaz və qiyamətə kimi onun şəriətinə tabe olmaqla insanlar mükəlləf olmazdılar; O şəriət ki, onun böyük hissəsinin izahı Quranda deyil, məhz hədislərdədir.

Uca Allah buyurmuşdur: "**Muhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir".** (Əhzab, 40).

Bu ayəyə əsasən sonuncu peyğəmbərin ﷺ şəriəti qiyamətə kimi qüvvədə olmalıdır. Bunu inkar etmək isə alimlərin icmasıyla küfrdür. Bu ayədə açıq-aydın Muhəmməd peyğəmbərin ﷺ son peyğəmbər olduğu ifadə edilir.

Sonuncu şəriət qiyamətə kimi qüvvədə olmalıdırsa, bu həqiqəti inkar etmək Allahı öz qullarını peyğəmbərin Qurana etdiyi izahdan və bəyandan məhrum etməsi,

qullarını yardımsız qoyması, şəriətlə qüvvətləndirməməsi kimi anlaşılır.

Bu isə Allaha qarşı çirkin bir iftiradır.

**İkincisi:** Muhəmməd peyğəmbər ﷺ bütün bəşəriyyətə elçi olaraq göndərilmişdir; bunu inkar etmək də küfrdür.

Uca Allah buyurur: "**Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən bir peyğəmbər kimi göndərdik. Lakin insanların çoxu bunu bilmir". (Səba. 28).**

Məhəmməd peyğəmbərin ﷺ öz dövründəki bütün insanlara və ölümündən sonra da gələn insanlara elçi olaraq göndərilməsini inkar edən Quranın bu ayəsini inkar etmiş sayılır. Bu ayədəki "**bütün insanlara**" sözü olduqca açıq-aydın bir işarədir. Bunu anlamaq üçün isə sadəcə haqqın yanında olmaq istəyi bəs edər. Peyğəmbərin zamanında insanlar şirk içində idilər və Qurani-Kərimdə bu cahiliyyət dövrü[46], şirk elementləri[47] ilə mübarizə barədə çoxlu ayələr

---

[46] Cahiliyyət dövrü: İslam dininin gəlişindən əvvəlki dönəm cahiliyyət dövrü hesab olunur. İmam Nəvəvi demişdir: "Cahiliyyətdən qəsd olunan məna İslamdan əvvəlki dövrdür". (Şərhu Sahihi Muslim. 2/110). İbnul-Əsir demişdir: "Bu, yəni cahiliyyət dövrü - ərəblərin İslamdan öncə üzərində olduqları haldır. Allahdan, peyğəmbərindən ﷺ, dinin qanunlarından cahillik, əsil-nəcabətlə öyünmək, təkəbbürlük, yekəxanalıq və s". (ən-Nihəyətu fi Ğaribil-Hədis. 1/232; Lisənul-Arab. "Cəhl". 11/130).

[47] Şirk elementləri: Allahdan qeyrisinə qurban kəsmək, bütlərə ibadət və s.

vardır[48]. Bununla yanaşı deyilə bilməz ki, bu şirk elementləri ilə mübarizə yalnız həmin dövrə aiddir və bu günə aid deyil. Bunu heç bir ağıl sahibi söyləməz. Çünki ibrət ləfzin ümumi mənasındadır, ibrət səbəbin xüsusiliyində deyildir. Belə olduqda həmin bütpərəstlər barədə olan ayələr zaman və məkan (məhdud insanları qəsd etmək) fərqi olmadan digər zamanları da əhatə etmiş olur.

Əgər bu Quran haqqında belədirsə, hədislər haqqında da belədir. Həmin şirk elementləri barədə ayələr olduğu kimi, hədislər də vardır. Sünnənin əsas xüsusiyyətlərindən biri də Quranı tamamlaması, təsdiqləməsi və anlaşılmayan məqamları daha aydın şəkildə izah etməsidir.

**Üçüncüsü:** Peyğəmbərin ﷺ vəfatından sonra da xəlifələr yalnız Quran və hədislərdə bir hökm tapmadıqda özləri

---

[48] Məsələn: "Elə isə murdar bütlərdən uzaq olun". (əl-Həcc. 30). Digər ayə belədir: "Doğrudan da mən, hənif olaraq üzümü göyləri və yeri yaradana çevirdim. Mən müşriklərdən deyiləm". (əl-Ənam. 79). Həmçinin: "De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm". (əl-Ənam. 163). Həmçinin buyurmuşdur: "Şübhəsiz ki, məscidlər Allaha məxsusdur. Elə isə Allahla yanaşı heç kəsə dua etməyin!" (əl-Cinn. 18), "dik qoyulmuş daşlar (bütlər) üzərində kəsilmiş heyvanlar və fal oxları ilə qismət axtarmanız sizə haram edildi". (əl-Maidə. 3) və (İbrahim. 35) və s. çoxsaylı ayətləri misal gətirmək olar.

ictihad edirdilər! Hədislər peyğəmbərin sağlığına aid idisə, onda onun vəfatından sonra bu necə baş verirdi?!

İslam xəlifələri görəsən niyə peyğəmbərin ﷺ vəfatından sonra da onun hədislərinə əməl edir və hədisləri yaşadırdılar? Onlar peyğəmbərin ﷺ ən yaxın dostları və silahdaşları deyildilərmi?

Görəsən, onlar peyğəmbərin ﷺ və dinin məqsədini bizdən yaxşı bilmirdilərmi?!

Əgər peyğəmbəri ﷺ bu gün təsdiqləyiriksə, onun fellərini və sözlərini də təsdiqləməliyik.

Peyğəmbərə ﷺ iman küfrlə imanı ayırd edən amil olduğu halda onu (şərti) rəmzi olaraq təsdiqləyib onun əməlindən uzaq yaşamaq, onun sözlərini və fellərini inkar etmək hansı ağlın məhsuludur görəsən?!

Uca Allah məgər Quranda buyurmayıbmı ki: "**De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir"**. (Ali İmran, 31)

Ona görə də hədis inkarçıları necə ki, Qurandakı hökmləri yalnız həmin peyğəmbərin zamanına və həmin dövrdəki ərəblərə şamil etməyərək özlərini də bununla mükəlləf görürlərsə, eləcə də hədislərə olan münasibətləri də bu cür olmalıdır.

Yoxsa, hədislərlə Qurandakı hökmlərin fərqi nədir ki?

## DOQQUZUNCU ŞÜBHƏ:
## Peyğəmbər hədis yazmağı birdəfəlik qadağan etmişdirmi?

**Şübhə belədir:** Əgər sünnə (hədislər) hüccət olsaydı, peyğəmbər ﷺ onu yazmağı əmr edər, bundan sonra səhabə və tabeinlər onu toplamaqla məşğul olardılar. Lakin biz görürük ki, peyğəmbər ﷺ yazılan hədislərin silinməsini əmr etmişdi. Rəvayətlərdə bəzi səhabələrin hədis yazmaq fikrindən daşındığı gəlmişdir. Bəziləri isə yazdıqlarını yandırmışdılar.

**Bu şübhənin cavabı:** Peyğəmbərin ﷺ hədisləri yazmağı əmr etməməsi və bunu qadağan etməsi hədislərin hüccət olmamasına dəlil deyildir.

Çünki, həmin dövrdə yazanların az olmasına baxmayaraq məsləhət Quranın hədislərlə qarışmasının qarşısını almaq idi. Əsas məqsəd birinci Quranın yazılması idi. Bu məqsəd həyata keçdikdən sonra isə artıq hədislərin yazılmasında bir problem qalmadı və peyğəmbər ﷺ hədis yazmağa mane olmadı. Buna dəlalət edən hədislərdən bəzilərini də cavab əsnasında qeyd edəcəyik.

Hüccət sayılmaq hədislərin tez yazılıb yazılmamasına bağlı deyildir, hətta, kimsə desin ki, əgər sünnənin hüccət

olması məqsədi olsaydı, peyğəmbər ﷺ sünnənin yazılmasını əmr edərdi.

Artıq qeyd etdik ki, hədislərin bir müddət Quranla qarışmasın deyə yazılmasına müvəqqəti qadağa qoyan hədislər olduğu kimi, hədis yazmağa icazə verən hədislər də var.

Ədalət, insaf və elmi əmanət naminə deyim ki, araşdırma zamanı maraqlı bir halın şahidi oldum; deməli, quranilərin hədis yazmağı qadağan edən hədis və rəvayətləri gətirdikləri əsas mənbələrdən biri olan imam İbn Abdil-Bərr[49]in (Allah ona rəhmət etsin) "Cəmiu Bəyənil-İlmi va Fadlihi" kitabında, təxminən kitabın əvvəllərində (14-cü fəsildə) elmi (hədisi) yazmağı (müvəqqəti) qadağan edən rəvayətlər olduğu halda, növbəti fəsildə imam İbn Abdil-Bərr (Allah ona rəhmət etsin) babın adını belə qoyub: *"Elmi (hədisləri) yazmağın icazəli olmasının xatırlanması"*.

Yəni, bu barədə olan rəvayətlərin yazılmasının icazəli olması. O, birinci hədis yazmağı (Quranla qarışmasın deyə) müvəqqəti qadağan edən hədisləri gətirmiş, növbəti fəsildə isə hədis yazmağı icazəli görən hədisləri gətirmişdir ki, insanlara bunun səbəbi aydın olsun və insanlar elə bilməsinlər ki, hədis yazmaq mütləq şəkildə olmaz. Əslində bu bir zaman çərçivəsində qadağan edilmişdi ki, sonradan

---

[49] İbn Abdil-Bərr (978-1071): birinci şübhəyə cavabın haşiyəsində tərcümeyi-halı haqda qısa danışılmışdır.

hədislərin yazılmasına mane olan səbəb aradan qalxdıqdan sonra artıq hədisləri yazmaq icazəli oldu.

Lakin quranilərin məsələni səhv anlamaqları bir yana qalsın, hələ bu kitabdan özlərinə sərf edən rəvayətləri götürüb insanları da aldatmağa çalışmışlar. Mən bütün bu şübhədə olanları insafla və ədalətlə həmin kitabdakı hər iki fəsildə yazılmış rəvayətləri oxumağa dəvət edirəm. Ümid edirəm ki, bunu etsələr, onlara həqiqət günəş kimi aydın olacaq və şübhələri aradan qalxacaqdır.

**Dəyərli oxucu! Hədis elmi əzəmətli bir elmdir.**

Allah bu elm vasitəsilə peyğəmbərin ﷺ hədislərini qorumuş və hədislər günümüzə gəlib çıxmışdır. Hədislərin qəbul edilməsinin müəyyən şərtləri vardır ki, İslam alimləri tarix boyu bu şərtləri tətbiq edərək hədislərin mötəbərliyini yoxlamış, hədisləri necə gəldi qəbul etməmişlər.

Onlar sonradan gələn müsəlmanların hədisin mötəbərliyini araşdırmaqda əziyyət çəkməmələri üçün hədisin qəbul edilmə şərtlərini təyin etmişlər.

**Səhih (sağlam, mötəbər) hədisin qəbul olunması üçün beş şərt vardır:**

Sənədin bağlantısı düzgün olmalıdır.
Hədisin rəvayətçisi ədalətli olmalıdır.
Rəvayətçi hədisi düzgün yolla qəbul etməlidir.

Hədis (istisna və) müxaliflikdən uzaq olmalıdır[50].

Hədis çatışmazlıqlardan uzaq olmalıdır[51].

Bu dediyimiz beş şərt sağlam hədisin qəbul edilmə şərtləridir.

**Gəlin indi bu şərtlərlə bir qədər də ətraflı tanış olaq:**

**Birincisi: Sənədin bağlantısının düzgün olması** dedikdə nəzərdə tutulan odur ki, burada sənədlə rəvayətçi arasında elmi əlaqə olmalıdır.

Yəni rəvayət zəncirindəki hər bir rəvayətçinin bir-birilə görüşüb məlumatı almasına şəkk gətirən zaman və məkan boşluğu olmalı deyildir ki, onların bir-birilə görüşməsinin mümkünsüzlüyü ağıla gəlməsin.

Eyni əsrdə yaşamamaq və ya başqa uzaq ölkələrdə yaşayan insanlar olmaq kimi hallar bura daxildir.

**İkincisi: Rəvayətçinin ədalətli olması** dedikdə isə nəzərdə tutulan onun doğru yolda olan, azğın fikirlərdən uzaq bir şəxs kimi tanınmasıyla yanaşı **bu beş şərt də olmalıdır:**

---

[50] Teysiru Mustalah əl-Hədis. Dr. Mahmud Tahhan. səh. 34.

[51] Mə şurutul-Hədisus-Sahih indəl-Fuqaha vəl-Muhəddisin? səh. 164.

**1) Müsəlman olmalıdır;** qeyri müsəlmanın rəvayəti qəbul edilmir.

**2) Yetkin olmalıdır;** yetkinlik yaşına çatmayanların rəvayətləri qəbul edilmir.

**3) Dərrakəli[52] olmalıdır;** dərrakəli olmayan insanın rəvayəti qəbul edilmir.

**4) Fasiq olmalı deyil;** böyük günah və kiçik günahlar etməklə bilinən şəxsin rəvayəti qəbul edilmir.

**5) Mürüvvət;** bunun mənası odur ki, həmin şəxs cəmiyyətdə insana yaraşan əxlaq sahibi olmalı, sadiqlik (doğruluq) və əmanətlə danışan şəxs olmalıdır[53].

**Üçüncüsü: Rəvayətçinin rəvayəti ən dürüst şəkildə qəbul etməsi və onu əzbərləyib qoruması;** bu isə iki şeylə olur.

**Birincisi:** hədisi şeyxdən qəbul edərkən (tələqqi edərkən) onu düzgün şəkildə qəbul etməlidir.

**İkincisi:** hədisi danışdığı zaman da onu düzgün şəkildə çatdırmalıdır. Ümumiyyətlə, hədis rəvayətçiləri hədislərin nəqlini özbaşına etməyiblər.

Onlar bunun üçün ilk növbədə hədis elmini öyrənməli, dövrün böyük alimlərindən elm almalı, onların elminə alimlər şahidlik etməli idilər.

---

[52] Şüurlu, ağlıkəsən, düşüncəli, idraklı, aqil.

[53] Teysiru Mustalah əl-Hədis. Mahmud Tahhan. səh. 111. Misir nəşri. 1415 hicri. İskəndəriyyə şəhəri.

Alimlər isə yalnız elmi, güclü zəkası və yaddaşı olan şəxslərə müəyyən şərtlərlə hədisi yaymağa icazə verirdilər. Əslində bu geniş mövzudur.

Bu icazənin özü isə iki vasitəylə olurdu:

**1) Əzbərləmək;** Bu barədə qarşıda ətraflı danışacağıq.
**2) Yazmaq;** Bu o deməkdir ki, rəvayətçi din alimlərindən öyrəndiyi hədisin isnadını[54] hədislərin yazıldığı mötəbər bir qaynaqdan doğruluq və əmanət şərtilə başqa bir səhifəyə yazı yoluyla köçürür.

Bu məqamda kiçik bir haşiyəyə çıxaraq bunu qeyd etmək yerinə düşrərdi; bu iki vasitə, yəni yazmaq və əzbərləmək hədis əhlinin metodlarından idi. Hədis əhli həm yazır, həm də əzbərləyirdilər.

Bu isə hədisin daha düzgün şəkildə nəsildən-nəsilə ötürülməsinin əsas amillərindəndir.

Qarşıda isə əzbərin ilkin dövrlərdə və sonrakı vaxtlardakı əhəmiyyətindən danışacağıq Allahın izniylə.

---

[54] İsnad: bu sözdən qəsd olunan hədisin istinadı, hansı qaynaqdan götürülməsidir. Rəvayətlərin isnadına, isnadın mötəbərliyinə fikir vermək bu ümmətin xüsusiyyətlərindəndir. Ona görə ibnil-Mübarək demişdir ki: "Əgər isnad olmasaydı, hər kəs öz istədiyini danışardı" (Müslimin müqəddiməsi. İbnil-Mübarəkin sözü). Bir çox mövzularda qarışıqlıq, problemlər zatən istinadsız deyilən, nəql edilən sözlərdən meydana çıxır.

**Dördüncüsü: Müxalifliyin olmaması;** Bu o deməkdir ki, hədisdə müxalif bir məna və ya daha mötəbər bir hədisə müxalif məna olmalı deyil.

O baxımdan ki, həmin hədis özündən daha qüvvətli hədisdən artıq söz və ya hansısa söz azlığı ilə seçilsin. Bu zaman iki hədis arasındakı ixtilaflı məna cəm edilə bilinmədikdə[55] daha qüvvətli hədis önə çəkilir (etimad edilir), daha zəif hədis isə tərk olunur.

**Beşincisi: Hədisin çatışmazlıqlardan uzaq olması;** O baxımdan ki, hədisin səhihliyinə xələl gətirəcək amillərdən uzaq olmalıdır. Bəzən bu amillər gizli ola bilir ki, bunu da yalnız din alimləri anlayıb bəyan edirlər.

## Hədislərin səhifələrə yazılması məsələsi:

"Hədislərin ilk yazıya alınması" halı Quranın hədislərlə qarışması qorxusu ola-ola, yəni peyğəmbərin sağlığında baş vermişdi[56].

Bu zaman yazı yazanların da sayı az idi. Bütün bu amillər hədisləri yazmağı bacaran şəxslərə, onların xüsusi əməyinə və xüsusi diqqətinə tələbat yaradırdı.

---

[55] Yəni ümumiləşdirilə bilinmədikdə.

[56] Bu mövzunu ətraflı, dəlillərilə oxumaq üçün bax: əs-Sunnə, Məkənətuhə fit-Təşri əl-İsləmi. Dr. Mustafa əs-Sibəi. 102-106. İbn Həzm nəşri. 2010.

Ona görə də ərəblərdə elmin əzbərlənərək ötürülməsinə daha çox önəm verilirdi.

Artıq qeyd etdik ki, hədislərin yazılması həmin dövrdə qeyd olunan səbəblərdən məsləhət deyildi. Lakin, bu o demək deyildir ki, heç də peyğəmbərin ﷺ dövründə sünnədən heç nə yazılmamışdı.

Buxarinin Əbu Hureyrədən rəvayət etdiyi nisbətən uzun hədisdə: *"... Sonra isə Yəmən əhlindən bir kişi gəlib deyir ki, mənim üçün (dindən nə isə) yaz ey Allahın elçisi! Peyğəmbər ﷺ dedi: «Əbu Şah üçün yazın"*[57]**.**

Həmçinin, peyğəmbər ﷺ buyurmuşdur:

***"Qoy burada sizdən iştirak edən gəlməyənlərə bu (bu xütbəm, vida xütbəsi) barədə xəbər çatdırsın. Ola bilsin ki, (sonradan eşidən) xəbər verilən şəxs (söhbətdə) iştirak edən kəsdən daha yaxşı əməl edər"***[58]**.** Bu hədisdə peyğəmbər ﷺ ifadə edir ki, "mənim bu sözlərimi başqalarına çatdırın".

Bir Quraninin çıxıb deməsi ki, "yox çatdırmayın, biz sizə inanmayacağıq" çünki...və s. bəhanələr yalnız peyğəmbərin ﷺ əmrinə xəyanətdən və insanları elmdən, elmi mənbədən məhrum etməkdən başqa bir şey deyil.

---

[57] Səhih əl-Buxari, Kitəbul Elm. 6880.

[58] Səhih əl-Buxari. Kitabul-Elm. 6667.

Həmçinin peyğəmbər ﷺ buyurmuşdur: ***"Allah o kişinin üzünü ağ etsin ki, bizdən bir hədis eşidər, onu anlayar, əzbərləyər və onu eşitdiyi kimi çatdırar"*[59].**

Çatdırmaq isə həm şifahi ola bilər, həm də yazı ilə.

Həmçinin sabit olmuşdur ki, peyğəmbər ﷺ dövründə yaşayan dövlət başçılarına və **Ərəbistan yarımadasında olan liderlərə məktublar yazıb göndərmiş, onları islama dəvət etmişdir[60].**

Bu məktublar da hədis hesab olunur və hədis elmi vasitəsilə bizlərə nəql edilmişdir.

Həmçinin, **peyğəmbər ﷺ bəzi işçilərinə qoyun və dəvədən zəkatın hansı miqdarda çıxarmaq gərəkdiyini yazdırmışdı[61].**

Bu hədislər dəlalət edir ki, peyğəmbərin ﷺ hədisləri yaymağa rəğbətləndirən rəvayətləri daha çoxdur.

Bu da o deməkdir ki, peyğəmbər ﷺ ilkin dövrdə Quranla hədislərin qarışmasından ehtiyat etdiyindən dolayı hədis yazmağı qadağan etmiş, bu problem aradan qalxdıqdan sonra isə hədislərin yazılmasına icazə vermişdir.

---

[59]. İbn Məsudun hədisi; Əhməd. 4157; Tirmizi. 2657; İbn Macəh. 232.
[60] Bax, Tabaqat İbn Səd, 2/22-56.
[61] İbn Abdul-Bərr, Cəmiu Bəyən əl-İlm va Fadlihi. səh. 1/301; 392. Söhbət Amr ibn Həzm və digər işçilərinə yazdırdıqlarından gedir. وكتب رسول الله صلى الله عليه وسلم كتاب الصدقات والدياتوالفرائض والسنن لعمر بن حزم وغيره Həmçinin bax: Mustədrək əl-Hakim. 1/552. Sünən əl-Beyhəqi. 4/89. Sünən ən-Nəsai. 48/54.

**Səhabələrdən bəzilərinin peyğəmbərin sağlığında ikən hədis yazmaları da varid olmuşdur;**

Səhabə Abdullah İbn Amr ibnil-As'ın (Allah ondan razı olsun) üzərində yazdığı səhifələri (papirusları) var idi. O bu səhifələri "əs-Sadiqa" adlandırırdı. İmam Əhməd və Beyhəqi Əbu Hureyrədən[62] (Allah ondan razı olsun) rəvayət edirlər ki, o dedi: *"Peyğəmbərin ﷺ hədisini məndən yaxşı bilən biri yox idi, yalnız Abdullah İbn Amrdan başqa. Çünki, o (hədisləri) yazırdı, mən isə yazmırdım. O, peyğəmbərdən ﷺ (hədisləri) yazmağa icazə istədi, o da ona icazə verdi"*[63].

Hətta, bəzi səhabələr Abdullah İbn Amra (Allah ondan razı olsun) peyğəmbərdən ﷺ yazmağının doğru və ya yalnış olduğunu soruşmağı tövsiyə edirlər.

O da peyğəmbərin ﷺ yanına getdikdə peyğəmbər ﷺ belə deyir: ***"Məndən yaz. Canım əlində olana and olsun ki, ağızımdan çıxan hər söz yalnız haqdır"***[64].

---

62 Əbu Hüreyrə: O, Əbu Hüreyrə əd-Dovsi əl-Yəmənidir. Ərəblərin Dovs qəbiləsindəndir. Daha üstün görüşə görə adı Abdur-Rahman əs-Saxrdır. Peyğəmbərin ﷺ hədislərini əzbərləmək və yaymaqla məşhurdur. Xeybər ilində, hicrətin 7-ci ilində İslamı qəbul etmiş, peyğəmbər ﷺ vəfat edənə kimi onun yayından ayrılmamış, onun sünnələrini öyrənmiş, sözlərini dinləmiş, hərəkətlərini izləmiş və bu elmin qorunması üçün onu sonrakı nəsillərə nəql etmişdir. Allah ondan razı olsun!

63 Fəthul-Bari. İbn Həcər əl-Asqalani. 1/250.

64 İbn Abdul-Bərr, "Cəmiu Bəyənil-İlm va Fadlihi", 1/76; İbn Amrdan rəvayət olunur.

Həmçinin, sabit olmuşdur ki, Əli İbn Əbu Talibin peyğəmbərin ﷺ sağlığında **qanbahası hökmlərini yazdığı hədislər vardı[65].**

Muhamməd Mustafa əl-Əzami "Hədis araşdırmaları və hədislərin yazıya alınması tarixi" əsərində çox mühüm bir məlumat verərək bildirir: *"Səhabələrdən yazanlar və ya səhifələri (papirusları) olanların sayının əlli iki nəfər olduğu hesablanmışdır"* [66].

**Bu səhifələrdən bəzilərini qeyd edək:**

1) Səhabə Amr ibnil-Asın (Allah ondan razı olsun) səhifəsi.

2) Əli İbn Əbu Talibin (Allah ondan razı olsun) fiqhi məsələləri yazdığı kitab və peyğəmbərin ﷺ hədisləri olan səhifəsi[67], Əbu Hureyrənin (Allah ondan razı olsun) tələbəsi Əbu Saleh Səmmənin səhifəsi, başqa bir tələbəsi Həmməm İbn Münəbbihin səhifəsi, Uqbə İbn Əbil-Həsnənin nüsxəsi, Bəşir İbn Nəhikin nüsxəsi, Muhəmməd İbn Sirinin nüsxəsi, Abdur-Rahmən İbn Yaqubun nüsxəsi, Valid ibn Rabəhin

65 Öncəki mənbə.

66 "Dirasəət fil-hədis ən-Nəbəvi va tarixi tədvinuhu". Muhəmməd Mustafa əl-Əazami. səh 92-142.

67 Bax: Kitəbətus-Sunnə fi ahdin-Nəbi ﷺ vas-Sahabə. Rafət Fovzi əl-Muttalib. səh 12.

nüsxəsi, Musa İbn Yəsərin nüsxəsi. Bunların hamısı Əbu Hureyrənin tələbələri olmuşlar[68].

3) Həmçinin, səhabə Abdullah İbn Ömərin (Allah ondan razı olsun) tələbələrindən olan Nəfinin səhifəsi[69].

4) Səhabə Ənəs İbn Malikin (Allah ondan razı olsun) özü də hədis yazmış[70] və yazdırmışdır.

Bu səhabə peyğəmbərə on il xidmət etmiş səhabədir. Suməmə İbn Abdilləh isə Ənəsin nəvəsi idi və onun da hədis səhifəsi var idi. Ənəsin oğlu da atasının yazdırdığı, peyğəmbərdən ﷺ dəqiq eşitdiyi xəbərləri yazmışdı.

5) Səhabə İbn Abbas (Allah ondan razı olsun) da peyğəmbəri ﷺ görmüş və ondan hədisləri lövhələrə yazmışdı[71]. Peyğəmbər ﷺ onun elmli olması üçün dua etmişdi. Səhabə Əli İbn Əbi Talha da İbn Abbasdan (Allah ondan razı olsun) təfsir səhifəsini rəvayət etmişdir.

---

[68] Öncəki mənbədə qeyd olunan kitab bu səhifələr haqqında ətraflı (100 səhifədə) bəhs edir.

[69] Bax: Kitəbıtus-Sunnə fi ahdin-Nəbi ﷺ vas-Sahabə. Rafət Fovzi əl-Muttalib. səh. 62.

[70] əl-Mustədrək. Hakim. 3/574. Tarixi Bağdad. 8/259.

[71] Tabaqatul-Kubra. İbn Səd. 2/123. Təqyidul-İlm. Xətib əl-Bağdadi. 91-92. Təhqiq: Yusuf əl-Aşş. Həmçinin, əl-Kifəyə. səh. 263.

6) Cabir İbn Abdilləh (Allah ondan razı olsun) adlı səhabə də[72] peyğəmbərin ﷺ hədislərini yazan səhabələrdən idi. Onun tələbəsi Süleyman əl-Yəşkurinin və Əbuz-Zubeyrin də hədis nüsxəsi olmuşdur.

7) Səhabə Abdullah İbn Amr ibnil-As (Allah ondan razı olsun) da peyğəmbərin ﷺ hədislərini yazmışdır[73]. Nəvəsi Şueyb də onun hədislərinin nüsxəsini sonrakı nəsillərə ötürmüşdür. Səhabə Əbu Musa əl-Əşarinin (Allah ondan razı olsun) oğlu Əbu Burdənin atasından eşitdiyi hədisləri yazdığı nüsxəsi.

8) Səhabə Hucr İbn Adiyin (Allah ondan razı olsun) səhifəsi.

9) Səhabə Muaz İbn Cəbəlin (Allah ondan razı olsun) səhifəsi.

10) Səhabə Zeyd İbn Sabitin (Allah ondan razı olsun) miras barədə səhifəsi.

11) Səhabə Müaviyə İbn Heydənin (Allah ondan razı olsun) səhifəsi.

12) Səhabə Səd İbn Ubadənin (Allah ondan razı olsun) səhifəsi[74].

---

[72] Keyfə Təbhasu Əhvalur-Ruvat. Muallimi. səh. 26. Muslim. 2/1146. Kitabul-İtq. 17/1507; təhrim təvlli əl-itq liğeyri məvaliyhi - babı. əl-İləl va Mərifətir-Ricəl. 1/333.

[73] Hakim. 11/57-58. No: 6510.

[74] Movsuatu Məhəsinil-İsləm var-Raddu alə Şübuhətil-Liəm. Əhməd Eyyub. 7/90.

13) Səhabə Səmura İbn Cundubun (Allah ondan razı olsun) səhifəsi[75] və s. səhifələri misal göstərmək olar.

İmam Nəvəvi (Allah ona rəhmət etsin) demişdir: *"Elm əhli qeyd etmişlər ki, sünnənin yazılması barədə ixtilaf birinci əsrdə idi. Sonra ümmət hədis və elmin yazılmasının icazəli olması üzərində ittifaq etdilər. Ümmətin halı bunun üzərində davam etdi"*[76].

Mustafa əs-Sibəi demişdir: *"Ümumiyyətlə, hədislərin yazılmasına və yazıya icazə verilməsi məsələsinə gəldikdə bu barədə rəvayətlər cəm edildiyi zaman xülasə onu demək olar ki, peyğəmbərin ﷺ yazını bir müddət qadağan etməsi, sonra bəzi hədislərdə yazmağa icazə verməsinin izahı alimlər arasında ixtilaflı olsa da, alimlərin əksəriyyəti bu qadağanın nəsx edilərək icazəli olmasına dəlalət etdiyini demişlər"*[77].

Amr İbn Şueyb atasından, o da babasından (Allah ondan razı olsun) rəvayət edir ki, o dedi: ***"Dedim ki: Ey Allahın Elçisi! Səndən eşitdiyim hər şeyi yazımmı?! Dedi: Bəli. Dedim: Razı olduğun və qəzəbli olduğun halı da (yazımmı)?! Dedi: Bəli. Çünki, mən bunların (bu halların) hamısında yalnız haqqı deyirəm"[78].***

---

[75] Tuhfətut-Təhsil. səh. 198-199.

[76] Şərhun-Nəvəvi alə Sahihil-Muslim, 3/1391.

[77] əs-Sunnətu va Məkənətuhə fit-Təşri əl-İsləmi, Mustafa əs-Sibəi, səh 105.

[78] Cəmiu Bəyənil-İlmi va Fadlihi, Elmin (hədislərin) yazılmasına icazə verilməsi babı, no: 388.

Bu rəvayətlərlə kifayətlənib növbəti mövzumuza keçirik.

**Əzbər məsələsinə gəldikdə isə:**

Ərəblər əzbər məsələsində daim tanınmışlar. Onlar məlumatları, şeirləri və ən dəqiq şeyləri əzbərləməyi xoşlayırdılar. Ərəblər güclü yaddaşları ilə tanındıqlarından dolayı bəzi alimlər hədislərin müəyyən bir dövrdə yazılmamasının səbəblərindən biri kimi məhz onların hədisləri əzbərləyib yaddaşlarda saxladıqlarına görə buna ehtiyac görülmədiyini demişlər.

Sonradan isə hədislərin yaddaşlardan itməsi təhlükəsi yarandıqda bu hədislərin toplanması və yazılmasına qərar verilmişdir. Hədislərin toplanıb yazılması, bunun necəliyi ayrıca bir araşdırma mövzusu olduğu üçün bu mövzuda bu qeydlə kifayətlənirik. Yaddaş, əzbər məsələsi heç də etibarlılıq və əhatəlilik baxımından yazıya köçürməkdən aşağı deyildir.

Bu səbəbdən də səhabələrin hamısı yaza bilməsələr də Quranı əzbərləyirdilər. Hədislər də onların yaddaşında idi və lazım olduqda əzbərdən deyir, bu hədisləri əzbərdən başqalarına öyrədirdilər.

Hətta ərəblərdən Ömər İbn Əbi Rabia kimi bir məclisdə birdəfəyə bir qəsidəni tam şəkildə əzbərləyənlər də var idi[79].

---

[79] Cəmiu Bəyənil-İlm va fadlihi, İbn Abdil-Bərr. 1/69.

Əgər hədislərin qorunmasında yazı yazmaq metodu daha üstün olsaydı, onda tövratın qorunması daha ağlabatan olardı. Çünki Uca Allah Qurani-Kərimdə buyurur: "**Biz onun üçün lövhələrdə hər şeydən öyüd-nəsihət və hər şeyin təfsilatını yazdıq…**" (əl-Əraf, 145)

Özü də bu yazıları Quranın da ifadəsinə görə Allah özü yazmışdı. Lakin buna baxmayaraq, onlar sonradan həmin yazıları təhrif etdilər. Deməli, qorunma üçün yazı şərt deyil.

Onların bu yazıları təhrif etmələri Quranda da zikr edilmişdir: "**İsrail oğulları verdikləri əhdi pozduqlarına görə Biz onları lənətlədik və qəlblərini sərtləşdirdik. Onlar Kitabda olan kəlmələrin yerlərini dəyişdirdilər. Onlar özlərinə öyrədilmiş şeylərin bir hissəsini unutdular…". **(əl-Maidə. 13).

Bunun başqa sübutu və əzbərin mötəbər bir metod olmasını da yenə Allah Quranda təsdiqləyərək buyurur: "**Əksinə, bu Quran elm verilmiş kəslərin köksləründə olan açıq-aydın ayələrdir. Bizim ayələrimizi ancaq zalımlar inkar edirlər". **(əl-Ənkəbut, 49).

<u>Bu kökslərdə olan ayələr Qurandır. Yəni Allah Quranın da əzbər metodu ilə qorunduğuna işarə edir.</u> Elə isə hədislərin ilkin dövrdə əzbər yolu ilə qorunmasını aşağı görənlər Quranın da eyni metodla qorunmasına şəkk etmiş olurlar.

Çünki, Quranın bir kitab halına salınması da məhz döyüşlərdən birində yetmiş Quran hafizinin öldürülməsindən sonra daha böyük əhəmiyyət kəsb etmiş

oldu. Bundan sonra Quranın yazıya köçürülərək kitab halına salınması məsələsi gündəmə gəldi.

Bundan əvvəl isə səhabələr Quranı əzbərləyirdilər. Onların çoxusu oxuyub yazmağı bilmirdilər. Buna baxmayaraq əzbər onlar üçün yazmaqdan daha faydalı idi.

Bu son qeyd olunan ayədə də elm verilmiş şəxslərin əzbərləməsinə diqqətləri yönəldir. Doğrudan da insan oxuduğu bir məlumatı unuda bilər, lakin insanın dəfələrlə əzbərlədiyi, beyninə həkk etdiyi məlumatları unutması çox çətindir!

**Xülasə, bu yuxarıdakı ayələrdən aydın görünür ki, Allah tövratı özü yazsa da, insanlar onu öz əlləriylə sonradan dəyişdilər. Lakin Allah Quranı əzbərləyənləri elm verilmiş kəslər adlandırdı ki, bu da bir növ əzbər metodudur və bu elmin qorunmasının əhəmiyyətini, xüsusən də həmin dövrdə əzbərin yazıdan daha qüvvətli olmasını göstərir.**

Ona görə də alimlərin elmi qorumaq üçün nə əziyyətlər çəkdiyini bilməyən biri əzbərin əhəmiyyətini anlamaya bilər. Məhz buna görə də səhabələrin çoxusu əzbərə üstünlük verirdilər.

**İslamdakı elmi mühitdə alimlərin elm öyrənən digər şəxslərin elmini, savadını tanımaq, şahidlik elmək üçün verdikləri elmi icazələrdən danışası olsaq, bilməliyik ki, alimlərdən şifahi (əzbərlə) olan elmi icazə (şəhadət)**

**yazmaqla götürülən icazədən (şəhadətdən) daha üstün hesab olunur.**

Bu gün də elmin mərkəzi olan Məkkə, Mədinə və başqa yerlərdə bu elmi icazə metodu (şifahi, əzbər) yoluyla Quran, hədis və başqa mətnlər alim və şeyxlərə əzbər danışıldıqdan sonra onlara həmin sahədə elmi icazələr (şəhadətlər, diplomlar) verilir. Bu adət peyğəmbərin ﷺ zamanından indiyə kimi davam etməkdədir.

İmam Şatibi "əl-Muvafaqat" əsərində şifahi elm öyrənməklə yazılmış kitabdan elm öyrənməyin fərqindən danışarkən şifahi, əzbər yoluyla müəllimdən öyrənilən elmin daha bərəkətli olmasından bəhs edir. O qeyd edir ki: *"Bu cür elm öyrəndikdə qaranlıq qalan, aydın olmayan məqamları müəllimdən soruşmaq lazımdır deyə mədələlər yerindəcə öyrənilir və daha yaxşı qavranılır"*.

Bundan əvvəl isə o qeyd edir ki: *"Kitabdan oxuyan neçə insanlar var ki, dəfələrlə oxusa da məqsədi anlamır, tək əzbərləsə belə yenə də başa düşmür. Amma, müəllimdən şifahi yolla elm öyrənən şəxs bu problemlə qarşılaşmır"*[80].

Ona görə də bəzi sələflər: *"Elm öz əhlinin (alimlərin) köksündə (əzbər yolu ilə) qorunurdu. O zaman ki, elm yazıya alındı, bax, o zaman elmə əhli olmayanlar daxil oldular"* - sözlərini çox demişlər.

---

[80] Bax: "əl-Muvafaqat". imam Şatibi. səh. 147.

Bir qədər yuxarıda qeyd etdiyim səbəbə uyğun və ilk dövrdə hədislərin yazılmadığı, əzbərləndiyi, lakin bəzi səhabələr tərəfindən yazıldığını da göz önünə alaraq ilkin dövrlərdə bəzi səhabələrin əzbərə necə fikir verdiklərini qeyd etmək üçün bu rəvayətə diqqət yetirək: Əbu Nədiradan rəvayət olunur ki, o dedi: Əbu Səid əl-Xudriyə dedim: Səndən eşitdiklərimizi yazmayaq? Dedi: "Siz bunu (eşitdiklərinizi) mushəflərə (səhifələrə və ya Quranlara) yazmaq istəyirsiniz?

Sizin peyğəmbəriniz bizə hədis danışırdı, biz də onu əzbərləyirdik. Siz də (hədisləri) bizim kimi əzbərləyin"[81].

**Bu rəvayətdə də ərəblərin əzbərə necə etimad etmələri və necə əhəmiyyət vermələri anlaşılır.**

Onlardan bəziləri bir məclisdə hədisi düzgün şəkildə bir hərf belə buraxmadan əzbərləyə bilirdi. İmam Şafi və başqa alimlərdən varid olmuşdur ki, onların peyğəmbərin ﷺ hədislərini nəql etməkdə yaddaşa etimad etmələri yazıya köçürməkdən daha üstün idi.

Bu baxımdan da qədim alimlər elmin yazıya köçürülməsi ilə insanların arxayınlaşmaları və tənbəlləşmələrindən qorxurdular.

Onlar bu əzbər yoluyla elmin nəql edilməsi və ya bu bacarığın, bu xüsusiyyətin onlardan götürülməsindən də ehtiyat edirdilər.

[81] Cəmiu Bəyənil-İlmi va Fadlihi, 339; Zikri kərahiyyəti kitəbətil-İlm.

Ona görə də Hafiz İbn Abdil-Bərr səhabələrdən və tabeinlərdən elmin yazıya alınmasını xoş qarşılamayan kəslərdən bu barədə rəvayətləri nəql etdikdən sonra deyir: "Burada sözlərini (elmin yazılması ilə razı olmayanlar) qeyd etdiyimiz şəxslər bu məsələdə ərəblərin (əzbər, yaddaşa etibar etmək) məzhəbini götürüblər.

Çünki onlar fitrətdən əzbərə yönləmişdilər və bu onların xüsusiyyətlərindən idi. O kəslər ki, elmin yazıya alınmasını istəmirdilər, onlardan İbn Abbas, Şabi, İbn Şihəb, Nəxai, Qatadə və başqaları kimi bu məzhəblə gedənlər və bu fitrətdə olan alimlər elmi əzbərdən öyrənmək fitrəti üzərində idilər.

Ona görə də onlar "hədisin eşidilməsi", (yəni: tələbənin müəllimindən elmi dinləyib, eşidib) əzbərlənməsi yoluyla bir şəxsin elmini təsdiqləyir və ona "elmi icazə" verirdilər.

Ona görə də peyğəmbər ﷺ hədislərin birində buyurmuşdu: ***"Biz ümmi bir toplumuq, yazmağı və hesabı bilmirik!"***[82]

Bu rəvayət də ona dəlalət edir ki, ərəblər ilkin dönəmdə əzbərə üstünlük verirdilər, əzbər yoluyla ötürülən məlumat isə heç də yazı yoluyla ötürülən məlumatdan zəif olmurdu.

Həmçinin, biz «əzbərə üstünlük verirdilər» dedikdə "səhabələr yazmırdılar" da demirik, çünki onlardan yaza bilənlər yazır, qeyriləri isə əzbərləyirdilər.

---

[82] Cəmiu Bəyənil-İlm va fadlihi. İbn Abdul-Bərr. 1/65.

**Bu yazıya almanın gecikməsinin səbəblərindən "vəra"[83] amili də nəzərə alınarsa, onlardan bəzilərinin xəta etmək qorxusuyla yazmaqdan vaz keçdikləri aydın olar.**

Misal olaraq qeyd edək ki, Əbu Bəkr (Allah ondan razı olsun) və onun hədis yazmaqda tərəddüdü də bu amildən qaynaqlanırdı. Yaddaşı güclü olan səhabələr isə heç nədən narahat olmadan hədisləri rəvayət edirdilər.

**Amma bəzilərinin hədis rəvayət etməkdən çəkinmələri onların xəta etməkdən şiddətlə ehtiyat etmələrinə görə idi.** Necə ki, əz-Zübeyr də bunu aydın şəkildə ifadə etmişdir. Amma, yaddaşı qüvvətli olanlardan İbn Abbas, İbn Məsud, Əbu Hureyrə (Allah onlardan razı olsun) və başqaları hədisləri bir problemsiz rəvayət edirdilər[84].

---

[83] **Vəra**: bu şəri termin haqqında alimlərin müxtəlif izahları var, hansı ki, bir çoxu bu terminin "axirətdə zərər vermək ehtimalından dolayı hansısa əməli ehtiyatən tərk etmək" mənasında olduğunu göstərir, ola bilsin ki, bu tərk olunan əməl özü-özlüyündə haram olmasın, yaxud icazəli bir əməl olsun. Məsələn: şeyxülislam İbn Teymiyyə demişdir: "(vəra) axirətdə zərər verməsindən ehtiyatlanaraq bir şeyi tərk etməkdir. Bu, haramları tərk etmək və yaxud o şübhəli şeyləri tərk etmək ki, o (şübhəli) şeyləri tərk etmək o tərk edilənlərdən daha üstün əməlləri tərk etməyi gərəkli etmir". (Məcmu'ul-Fətə'va. İbn Teymiyyə. 10/21. Mədinədəki Quran fabrikinin 1425-ci ildə etdiyi ikinci nəşr. Həmçinin daha ətraflı baxmaq üçün: Movsuatul-Aqidə vəl-Ədyən vəl-Firaq vəl-Məzəhib əl-Muasırah. Dr. Suud Əli Suud. 6/3096).

[84] Cəmiu Bəyənil-İlm va fadlihi. İbn Abdul-Bərr. 1/65.

Onlar peyğəmbərin ﷺ səhabələri olmaqla yanaşı insanlar arasında ərəblərin elmi ötürmə yolu olan güclü yaddaşa etibar edilməsi yoluyla peyğəmbərin ﷺ hədislərini insanlara bildirir və sünnənin bu yolla qorunmasına çalışırdılar.

Hətta, səhabələrdən Zeyd İbn Sabit (Allah ondan razı olsun) ondan hədis yazılmasına nə üçün razılıq vermədiyini izah edərək demişdi: *"Bilirsinizmi, ola bilsin ki, mənim danışdıqlarımın hamısı danışdığım kimi olmasın*"[85].

Onlardan bəzilərinin hədis rəvayət etməmələrinin səbəbi dini məsələlərdə ehtiyatlı olmalarına görə idi. Çünki, səhabə və tabeinlərin hədis yazmaları və bu barədə olan xəbərlər mütəvatir[86] (yəni: birdən çox səhabədən rəvayət olunma yoluyla bilinən xəbər) həddində çox rəvayət olunmuşdur. Bu bilinən bir şeydir ki, haqqı istəyən bir kimsənin bunu inkar etməsi və ya buna şübhə ilə yanaşmasının yeri yoxdur.

Bu barədə daha çox və daha ətraflı məlumat almaq istəyən kəslər, onda İbn Abdil-Bərin "Cəmiu Bəyənil-İlm va Fadlihi" kitabına müraciət edə bilərlər[87].

---

[85] Eyni mənbə. 1/66.

[86] Mütəvatir sözünün ətraflı izahı yeddinci şübhəyə cavabın haşiyələrindən birində verilmişdir.

[87] Bax: xüsusən də: Cəmiu Bəyənil-İlm va Fadlihi, ibn Abdil-Bərr. 1/70-77.

Həmçinin, onlar Xətib əl-Bağdadinin[88] "Təqyidil-İlm" kitabında bu barədə yazdıqlarına nəzər yetirə bilərlər.

Artıq qeyd etdik ki, Quranın qorunması əzbərlə baş verdiyi kimi, hədislərin qorunması da əzbərlə baş vermişdi. Səhabələrin elmə həris olduqları kimi **onlardan sonra gələnlər də elmə həris idilər.**

Uca Allah Quranda buyurur: "**Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Allah onlar üçün ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları hazırlamışdır. Bu, böyük uğurdur".** (ət-Tövbə, 100)

Beləcə, səhabələr kimi, onlardan sonra gələn nəsil də xeyirli nəsil olub sünnənin qorunması yolunda çalışmışlar. Allah onların içindən də elmə həris şəxslər çıxarmış və sünnəyə xidmət etdirmişdir. İstər onlardan sonra yüz, istər iki yüz, istərsə də beş yüz il sonra olsun hədisləri sənədləriylə birgə əzbər bilən alimlər həmişə olmuşlar. Necə ki, hal-hazırda da da belə şəxslər mövcuddur. Bütün bunlar şeyxdən şeyxə şifahi əzbər yoluyla ötürülmüş, həmin əzbərin mənbəyi isə yazılarda mövcud olmuşdur. Səhabələrin əzbər yoluyla elmə xidmət etmələrini, onların vasitəsilə elmin

[88] Xətib əl-Bağdadi (1002-1071): O, Əbu Bəkr Əhməd ibn Əli ibn Sabitdir. Xətib əl-Bağdadi olaraq məşhurdur. Əqidə, hədis, fiqh, əxlaq və tarix üzrə bir çox kitabların müəllifidir. Ən məşhur kitablarından biri "Tarixi Bağdad" kitabıdır.

qorunduğunu və onların fəzilətini qəbul edənlər gərək onlardan sonra gələn etibarlı İslam alimlərinin də bu yoldakı səylərini qəbul edib dəyərləndirsinlər. Çünki sünnənin qorunması peyğəmbərin zamanı da daxil olmaqla üç ən xeyirli nəslin yaşadığı əsrlərdə də davam etmişdir.

Peyğəmbər ﷺ buyurmuşdur: ***"Ən xeyirli insanlar mənim əsrimdədir. Sonra onlardan sonra gələnlər, sonra da onlardan sonra gələnlər"[89].***

Beləcə, hədislər bu xeyirli nəsillərin yaşadığı dövrün əvvəllərində yazılmış, səhifələr və nüsxələr halında mövcud olmuş, 1-ci hicri əsrin sonlarında isə Ömər İbn Əbdüləzizin (Allah ona rəhmət) zamanında (hicri tarixlə: 99-100-cü illərdə) kitab halında toplanmışdır[90].

---

[89] Səhih əl-Buxari, 2652; Səhih əl-Muslim, 2533.

[90] Bax: Ömər ibn Əbdüləzizin müsəlmanlara rəhbərliyi cəmi 2 il olmuşdur. O bu qısa vaxt ərzində çox böyük tarixi işlərə imza atmışdır. Baxmayaraq ki, hədislər onun zamanından öncə də yazılırdı, bu yazıların kitab halında toplanmasını ilk əmr verən şəxs məhz Ömər ibn Əbdüləziz (Allah ona rəhmət etsin) olmuşdur. Bu haqda rəvayət belədir. "O, öz işçisi və qazisi olan Əbu Bəkr ibn Həzmi Mədinəyə göndərir və ona əmr edir ki: Allah elçisinin ﷺ hədislərindən nəyi tapsan bax, onu yaz, mən elmi dərslərin və alimlərin getməsindən nigaranam". Ondan tələb edir ki, Umra binti Əbdür-Rəhman əl-Ənsaridə və əl-Qasim ibn Muhəmməd ibn Əbi Bəkrdə olan rəvayətləri yazsın, görünən budur ki, o təkcə öz işçisi ibn Həzmə bu böyük işi tapşırmamışdı, o bölgələrdəki bütün valilərindən və böyük alimlərdən belə bir tələb etmişdi. (Daha ətraflı

Bunu ona görə qeyd edirik ki, hədis inkarçıları peyğəmbərdən 200 il sonra hədislərin yazılmasına boş yerə inanmasınlar.

Hədislər ilk yüzillikdə də yazılıb, hətta kitab halına da toplanıb salınması bu tarixdən əvvəl baş vermişdir. Növbəti şübhəyə cavabda da elə bu şübhəyə ətraflı cavab veriləcəkdir.

Sonda isə müasir dövrümüzdə bəzi qədim hədis nüsxələrinin (papirusların) tapılmasını qeyd etmək yerinə düşərdi ki, bu olduqca mühümdür.

1880-ci ildə Misirin Fəyyum bölgəsində minlərlə qədim yazılar tapılmışdı ki, həmin yazılarda ən qədim hədis nüsxələrindən bəziləri mövcud idi.

---

bax: əs-Sunnətu va Məkənətuhə fit-Təşri əl-İsləmi. Mustafa əs-Sibəi. səh. 167-168).

## ONUNCU ŞÜBHƏ:

## Hədislər peyğəmbərdən ﷺ iki yüz il sonra yazılıb?

**Şübhə belədir**: Hədis kitabları 200 yüz il sonra yazılıb. Hədislər sonradan yazılıb deyə biz ona necə güvənə bilərik?

**Şübhənin cavabı:** Peyğəmbərin ﷺ səhabələri onun izni ilə sağlığında da, onun vəfatından sonra da sünnənin (hədislərin) toplanmasına diqqət göstərmişlər.

Buna kifayət qədər dəlillər vardır. Təkcə peyğəmbərin ﷺ sağlığında hədislərin yazılmasına dəlalət edən kifayət qədər dəlillər vardır.

Gəlin həmin dəlillərdən bəzilərini oxuyaq:

Buxari, Həmməm İbn Munəbbihin belə dediyini rəvayət edir; Əbu Hureyrənin (Allah ondan razı olsun) belə dediyini eşitdim: ***"Peyğəmbərin ﷺ səhabələri içərisində məndən çox hədis bilən yox idi. Yalnız Abdullah İbn Amrdan başqa. Çünki, o yazırdı, mən isə yazmırdım"***[91].

Buxarinin Əbu Hureyrədən rəvayət etdiyi nisbətən uzun hədisdə deyilir: ***"Allah peyğəmbərə Məkkənin fəthini nəsib etdiyi zaman… Sonra isə Yəmən əhlindən bir kişi gəlib deyir***

[91] Fəthul-Bari. İbn Həcər əl-Asqalani. 1/250.

***ki, mənim üçün yaz ey Allahın elçisi! Peyğəmbər ﷺ dedi: «Əbu Şah üçün yazın"*[92]**.

Buxari, Əbu Cuheyfəyə isnadən rəvayət edir ki, o dedi: ***"Əliyə dedim: Sizdə kitab varmı? Dedi: Yox, yalnız Allahın kitabı və ya müsəlman kişiyə verilən fəhm (dini anlayış) ya da bu səhifədə olan yazı. Dedim: Bu səhifədə nə var? Dedi: qanbahası, çox əsir azad edən və müsəlman kafirə görə öldürülməz (hədisləri)"*[93].** rəvayətdə keçən "Qanbahası, çox əsir azad etmək və bu səhifədə olan yazı" məsələləri barədə peyğəmbərin ﷺ digər mötəbər hədisləri vardır.

Bu da onu göstərir ki, Əlinin (Allah ondan razı olsun) səhifəsində hədislər var idi. Artıq biz quranilərin şübhələrindən birinin cavabında bu məlumatı qeyd etmişdik:

"Səhabələrdən (hədisləri) yazanlar və ya (hədis yazılmış) səhifələri olanların sayının əlli iki nəfər olduğu hesablanmışdır"[94]. Bu da çox mühüm bir məlumatdır. Aydın oldu ki, Əli İbn Əbu Talib (Allah ondan razı olsun) də hədis yazılmış səhifələri olanlardan biri idi.

---

[92] Səhih əl-Buxari, Kitəbul Elm. 6880.

[93] Səhih əl-Buxari. Kitəbul-Elm. 3047. Hədisi Əhməd, Əbu Davud və Nəsai rəvayət də rəvayət etmişdir.

[94] Dirasəət fil-hədis ən-Nəbəvi va tarixi tədvinuhu, Muhəmməd Mustafa əl-Əazami, səh 92-142.

Həmçinin qeyd etmişdik ki, yaddaşı güclü olanlardan İbn Abbas, İbn Məsud, Əbu Hureyrə, Aişə (Allah onlardan razı olsun) və başqaları birbaşa hədisləri rəvayət edirdilər.

Hədis rəvayətində ehtiyat edənlər isə daha çox peyğəmbərin ﷺ : ***"Kim qəsdli şəkildə mənim adımdan yalan danışarsa, qoy cəhənnəmdəki yerini hazır bilsin"***[95] hədisindən təsirlənmişdilər.

Həmçinin Amr İbn Şueyb atasından, o da babasından rəvayət edir ki, o dedi: ***«Dedim ki: Ey Allahın Elçisi! Səndən eşitdiyim hər şeyi yazımmı?! Dedi: Bəli. Dedim: Razı olduğun və qəzəbli olduğun halı da (yazımmı)?! Dedi: Bəli, çünki mən bu halların hamısında yalnız haqqı deyirəm"***[96].

Bu rəvayətdə hər şey açıq-aydındır deyə izaha ehtiyac görmürük.

Peyğəmbərin ﷺ Konstantinopolun fəthi barədə müjdəsi Abdullah İbn Amr İbn As (Allah ondan razı olsun) tərəfindən rəvayət olunur.

O dedi: ***"Peyğəmbərdən Roma, yoxsa, Konstantinopol birinci fəth olunacaq deyə soruşulduqda biz onun ətrafında yazırdıq…"***[97].

---

[95] Səhih əl-Buxari, 107; Sünəni Əbi Davud, 3651.

[96] Cəmiu Bəyənil-İlmi va Fadlihi, İbn Abdil-Bərr. Elmin (hədislərin) yazılmasına icazə verilməsi babı, no: 388.

[97] Hədisi Əhməd. 2/176. 6645. Darimi. 1/137. Hakim. 4/468. və başqaları rəvayət edib, Hakim səhih görüb, Zəhəbi də ona müvafiq olub. Albani "Silsilətus-Sahiha"da səhih görüb. no: 4.

Bu hədisdə də səhabələrin peyğəmbərin ﷺ yanında hədis yazdıqlarına açıq-aşkar işarə vardır. Hansı ki, peyğəmbər ﷺ onların yazmasına maneəçilik törətməmişdir.

Bu və digər hədislərdə çoxlu dəlillər vardır ki, səhabələr (Allah onlardan razı olsun) peyğəmbərin ﷺ hədislərini yazırdılar.

**Onlardan bəzilərinin hədis yazdıqları səhifələri var idi; Abdullah İbn Amr, Cabir İbn Abdullah, Səmura İbn Cundub, Əbəs ibn Malik, Muaz ibn Cəbəl və başqa səhabələrin səhifələri kimi.**

Yuxarıda qeyd etdiyimiz kimi əgər səhabələrdən əlli iki nəfər yazırdırsa, tabeinlərdən yazanlar daha çox idilər. Eyni məsdərdə yenə tabeinlərdən səhifə və yazıları olanların yüz əlli nəfərdən çox olduğu qeyd olunur[98].

Digər yazılarımızda artıq qeyd etdik ki, hədislər Quranla qarışmasın deyə ilkin dövrdə yazılmamış, sonra isə buna elə peyğəmbərin ﷺ sağlığında ikən icazə verilmişdir.

Xəlifə Ömər İbn Əbdüləzizin (Allah ondan razı olsun) isə ilkin yazılmış hədislərin (səhifələrdə və ya papiruslarda) toplanaraq bir kitab şəklində ərsəyə gəlməsində çox böyük rolu olmuşdur.

---

[98] Dirasəət fil-hədis ən-Nəbəvi va tarixitədvinuhu, Muhəmməd Mustafa əl-Əazami, səh 92-142.

Çünki, Əbu Nueymdən rəvayət olunduğuna görə Ömər İbn Əbdüləziz vilayətlərə (oradakı alimlərə) yazır ki: *"Peyğəmbərin ﷺ hədislərinə nəzər yetirin və onları toplayın"*[99].

Həmçinin, Xəlifə Ömər İbn Əbdüləziz (Allah ondan razı olsun) Əbu Bəkr İbn Həzmə[100] əmr göndərir ki: *"Peyğəmbərin ﷺ hədislərinə nəzər yetirin və onları toplayın. Çünki, mən elmin izinin yoxa çıxmasından və alimlərin aradan götürülməsindən nigaranam"*[101].

Tabeinlərdən sonrakı dövrdə (ətbəu tabein zamanında) isə hədis yazma metoduna yeni üslub əlavə edilir.

Səhabə və tabeinlərin sözləri də artıq xüsusi kitablarda toplanmağa başlanılır ki, bu da kitablara və fiqhi bablara görə təsnif olunur.

İslam aləmi mədəniyyətinin elə bir dövrü olmamışdır ki, İslam alimləri bu yazıları bir araya gətirməsinlər və bu kitabları təsnifatlara (elmi başlıqlara uyğun şəkildə) bölməsinlər.

Elə məşhur altı hədis kitabının[102] (Kutubus-Sittə) əsası da bu yazılara və bu kitablara (səhifələrə) söykənir.

---

[99] Fəthul-Bari bişərhi Səhih əl-Buxari, Kitəbul-Elm, bab: Keyfə yuqbədul-elm, 1/232; no: 34.

[100] red: zahiri məzhəbində olan ibn Həzm nəzərdə tutulmur.

[101] Mənbəsi bir qədər əvvəl qeyd olunmuşdur.

[102] Altı hədis kitabı (Kutubus-Sittə) bunlardır:

1 - Səhih əl-Buxari - kitab 16 ilə yazılıb.

2 - Səhihi Müslim - kitab 15 ilə yazılıb.

3 - Sünən Əbi Davud.

Biz həmin səhifələri “papiruslar" da adlandıra bilərik. Hədislər artıq bu papiruslarda yazılmışdı. İmam Buxarinin təzə papirus yazmağına ehtiyac yox idi. O sadəcə özündən əvvəlki elmi zəhmətləri toplayıb elmə xidmət edərək gözəl bir kitabı cəm etmişdir.

**Onu da qeyd edək ki, yazı ilə tədvin (yazıların toplanması) ayrı-ayrı ayrı şeylərdir.**

Bu şübhəni gətirənlər sanki, demək istəyirlər ki, hədislər peyğəmbərdən 200 il sonra yazılıb. Bu, açıq-aydın yalan və uydurmadır. Çünki artıq biz qeyd etdiyimiz əsərlərlə göstərdik ki, səhabələr hədisləri öz səhifələrində yazmışdılar.

Lakin bu yazılar elmi fəsil bölgüsünə uyğun olaraq[103] toplanmadığından dolayı, sonrakı alimlərin işi bu hədisləri eyni mövzudakı bablara və fəsillərə uyğun tərtib edib ayrıca kitab halına salmaq olmuşdur.

Buxarinin və "Kutubu Sittə" (Altı hədis kitabı) sahiblərinin hədisləri fiqhi bablarda cəm etməsindən öncə alimlər kitabları başqa üslublarda yazmışdılar.

Məsələn; muvattalar, müsnədlər, onlardan da qabaq isə təkcə bir mövzuda yığılmış kitablar var idi.

---

4 - Sünən ət-Tirmizi.

5 - Sünən ən-Nəsai.

6 - Sünən ibn Macə.

[103] Yəni, bir mövzuya aid olan hədislər eyni bab və fəsillərə uyğun toplanmadığı üçün bu işi sonrakı hədis alimləri etmişlər.

Məsələn; zühd, qədər və s. etiqadi mövzularda olan kitabları buna misal çəkmək olar.

**Bu iki məsələ (yazmaq və tərtib etmək) arasında fərqi bilməyənlər elə biliblər ki, hədislər 200 il sonra yazılıb.**

Əgər onlar desəydilər ki, hədislər 200 il sonra mövzulara uyğun tərtib edilib, onda daha doğru söz söyləmiş olardılar. Yazılmış hədislərin toplanması xəlifə Ömər İbn Əbdüləzizin dövründə, yəni yüz il sonra olmuşdur. Amma, hədislərin səhifələrə (papiruslara) köçürülməsi artıq peyğəmbərin ﷺ dövründə baş vermişdir ki, bu da haqqında danışdığımız şübhənin necə batil olduğunu göstərir.

Bu məsələnin xülasəsi olaraq: hədislər peyğəmbərin ﷺ dövründə səhabələr tərəfindən onların peyğəmbərdən ﷺ eşitdiklərinə əsasən yazılıb. Hədislərin hamısı heç də iddia olunduğu kimi yalnız yaddaşlarda qalmayıb və korkoranə şəkildə ötürülməyib. Yaddaş amili mühüm olsa da, hədislər həm yazı, həm də yaddaş yolu ilə imam Buxarinin (Allah ona rəhmət etsin) dövrünə ötürülüb.

Hədislərin peyğəmbərin ﷺ dövründə yazılmasının isbatını - Allahın izniylə - növbəti mövzudan danışarkən ətraflı izah edəcəyik.

Onda anlaşılacaq ki, əgər hədislər peyğəmbərin ﷺ dövründə yazılıbsa, bu yüz və ya iki yüz il sonra yazılma

iddiasına lüzum yoxdur və quranilər bununla sadəcə insanların başını aldadırlar.[104]

Xəlifə Ömər İbn Əbdul-Əzizin dövründə bu yazılar ibn Şihəb əz-Zühri (58h.-124h.) tərəfindən toplanıb, bir yerdə cəm edilmişdir (Hicrətin 100-cü ilində)[105].

Bundan sonra isə iki yüz il deyil daha da əvvəl hədislər kitab (yazı) halına salınmışdır. İmam Buxari (Allah ona rəhmət etsin) və digər alimlərin elmi götürdükləri qaynaqların əsası bu yazılarda mövcud idi. Onlar heç də özlərindən yeni bir şey gətirməmişdilər.

Buxaridən əvvəl isə ilk dəfə Buxarinin gördüyü işə bənzər hədisləri kitab halına salan başqa alimlər də var idilər[106].

İbn Abdil-Bərr (Allah ona rəhmət etsin) qeyd edir ki: "Hədisləri ilk dəfə toplayan İbn Şihəb olmuşdur"[107]. O, hicrətin 58-ci ilində doğulmuş, 124-cü ilində vəfat etmişdir.

Hədisləri yazıya toplamaq əmrini isə hicrətin 99-cu ilində hakimiyyətdə olan saleh xəlifə Ömər İbn Əbdüləzizin (Allah ona rəhmət etsin) dövründə almışdır.

---

[104] Bu yazımızın əvvəlində də bu barədə rəvayətlər qeyd olunmuşdur.

[105] Cəmiu Bəyənil-İlmi va Fadlihi, ibn Abdil-Bərr. 1/73.

[106] Bu haqda əvvəlki mövzularda danışıldı və imam Buxariyə kimi hədisləri yazı halında saxlayan, yazıya köçürən şəxslərin olduğu adları sadalanaraq qeyd olundu.

[107] Cəmiu Bəyənil-İlmi va Fadlihi, ibn Abdil-Bərr. 1/73.

*Beləcə anlaşılır ki, hədisləri ilk dəfə toplayan imam Buxari (Allah ona rəhmət etsin) deyil, hətta, ilk hədis toplusu kimi məsələyə yanaşsaq, yenə də Buxari deyil, ondan qabaq yaşamış imam Məlik, Dərimi, Əhməd və s. (Allah onlara rəhmət etsin) olmuşlar. İmam Zuhri isə onlardan əvvəl toplayıb, bu isə quranilərin dediyi kimi peyğəmbərdən iki yüz il sonra deyil, yüz il sonra baş vermişdir. Onun topladığı məlumatlar isə artıq peyğəmbərin dövründə yazılmış səhifələrdə (papiruslarda) var idi. Artıq səhabələr də hədisləri yazmışdılar.*

İmam Buxari (Allah ona rəhmət etsin) isə sadəcə mövzulara uyğun başlıqlar qoymaqla eyni mövzuya uyğun hədisləri bir araya toplamış və hədislərin isnadını, mətnini araşdırmışdır.

O, hədis elminə uyğun daha mötəbər hədisləri kitabında qeyd etməyi özünə şərt qoymuşdu. Buna görə də Buxarinin kitabı ümmət arasında etibarlığı ilə daha çox məşhurdur.

*Bu şübhəyə cavabın sonunda onu deyirik ki, əgər hədislər peyğəmbərin ﷺ səhabələri tərəfindən səhifələrdə (papiruslarda) yazılıbsa, kiminsə sonradan bu hədisləri toplaması və elmi mövzulara, fəsillərə uyğun kitab halına salmasını misal gətirib "hədislər iki yüz il sonra yazılıb" deməsi sizcə də absurd fikir deyilmi?! Xüsusən də o şəxsdən illər öncə əvvəl yaşamış imam Zuhri, imam Malik, imam Əhməd, imam Dərimi (Allah onlara rəhmət etsin) kimi böyük hədis alimləri qeyd olunmursa, adları çəkilmir, yaşadıqları tarix qabardılmırsa, məsələnin hədis inkarçıları tərəfindən müzakirəyə çıxarılmasındakı bu qərəzli münasibət sizcə daha da aydın ortaya çıxmış olmurmu?!*

## ON BİRİNCİ ŞÜBHƏ:
## Hədislər ağıla ziddir, belə olduqda onu necə qəbul edək?!

**Şübhə belədir:** "Hədislər ağıla ziddir." Belə olan halda biz necə onunla əməl edə bilərik?!

**Şübhənin cavabı:** Bu məqamda yenə cavabdan əvvəl digər şübhəyə cavabdakı sualları veririk.

1) "Hədislərin ağıla zidd olması" iddiasını edən bununla bütün hədisləri nəzərdə tutur, yoxsa bəzilərini?

2) Yoxsa, yalnız mənasını hədisin zahirinə baxdıqda birbaşa anlaya bilmədiyi hədisləri bu qavrama daxil edir? Yəni ağıla zidd gəldiyini buna görəmi iddia edir?

3) Bu iddianı edən səhih (mötəbər) hədisləri nəzərdə tutur, yoxsa uydurma hədisləri?

4) Görəsən, bu iddianı edən şəxsin hədis elmindəki savadı hansı səviyyədədir?

Əgər bunu deyən bütün hədisləri nəzərdə tutursa, deməki, o şəxsin öz ağılında problem var. Çünki, əgər bu iddiaçı uydurma hədisləri qəsd edirsə, bilsin ki, elə uydurma hədisləri biz də qəbul etmirik.

Alimlər tarix boyu uydurma hədisləri bəyan ediblər.

Əgər söhbət zəif hədislərdən gedirsə, belə hədislərlə əməl olunmur, lakin bunda bu mövzumuzda kifayət etməyəcək uzun təfsilat və izah var.

Əgər o səhih, mötəbər hədisləri nəzərdə tutursa, onda: bu məsələdə əsas olan budur ki, peyğəmbərdən ﷺ sabit, mötəbər yolla gələn hər bir məlumat sağlam ağıla və sağlam insan təbiətinə uyğundur.

Əlxsus da əgər bu məlumatların peyğəmbərə gedib çatması mötəbər elmi yollarla isbat olunursa, mövzuda mübahisə edənlərin niyyətlərini şübhə altına almaq da mümkündür.

Çünki, təkcə savadsızlıq məsələsi deyil.

Həmçinin, əgər inkarçı müsəlman olduğunu iddia edirsə, bir müsəlmanın hədislərə qərb təfəkküründən yaranan "şübhəçilik"

nəzəriyyələrinə, əqlanilik mədrəsəsinə[108] uyğun münasibət bildirməsi qəbuledilməzdir.

---

[108] Əqlanilik mədrəsəsi: Əqlanilik Ağıla nisbət edilən bir vəsfdir. (Sələfiyyə va Qadayə əl-Aql. səh. 161) Əqlanilik bir termin olaraq: mövcud olan hər şeyi əqli əsaslara qaytarmaq görüşündə olan fəlsəfi məzhəbdir. Xüsusi olaraq isə, ağılı dinə qarşı hazırlamaqdır, o mənada ki, dini mənaları ancaq məntiqi əsaslara uyğun gəldikdə qəbul edir. (Mucəm əl-Mustalahat əl-Elmiyyə. مادة: ع ق ل. Bu fikirlər yunan fəlsəfəsində Sokrat, Aristotel və s. fəlsəfəsində ortaya çıxmışdı. Bu baxımdan əqlaniliyin qədim kökləri var. Sonradan isə əqlanilik Dekart, Spinoza və Leibnizin fikirlərinə təsir etmişdir. İslam aləmində də bu fikirlərin zərərləri az olmamışdır. İslam

Əsas budur ki, peyğəmbərdən ﷺ mötəbər elmi yolla bizə gəlib çatan hər bir məlumat ağıla və fitrətə uyğundur. Mümkün deyil ki, səhih hədis ağıla hansısa bir halda müxalif olsun.

Sadəcə bu kimlərinsə hədisə yanaşma metoduna əsasən elə görünə bilər.

Məsələ burasındadır ki, bəzən peyğəmbər ﷺ hədisində ağılları heyrətləndirəcək bir şeydən xəbər verir ki, ağıl öz zəifliyindən və acizliyindən bu xəbəri doğru qavraya bilmir.

Lakin bu xəbəri araşdırdıqda görürsən ki, bu xəbər heç də ağılın mümkünsüz hesab etdiyi və qəbul etmədiyi bir şey deyildir.

Böyük İslam alimi şeyxülislam ibn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: *"Peyğəmbərdən ﷺ gəlmiş hər bir (sabit) xəbər haqdır və bir-birini təsdiqləyir. Bu, həm də yaradılmışların fitrətinə uyğundur…İnsanlarda olan ağıl və fitrət aydın ağıla, sağlam məqsədə, doğru fitrətə, nə də peyğəmbərdən ﷺ sabit olan sağlam nəqlə (rəvayətə) müxalif deyildir. Bu sadəcə kiminsə zənninə görə müxalif görünə bilər. Kim batil nəqlləri (rəvayətləri)*

---

dünyasına bu fikirlərin gəlməsi hədis inkarçılığının səbəblərindən biri olmuşdur. "Müsəlmanlar arasında ağılı önə çəkdikləri üçün əqlanilərə cüzi olaraq yaxınlaşanlar mötəzilələr olmuşlar". (əl-Movsua əl-Müyəssərah. 2/796). İslam dünyasındakı müasir nümayəndələrindən: Misirli Rufaə Təhtavi (1801-1873), Hindistanlı Seyyid Əhməd xan (1817-1898) və başqalarını misal çəkmək olar. (əl-İtticəhət əl-Aqləniyyə əl-Hədisə. Nasir Abdul-Kərim əl-Aql. səh. 83).

*təsdiqləyər və ya bu səhih nəqllərdən lazım olmayan mənanı anlayar, ya da nəyinsə əqli məsələlərdən olduğuna zənn edərək buna etiqad edərsə, bu əqliyyat yox cəhliyyatdır*[109]. *Ya da bu özündən qəribə yol ixtira etməkdir ki, bu da bir müsibətdir. Əgər bu səhih bir nəqlə zidd olarsa, belədir, əks təqdirdə (səhih, mötəbər rəvayət olmazsa) açıq-aydın ağıla, ya da sağlam kəşfə zidd olar. O fikirləşər ki, bu rəvayət peyğəmbərin dediyidir, əslində isə bu onun adından uydurulmuşdur (mötəbər rəvayətlər isə belə deyildir). Ya da bəzən (mötəbər) rəvayətdəki hansısa bir sözü götürüb öz ağlından çıxardığı hansısa batil mənaya yozur. Əslində isə bu söz onun nəzərdə tutduğu mənaya dəlalət etmir"*[110].

Həmçinin, o demişdir: *"Açıq-aydın ağıla müxalif olan şey batildir. Quranda, Sünnədə və icmada isə batil yoxdur. Lakin bu mənbələrdə bəzi sözlər vardır ki, onu bəzi insanlar başa düşmürlər. Ya da bu sözləri batil mənalara yozurlar. Elə müsibət də onlardandır, Quran və Sünnədən deyil"*[111].

Böyük İslam alimi İbnul-Qeyyim (Allah ona rəhmət etsin) demişdir: *"Elçilər - Allahın onlara salavatı və salamı olsun - ağılların mümkünsüz hesab etdiyi və qətiyyən mümkün olmayacaq şeyləri xəbər verməmişlər. Əksinə, onların xəbərləri iki qismdir:*

***Birincisi:*** *O xəbərlər ki, ağıllar və fitrətlər o xəbərlərin doğruluğuna şahidlik edir.*

---

[109] Yəni bu ağıldan yox cahillikdəndir.

[110] ər-Risələ əl-Arşiyyə, İbn Teymiyyə. səh 35.

[111] Məcmuul-Fətəva. İbn Teymiyyə. 11/490.

***İkincisi:*** *Ağıllarını mücərrəd olaraq anlaya bilmədiyi şeylər. Necə ki, bərzəx aləminin və axirətin təfsilatı barədə gələn qeybi xəbərlər, savabın və cəzanın təfsilatları vardır. Bunlar barədə verilən xəbərlər heç də ağıllara görə mümkünsüz deyildir. Hər bir xəbər ki, ağılla mümkünsüz olduğu zənn edilir, bu xəbərlər iki haldan kənara çıxmır: Ya o xəbər sahibinə nisbət olunan yalandır, ya da xəbəri qəbul edən ağıl fəsadlı anlamışdır. Bu isə xəyali bir şübhə sayılır. Bu şübhəyə düşən elə bilir ki, düşündüyü xəyal ağıllı və aydın fikirdir[112]".*

Bizim mövzumuz uydurma hədislər barədə deyil, quranilərin inkar etdiyi səhih hədislərdir ki, guya onlar bu hədislərin ağılla uyğun gəlmədiyini deyirlər. Halbuki səhih hədisləri anlamamaları onların ağıllarının zəifliyi və acizliyidir.

Çünki yuxarıdakı nəqllərdə də qeyd olundu ki, Allahın elçiləri ağılların anlamaqda çətinlik çəkdiyi xəbərləri verə bilərlər. Bu o demək deyil ki, həmin xəbər doğru deyildir.

Eləcə də quranilərin qiyamətin əlamətləri barədə olan səhih hədisləri inkar etmələri heç də bunun ağılla uyğun gəlmədiyi üçün deyil, sadəcə onlar hədisləri mötəbər mənbə hesab etmədikləri üçün bu xəbərləri inkar etmişlər. Yoxsa, Quranda da bu qəbildən ağılların tam dəqiqliklə təsəvvür edə bilmədiyi xəbərlər vardır.

Lakin onların ağıl barədə qoyduqları qaydalar ümumən batildir. Çünki, hədisləri bu qayda ilə inkar edən quranilər

---

[112] Kitab ər-Ruh, İbn Qeyyim. səh 62; Savaiqil- Mursələ. İbn Qeyyim. 3/829-830.

sabah eyni qayda ilə Qurana da şəkk edə bilərlər. Şəkk edirlər də.

Çünki onlardan bəziləri isə, xüsusən də müasir dövrümüzdə olanları guya ateistlərə rədd vermək üçün "ağılın qəbul etmədiyi, ağıla zidd olan səhih hədislər" anlayışını irəli sürürlər və bu minvalla yüzlərlə hədisləri inkar edirlər. Halbuki onlardan əvvəl hədis alimləri batil və uydurma hədisləri bəyan etmişlər.

Bu yeni quranilər isə şəriətdə elementar şeyləri bilmədikləri halda alimlərin yolunu tərk edib naqis ağıllarını hədislər üzərində hakim təyin etmişlər. Ona görə də onların bu batil qaydası əslində onları daha betər bəlalara sürükləyir.

Qəlblərində ayaqlarını dində sabit saxlayacaq kifayət qədər elementar bilgiləri olmayan quranilər (hədis inkarçıları) guya şəriəti müdafiə etmək adıyla özləri də bilmədən şəriəti inkar edirlər.

Onların ağıl barədə qoyduqları bu batil qayda nə vaxtsa - Allah qorusun - onların dindən çıxmalarına da gətirib çıxara bilər.

Uca Allah buyurmuşdur: "**Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir".** (Nisa. 115).

Quranilərin və başqalarının ayədə qeyd olunan kimi bu "ağılı şəriətdən önə çəkmək" yolu ayədə peyğəmbərə ﷺ qarşı çıxmaq və möminlərin yolundan başqa yolla getmək

ifadəsilə bütün İslamın Muhəmməd peyğəmbərin ﷺ funksiyasının və missiyasının ancaq öz dövrünə aid olmasını deyənləri ehtiva etmiş olur.

Həmçinin, insan qeybi məsələləri öz ağılı ilə yozsa, yəni, vəhyə tabe olmadan qeybi yozsa, bu gün hədislərdəki qeybi xəbərləri inkar edirsə, sabah da Qurandakı qeybi xəbərləri inkar edə bilər.

*Çünki, ağıllar müxtəlifdir. Ola bilsin ki, sən bir şeyi qəbul edəsən, başqası qəbul etməsin və ya bunun əksi olsun. O zaman müxtəlif olan ağılları necə Quran və sünnəyə hökm verən (meyar) təyin etmək olar?*

İslam şəriəti ağıla yüksək yer vermişdir, bir çox ayələrdə ***"məgər düşünmürlərmi?"***, ***"ola bilsin ki, düşünəsiniz"***, ***"bunda ağıl sahibləri üçün ibrətlər vardır"*** və s. ağıl və düşünmək barədə danışılmışdır.

İslam dini ağıla yüksək dəyər versə də ağılı hər şeydə həqiqət meyarı etməmişdir. Çünki, ağıl kainatdakı hər şeyi dərk edə bilmir.

Ona görə də insan ağıla əsaslanmaqda həddini aşmaqdan çəkinməli və şəriətdə bir şeyi anlamadığı təqdirdə bilənlərə müraciət etməlidir. Hər bir şeydə həddi aşmaq zərərlidir. Necə ki, su öz miqdarında faydalı olsa da, selə və sunamiyə döndüyü zaman böyük zərərlər verir. Eləcə də hər şeydə orta ölçülü olmamaq fəsad verir.

İnsanın ağılı qocalanda zəifləyir, bəzən gənc ikən doğru mövqe tutmaqdan yayınır, bəzən insan hislərinə qapılıb qəzəbləndiyi zaman ağılı ilə deyil, emosiyaları, hisləri ilə

hökm vermiş olur. Ona görə də şəriət bu naqislikləri nəzərə alaraq ağıla lazımi qiyməti versə də, ağılı bizə ilk mənbə etməmiş, nə də Quran və sünnədən önə çəkməmişdir.

Allah hüccət qaldırmaqda ağılla nəqli cəm edib[113]. Nəqli (rəvayət yoluyla) olan səhih dəlillər ağıla necə zidd ola bilər ki, Allah tərəfindən məxluqlara hər ikisiylə birgə hüccət çatdırılıb?!

Məsələn, Allah Quranda həm əqli, həm də nəqli (rəvayət yoluyla olan) dəlili bu ayədə cəm etmişdir: **«Onlar deyəcəklər: "Əgər biz dinləsəydik və ya anlasaydıq alov şölələri saçan od sakinlərinin içində olmazdıq!"»** (Mülk, 10)

Ayədəki, "**dinləmək**" (eşitmək) nəqli dəlilləri eşitməyə dəlalət edir. Onlar nəqli dəlilləri inkar etdilər. "**Anlmamaq**" isə ağıl etmək, düşünmək, başa düşmək anlamındadır. Onlar mötəbər nəqli dəlilləri ağılları ilə düzgün qəbul etməyib bunun ağıla zidd olduğunu iddia edib inkar etdikləri üçün cəhənnəm sakinləri olacaqlar.

Başqa bir ayədə də Allah əqli və nəqli dəlili bir arada qeyd etmiş və buyurmuşdur: "**Onların qəlbləri var, onunla anlamazlar**" bir cümlə sonra isə buyurur: "**qulaqları var, onunla eşitməzlər.**" (əl-Əraf, 179)[114].

---

[113] Yəni həm ağıla yer verib, həm də mötəbər nəqllərə yer verib, hər ikisinin bir-birinə uyğun ola biləcəyini elçiləri vasitəsilə göstərib.

[114] Bu ayədə "anlamaq" əqli dəlilə, "eşitmək" isə (rəvayətə) nəqlə dəlildir. Onlar nə ondan, nə də bundan yararlanmazlar.

*Nəql (nəqli dəlillər) Allahın nazil etdiyidir, Ağıl da məxluqdur. İnkar edənlərin iddia etdiyi "şəriət ağıla müxalifdir" sözüylə razılaşmaq o deməkdir ki, guya Allah ağılda nə olduğunu bilmir və bilmir ki, ağıla ona müxalif olan bir şeylə xitab edib, ya da ki, demək istəyir ki, Allah ağılda nə var olduğunu bilsə də, sadəcə bəyanının naqis olduğuna görə və yaxud qəsdinin pis olduğuna görə ağıla elə bir şeylə xitab edib ki, bu ağıla zidd olsun. Bundan da belə çıxır ki, kim desə ki səhih hədislər ağıla ziddir, o şəxs Allaha tənə etmiş olur. Bu tənə ya Allahın elminə, ya qəsdinə ya da bəyanına edilmişdir. Bütün bunlardan Allaha sığınırıq!*

Quranilər din düşmənlərinin tənqidinə məruz qalmış bəzi məşhur tarixi hadisələr barədə olan mötəbər hədisləri də guya "dini təmizə çıxartmaq" adıyla inkar etmişlər. Gəlin qeyd olunan məsələyə bəzi misallar çəkək:

**BİRİNCİ MİSAL: Buxaridə varid olmuş "uraniyyin" hədisi[115].** Müsəlman çobanları qətl edən iki şəxsin cəza olaraq şiddətli ölüm cəzasına düçar olmalarını inkar etmələri kimi. Halbuki bu hədis barədə şübhəyə cavab çox sadədir. Hədis isə səhihdir.

Çünki ağıl da bunu təsdiqləyir ki, həmin şəxslərin peyğəmbəri ﷺ aldatmaları, onun etibarını qazanıb sonra iki çobanı öldürmələrinin günahı yüngül olmadığı kimi cəzası da yüngül olmalı deyildi.

115 Bax: Səhih əl-Buxari. 3018.

Peyğəmbər ﷺ onların mədələrindəki ağrıdan müalicə olunmaları üçün həmin çobanların yanına dəvə südü və sidiyi içmək üçün göndərmişdi. Onlar isə dəvanı içib şəfa tapdıqdan sonra çobanları işgəncə ilə öldürmüşdülər.

Şübhəsiz ki, bir peyğəmbərə ﷺ və müsəlmanlara qarşı böyük bir xəyanətin cəzası şiddətli bir cəza olmalıydı.

Həmçinin, onlar artıq peyğəmbərə ﷺ qarşı döyüşən "muharib"[116] hökmünü almışdılar.

Quranilər isə bu mənanı başa düşmək yerinə həmin hədisi inkar etmiş, İslamda sanki xəyanətkarlara cəza verilə bilməzmiş kimi özləri məntiqsizlik və ziddiyyət yolunu seçmişlər. Yəni qeyd olunan hədis həm səhihdir, həm də sağlam ağıla da zidd deyil.

---

[116] Muharib: qısa olaraq mənası "quldurluq edənlər və ya silahla yol kəsənlər" deməkdir. Bu bir şəri termindir, "əl-Hirabə" fəslində keçən mövzulardandır. Elm əhli ittifaq etmişlər ki, mühariblik (quldurluq) ölkə xaricində silah çəkmək və yol kəsməkdir. (Fəthul-Qadir. 4/275; Haşiyətu ibn Abidin. 4/126; Haşiyıtud-Dəsuqi. 4/348; Tuhfətul-Muhtəc. 8/4). Amma, ölkə daxilində bu əməli edənin müharib termini ilə xitab olub-olmamasında ixtilaf etmişlər. İmam Malik ölkənin daxili və xaricində quldurluğu eyni hesab etmişdir. Şərhus-Sağir. 2/435. Əbu Hənifə ölkə daxilində olanı hirabə hesab etməmişdir. Haşiyətu ibn Abidin. 4/126. Fəthul-Qadir. 4/275. İmam Şafi isə ölkədə idarə güclü olduğu zaman deyil, idarəçilikdə xaos olduğu zaman bu cür əməli hirabə hesab etmişdir. Nihəhətul-Muhtəc. 8/4.

Deməli, problem hədisdə deyil, "quranilərin" başa düşməsindədir.

Qaldı ki dəvə südü və sidiyinin qatılıb içilməsinin dərman kimi istifadəsinə, bunun bəzi xəstəliklərin müalicəsində necə faydalı olması barədə qədim və müasir alim və həkimlərdən çoxlu dəlillər gətirmək olar ki, biz bu mövzuda dəlilləri nəql edib şübhəyə cavabın məcrasından çıxıb söhbəti uzatmaq istəmirik.

**İKİNCİ MİSAL:** Peyğəmbər ﷺ bir hədisində qoyun saxlanılan yerdə namazın icazəli olduğunu bildirmiş, amma, dəvə saxlanılan yerdə isə namaz qılmağı qadağan etmişdir.

**Hədis belədir: *"Qoyun tövləsində namaz qıla bilərsiniz, dəvə tövləsində isə namaz qılmayın. Çünki, o şeytanlardan yaranmışdır"*[117].**

**Hədisin mənası:** *"Burada məşhur olan mənaya görə o demək deyil ki, dəvə həqiqi mənada şeytanlardan yaranmışdır. Bunun mənası odur ki, dəvə əti yemək insanda kin-küdurətli (nifrət dolu) şeytani qüvvə əmələ gətirir. Bu əti yeyən (insan) əti yeyilən dəvəyə bənzədilmişdir. Çünki, dəvə elə yaradılmışdır ki, o, nifrət və əziyyət etməkdə cinlərə bənzəyir. Ona görə də onun ətini yedikdə dəstəmaz almaq lazımdır. Onun tövləsində də namaz qılmaq qadağan edilmişdir"*[118].

---

[117] Sünən İbn Macə, 769; səhihdir.

[118] Bax: Məcmuul-Fətəva, İbn Teymiyyə, 21/10; 20/523 və Haşiyətu İbn Abidin, 1/380.

**ÜÇÜNCÜ MİSAL:** **Buna da peyğəmbərin ﷺ möcüzələrini və bu barədə olan səhih hədisləri** misal gətirmək olar. Biz Allah peyğəmbərinin ﷺ möcüzələrinə iman gətirmişik.

Məlumdur ki, Quranda peyğəmbərlərin möcüzələri var. Peyğəmbərin ﷺ hədislərdəki möcüzələrini inkar edənlər gərək onda Qurandakı digər möcüzələrini də inkar etsinlər.

*Məgər bu möcüzələrin hamısı Allah tərəfindən deyilmi?*

Hədislərdə Məhəmməd peyğəmbərin ﷺ merac səfərini (peyğəmbərin səmaya yüksəlməsini) inkar edənlər, onda Qurandakı digər peyğəmbər ﷺ möcüzələrini də inkar etməyə məcburdurlar.

“Quranilər” Məhəmməd ﷺ peyğəmbərin göyə yüksəlməsini inkar edirlərsə, onda İsa peyğəmbərin (əleyhissalam) də ən-Nisa 158-də qeyd edilən göyə yüksəlməsini inkar etməlidirlər.

Allah həmin ayədə belə buyurur: "**Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır**". (ən-Nisa, 158).

“Quranilər” möcüzələrin Allah tərəfindən olduğunu qəbul edirlərsə, onda mötəbər hədislərlə Quranı fərqləndirib eyni qəbildən olan möcüzələri inkar etməli deyillər.

Əgər mötəbər hədislərdəki möcüzələri “ağıla uyğun deyil” bəhanəsilə inkar edirlərsə, onda ən birinci Quranda keçən "İsanın quş düzəldərək onu üfləyib uçurmasını, Allahın iznilə ölüləri diriltməsini, Musanın ilana çevrilən

əsasını, Salehin qayadan dəvə çıxarmasını və s. kimi bir çox möcüzələri də gərək inkar etsinlər.

Amma əslində isə ağıl bunların heç birini inkar etmir. Çünki, bu boyda böyük kainatı yaradan Allah balaca bir əsanı ilana çevirməyə də qadirdir.

Ona görə də fironun sehrbazları onu (Musanın möcüzəsini) dərhal qəbul etdilər. Çünki, onlar bunun Allahdan olduğunu başa düşdülər.

**Möcüzə isə:** *"Başqa insanların edə bilmədiyi və yalnız peyğəmbərlərə Allah tərəfindən verilmiş, ilahi qüvvə olmadan ərsəyə gəlməyən xüsusi qeyri-adi bir haldır ki, bu bir peyğəmbərin sadiqliyinə və Allah tərəfindən göndərilməsinə dəlalət edir"*[119].

Deməli, möcüzəni Allahın köməyi olmadan heç bir peyğəmbər edə bilməz. Ona görə də bu qeyri-adi hal, ağılları heyrətləndirən möcüzə bir peyğəmbərin sadiqliyinə dəlalət etməlidir. Yəni bu məsələdə insanın zəif ağlına və aciz idrakına tabe olunsaydı, onda ilahidən gələn şəriət olmazdı.

İnsanın əzaları məhdud gücə malik olduğu kimi insanın ağılı və idrakı da məhdud gücə malikdir. Göz bir neçə yüz metrdən o yanı görmür, qulaq bir neçə yüz metrdən o yanı, bəzən isə bir neçə on metr məsafədən o yanı eşitmir.

Qol bir neçə kq-dan artıq yük qaldıra bilmir. Ağıl və idrak da belədir. İnsan bəzi şeyləri dərk edə bilmir.

[119] Bax, əl-Ənvar fi Şəmailin-Nəbiyyil-Muxtar, 1/29.

İnsan idrakının fövqündə olan böyük məsələlər var ki, insan idrakı onu dərk etməyə, qavramaya bilər. Kainatda insanların əsrlərdir axtardığı və hələ də dərk edə bilmədikləri məsələlər çoxdur. Bunu həm müsəlman alimlər, həm də qeyri müsəlman alimlər təsdiqləmişlər.

Deməli, ağıl hər məsələdə meyar deyil. Əgər ağıl hər məsələdə meyar deyilsə, onda insan dərk etmədiyi qeyb aləmi, axirət dünyası, Allahın varlığı, möcüzələr və s. kimi çoxlu məsələlərdə öz ağılı və idrakını meyar edə bilməz.

İnsanın ağılının kainatı dərk etməsinin məhdud olmasını qeyri müsəlman alimləri də təsdiqləyiblər.

Ona görə də Kant[120] və başqaları əslində “təcrübi elm mədrəsəsini” bir mənbə kimi irəli sürərkən bunu insan ağılının kainatdakı həqiqətləri anlamaqda məhdud (yetərsiz) və qüsurlu olduğundan dolayı məqbul hesab etmişdilər.

Seyyid Sabiq[121] ağılı önə çəkənlərin əsaslarını tənqid edərkən demişdir: "Bəşər övladının ağılı nə qədər zəka, güc

---

[120] Emmanuel Kant (1724-1804): O, alman tənqidi fəlsəfəsinin qurucularından olmuşdur. Təhsili əsasında Leibniz və Volfdan çox təsirlənmişdir. Əvvəllər fizika və astronomiya haqda əsərlər yazsa da, 1770-dən sonra Hume Rousseaudan təsirlənərək tənqidi fəlsəfəsini inkişaf etdirmişdir. O, şübhəçiliyə də meyl etmişdir.

[121] Seyyid Sabiq (1915-2000): Məşhur "Fiqhus-Sünnə" kitabının müəllifidir. Ölkəmizdə tanınan kitabı əsasən budur. əl-Əzhər universitetindən məzun olmuşdur. Bir sıra araşdırma və kitabların müəllifidir.

və idrak qazansa da varlıqların həqiqətini dərk etməkdə olduqca qüsurlu və acizdir.

Bu ağıl insan vücudunu, psixologiyasını tanımaqda acizdir. Belə ki, bu məsələ elmdə və fəlsəfədə ən qəliz mövzulardan biri olaraq qalmaqdadır.

İnsan işığın həqiqətini bilməkdə acizdir. İşıq isə ən aydın və ən aşkarda olan bir şeydir. İnsan maddənin və onun təşkil olunduğu zərrələrin həqiqətini bilməkdə acizdir. Maddə isə insanda ən sabit mövcud şeydir.

Beləliklə, elm kainatın və təbiətin bir çox həqiqətləri qarşısında aciz durumda qalaraq son sözü deməyi bacarmır"[122].

Quranilərin inkar etdikləri digər səhih, mötəbər hadislərin də düzgün əqli izahları vardır. Lakin onlar insan ağılında naqislik olduğunu, bəzi şeylərin hikmətini insanın dərhal bilmədiyini, hətta insanın bəzi məlumatları ümumiyyətlə qavraya bilmədiyindən qafil qalaraq dərhal anlamadıqları məlumatları inkar etmişlər.

Quranilər itaət sözünün mənasını da öyrənməlidirlər.

Məsələn; Quranda "**Allaha və Elçisinə itaət edin**" (Ali İmran. 132) deyildiyi zaman deyilmədi ki, “Allaha və sonra ağlınıza” itaət edin və ya deyilmədi ki, Allaha itaət edin, peyğəmbərə isə “ürəyiniz istəyəndə” itaət edin.

Həmçinin deyilmədi ki Allaha itaət edin, peyğəmbərə isə ağlınız dərk etmədiyi, başa düşmədiyiniz şeylərdə itaət

---

[122] Naqd Usul əl-Aqlaniyyin, 2/42.

etməyin. Quranda belə bir şey yoxdur. Bu üslub nəfsinə və havasına tabe olanların üslubudur.

Uca Allah buyurur: "**Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə!**" (əl-Kəhf, 28).

Başqa ayədə buyurur: "**Nəfsin istəyinə uyma, yoxsa o səni Allahın yolundan azdırar".** (Sad, 26).

Allahdan istəyirəm ki, bizi nəfslərimizin şərrindən qorusun və bizi bir an belə nəfsimizlə baş-başa qoymasın!

## ON İKİNCİ ŞÜBHƏ:
## Hədislər Qurana ziddir, belə olduqda onları necə qəbul edək?!

**Şübhə belədir:** Hədislər Qurana ziddir. Ona görə də Quranla kifayətlənmək lazımdır.

**Şübhənin cavabı:** İslam ümməti ittifaq etmişdir ki, əgər hədis səhih (sağlam, mötəbər) olarsa, Qurana heç vaxt müxalif ola bilməz. Çünki hədisi-şərif Quranın bəyanı və izahıdır.

Uca Allah Quranı izah və bəyan etməyi öz peyğəmbərinə ﷺ əmr etmişdir: "**Sənə də Zikri nazil etdik ki, insanlara, onlara nazil olanı izah edəsən və bəlkə onlar fikirləşələr".** (ən-Nəhl, 44).

Bu bəyan da Allahdan olan vəhy ilə olmuşdur ki, bu vəhyə tabe olan izah mötəbər hədislər yolu ilə baş vermişdir.

Belə bir izah isə Qurana müxalif ola bilməz. O baxımdan ki, hər ikisi də Allah tərəfindəndir.

Peyğəmbərin ﷺ bəyanı, izahı həm Quran ayələrini oxumaq, həm də onun vəhyə tabe olan sözləriylə izah edilməsi yoluyla ola bilər.

Peyğəmbərin ﷺ müstəqil mənbə şəklində gələn sünnəsində Quranın ümumi ayələrinin, qaranlıq qalan, tam aydın olmayan mənalarının izahı vardır.

Bu hökmlər və bu mənalar qətiyyən Qurana müxalif ola bilməz.

Hədislərin Qurana zidd olduğunu deyənlərə deyirik ki, siz hədislərin Qurana zidd olduğunu dedikdə hədislərin hamısını nəzərdə tutursunuz? yoxsa, az bir qismini?

**Həmçinin, deyirik:** Siz bununla səhih və mötəbər hədisləri nəzərdə tutursunuz? yoxsa, bizim də uydurma və zəif olaraq qəbul etdiyimiz hədisləri?

**1) Əgər uydurma və ya zəif hədisləri deyirsinizsə,** biz də bu hədislərlə əməl etmirik. Halbuki, insanlardan sizə aldananlar əsasən uydurma hədislərin mövcudluğuna görə sizə aldanıblar. Lakin onların hədis elmindən xəbərləri olsaydı, Allahın sünnəni böyük alimlər vasitəsilə necə qorumasından xəbərləri olsaydı, uydurma hədisləri və hədis uydurmaçılarını elə ən birinci böyük hədis alimlərimizin bəyan etdiklərini, quranilərin bu sahədə heç bir əməyinin olmadığını bilsəydilər, bu üç məsələni anlayardılar:

a) Hədis alimlərinin dinin, şəriətin qorunmasında olan əziyyətlərinin və qeyrətlərinin "dırnaqarası" din qeyrəti çəkənlərlə müqayisə oluna bilməyəcəyini,

b) Şəriətin xurafatlardan qorunmasında, ümumiyyətlə İslam dininin təhriflərdən qorunmasında sünnə alimlərinin böyük məqamının olduğunu,

c) İslam tarixində quranilik hərəkatının dinə zərər və yalnız təhriflər gətirdiyini, şəriəti inkar etdiyini, hədis inkarçılığı ilə başlayıb sonda Quranı belə inkar edən yüzlərlə insanlar yetişdirdiyini, hətta sonda dindən çıxan mürtədlər

ordusunun yaranmasından başqa bir işə yaramadığını, zaman-zaman İslam düşmənləri tərəfindən müsəlmanları zəiflətmək məqsədilə istifadə olunduqlarını anlayardılar.

**2) Yox əgər siz səhih və mötəbər hədislərin Qurana zidd olduğunu deyirsinizsə,** onda gəlin bu məsələyə ümumən bir neçə aspektdən yanaşaq:

Birincisi: **Qəsdlərin müxtəlifliyi;** Quranilər müxtəlif firqələri ilə, bəziləri hədisləri tam inkar etmiş, bəziləri bir qismini, bəziləri əhəd[123] hədisləri, bəziləri isə iddia etdiklərinə görə "ağıllarına uyğun gəlməyən" hədisləri inkar etmişlər. Ona görə də bu tayfaların "*hədislər Qurana ziddir*" dedikdə qəsdləri müxtəlifdir. Bəziləri isə bəzi haramların Quranda olmadığını bəhanə gətirərək həmin mötəbər, səhih hədisləri inkar etmişlər. Çünki səhih sünnənin İslamın mənbəsi olduğunu qəbul etməmişlər.

---

[123] Əhəd hədislər: Tək bir səhabədən rəvayət olunmuş hədislərdir. Amma rəvayəti edənin bir səhabə olması şərt deyil. Elmi tərifi isə belədir: "Əhəd hədis, mütəvatir hədisin şərtlərini özündə cəmləşdirməyən hədisdir". (Nuzhətun-Nazar. 26; Teysiru Mustalah əl-Hədis. səh. 23). Əhəd hədisin üç növü var: məşhur, əziz, ğarib.
1 - Məşhur: hər təbəqədən üç və daha artıq şəxsin rəvayət etdiyi, mütəvatir həddinə çatmayan hədisdir.
2 - Əziz: sənədinin bütün təbəqələrində rəvayətçilərin sayı iki nəfərdən az olmayan hədisdir.
3 - Ğarib: rəvayətində bir rəvayətçinin tək qaldığı hədisdir. (Teysiru Mustalah əl-Hədis. Mahmud Tahhan. səh. 23-29).

*Məsələn; Bəzi böyük günahlar Quranda yoxdur. Biz bu günahları hədislər vasitəsilə tanımışıq.* Heç bir ağıl sahibi olan müsəlman bu günahların qadağan edilmiş əməl və haram olmasını inkar etməmişdir. Bu günahlardan;

1) Kişilərin özünü qadınlara bənzətməsi və qadınların özünü kişilərə bənzətməsi.

2) Ayaqyolunda üzərini təmiz saxlamayaraq nəcasətə bulaşdırmaq.

3) Qədəri inkar etmək.

4) Mömini söyməyin onu öldürmək kimi böyük günah olması.

5) Yas yerində şivən salıb üz-gözünü cıraraq ağlamaq, bu yolla qədərə etiraz etmək.

6) Qonşuya əziyyət vermək.

7) Bu dünyada kişilərin qızıl taxması və ipək paltar geyinməsi.

8) Allahın sevimli qullarını söymək, onlara əziyyət etmək.

9) Üzürsüz yerə cümə namazını və camaat namazını tərk etməkdə davamlı olmaq, bu işdə israr etmək və s[124].

Görəsən, hədis inkarçıları Qurani-Kərimdə olmayan bu günahlardan hansını qəbul edirlər? Xüsusilə də, onların

---

[124] İmam Zəhəbinin «əl-Kəbəir» kitabında qeyd etdiyi böyük günahların arasında bu sadaladığımız günahları görə bilərsiniz.

özünü kişilərə oxşadan qadınlar barədə mövqeyi bizə maraqlıdır!

Axı bu böyük günah Quranda qeyd olunmayıb. Qeyd edək ki, söhbət əxlaqsızlıq etməkdən deyil, sadəcə özünü qadınlara oxşatmaqdan gedir. Quranda olmayan bu günahı görəsən hədis inkarçıları qəbul edəcəklərmi?! Yoxsa, hədisi bir yana qoyub "etməsə yaxşıdır" və ya "öz işidir, özü bilər" deməklə kifayətlənəcəklər?! Çox maraqlıdır!

İkincisi: **Mənası dərhal anlaşılmayan hədislər;** Biz «Hədislərin ağıla zidd olması» iddiası və ya şübhəsinə cavab verərkən az bir qism hədislərdən danışmışdıq ki, insan onu dərhal anlamaya bilər.

Lakin alimlərin izahına baxdıqda elm verilmiş şəxslərin şərhini bildikdə problemin aradan qalxdığının şahidi oluruq.

Quranla müxalif olduğu iddia olunan hədislərin bir qismini elə bu hədislər əhatə edir. Buna bir misal verək, özü də "ölkəmizdəki quranilərin ağlına zidd gələn bir hədisə" gəlin nəzər yetirək; hədis belədir; ***"Meyyit yaxınlarının onun üçün ağlamasına görə əzab olunar[125]"***. Bir ləfzdə isə: ***"Yaxınlarının bəzi ağlamasına görə əzab olunar"*** - deyə varid olmuşdur. Quranilər deyirlər ki, bu hədis bu ayəyə ziddir: "**Heç bir günahkar başqasının günahını daşımaz**". (Ənam. 164). Biz bunu necə anlamalıyıq?

[125] Səhih əl-Buxari. 1291; Səhihi Müslim. 933.

**Bu şübhənin cavabı belədir:** Bu hədisi imam Buxari (Allah ona rəhmət etsin) rəvayət edib və elə özü qısa şəkildə bunu şərh edərək deyib: إذا كان من سنته *"Əgər bu onun öz yolundan olarsa"* yəni, yaxınlarının onun ölümündən sonra ona ağlamasını özü istəyərsə və tələb edrəsə[126].

Bir də burda ağlamaq dedikdə üz-göz cırmaq olan ağlamaq nəzərdə tutulur. Bu barədə qadağa var. Normal ağlamaqdan fərqli olaraq, ölü üçün üz-göz cırıb ah-nalə qopararaq ağlamaq bir növ Allahın qədərinə qarşı çıxmaq hökmündədir.

Bu da böyük günahlardan sayılır. Əgər ölü vəsiyyət etsə ki, **"mənim üçün belə və filan cürə ağlayın",** onda o da əziyyət çəkəcəkdir. Çünki, bu zaman meyyit sağ ikən bu günahı vəsiyyət etməklə özü bu günaha səbəb olmuş sayılır[127].

Alimlərin bu hədis barədə dedikləri və anladıqları məna da elə budur. Quranilər isə bu hədisi düşüncələrinin məhdudluğundan dolayı başa düşməmiş və bu hədisin Qurana müxalif olduğunu iddia etmişlər.

**Üçüncüsü:** **Nəsix və mənsux məsələsinə aid hədislər;** Yəni, bir ayənin hökmünün ya Quran ayəsi, ya da *hansısa*

---

[126] Səhih əl-Buxari. 893. İbn Ömərin (Allah ondan razı olsun) hədisindən müsnəd olaraq rəvayət etdiyi hədisdə imam Buxari babın başlığını belə qoymuşdur: "Əgər onun (ölünün) öz yolundan (öz istəyilə) olarsa, *yaxınlarının bəzi ağlamasına görə ona əzab olunar".*

[127] ət-Təzkiratu fi Əhvalil-Movtə va Umuril-Əxirah. səh. 102.

*mötəbər hədis vasitəsilə* yeni bir hökmlə əvəz edilməsi, özü də peyğəmbərin ﷺ sağlığında ikən əvəz edilməsinin qeyd olunduğu hədislər.

Quranilər bu hədisləri də qəbul etmirlər.

Təbii ki, onlar şəriəti bilmədiklərindən dolayı Allahın bu ayəsini də anlaya bilməmişlər: "**Biz hər hansı bir ayəni dəyişdirir və ya onu unutdururuqsa, ondan daha yaxşısını, və ya ona bənzərini gətiririk. Məgər bilmirsən ki, Allah hər şeyə qadirdir?**" (əl-Bəqərə. 106).

Biz etiqad edirik ki, bu dəyişdirilmə həm hədis, həm də Quranın başqa bir ayəsi yoluyla baş verə bilər.

Lakin, biz istər Quranın Quranla nəsx olunduğunu, istər də hədislərin digər hədislərlə nəsx olunduğundan danışsaq da onlar ümumiyyətlə bu elmdən qafil qalır və bu elmə əhəmiyyət vermirlər.

Ancaq onlara öz ziddiyyətli məntiqləri və müxtəlif cür düşüncədə olan ağılları lazımdır.

Quranın hədislərlə nəsx olunması məsələsi elm əhli arasında ixtilaflı olsa da, Quranın Quran ayələri, hədislərin isə hədislər vasitəsilə nəsx olunması sabitdir.

Biz bu kiçik araşdırmada hədislərin digər hədislər yoluyla nəsx edilməsindən danışacağıq.

Lakin gəlin ilk öncə Quran ayələrinin nəsxinin üç növünü qeyd edək.

Quran ayəsinin nəsx olunmasının (hökmdən, qüvvədən düşməsinin) üç növü vardır:

Ayənin tilavətinin də, hökmünün də nəsx edilməsi (qüvvədən düşməsi).

Ayənin tilavətinin qalması, hökmünün nəsx edilməsi (qüvvədən düşməsi).

Ayənin hökmünün qalması, tilavətinin nəsx edilməsi (qüvvədən düşməsi)[128].

**Birinciyə dəlil:** İmam Müslimin Aişədən (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdir. Həmin hədis süd qohumluğunun əvvəl on dəfə süd əmizdirməni gərəkdirdiyini, sonradan isə bu ədədin beş dəfəyə düşdüyünü qeyd edir. Beş dəfəyə düşdükdən sonra isə ayənin həm tilavətinin, həm də hökmünün nəsx olunduğu qeyd olunur.

**İkinciyə dəlil:** Ərindən boşanmış qadının «gözləmə müddəti»nin üç heyz müddəti olması barədə olan ayənin hökmü kimi. Sonra bu hökmdən əri ilə yaxınlıq etmədən boşanmış qadın, heyzdən tam kəsilmiş qadın, heyz olmadan boşanmış qadın və hamilə qadının hökmü istisna olaraq nəsx olundu[129].

---

[128] Bax: ət-Təhbir fi İlmit-Təfsir. Cəlaləddin əs-Süyuti. 259-260; əl-İtqan fi Ulumil-Quran. Cəlaləddin Süyuti. 1440-1441; ən-Nəsix vəl-Mənsux. İbn Sələmə. 20-21.

[129] Bax: Təbərinin təfsiri. səh 501. 4668.

**Üçüncüyə dəlil:** Yaşlı kişi və yaşlı qadının zina etdikləri təqdirdə daşqalaq edilmələrini əmr edən ayə; Bu ayə əvvəllər Quranda olmuş, sonra tilavəti silinsə də, hökmü qalmışdır[130].

Peyğəmbər ﷺ özü daşqalaq etmiş və ondan sonra da onun raşidi xəlifələri[131] (Allah onlardan razı olsun) daşqalaq etmişlər.

Quranilər hansısa bir hökmün hədis vasitəsilə, yəni peyğəmbərin ﷺ sözüylə Allah tərəfindən dəyişdirilə biləcəyini anlamamış, qəbul etməmiş, həmin hədislərin isə "hökmdən düşmüş" azsaylı ayələrlə uyğun gəlmədiyini və nəticədə Qurana müxalif olduğunu iddia etmişlər.

Quranilərə nəsix və mənsux məsələləri ilə əlaqədar bəzi faydalı kitabları oxumağı tövsiyə edirik ki, hətta, bu şübhədən də qurtula bilsinlər. Bu kitablardan:

Zührinin "ən-Nəsix vəl-Mənsux va Tənzilil-Quran" əsəri. (124 hicri)[132].

Qatadənin "ən-Nəsix vəl-Mənsux" əsəri. (117 hicri).

əl-Qasim ibnis-Sələmin "ən-Nəsix vəl-Mənsux" əsəri. (224 hicri).

---

[130] Bax: Sünən əl-Beyhəqi, 16911; Sahihi ibn Hibban, 4428; Hakimin "əl-Mustədrək" əsəri. 8068.

[131] Yəni: Əbu Bəkr, Ömər, Osman və Əli (Allah onlardan razı olsun).

[132] Qeyd: müəlliflərin adları və kitablarını qeyd etdikdən sonra yazılan hicri tarixlər müəlliflərin hicri tarixlə vəfat etdikləri tarixlərdir.

Nəhhəsin "ən-Nəsix vəl-Mənsux" əsəri. (338 h.vəf).

Muqrinin "ən-Nəsix vəl-Mənsux" əsəri. (410 hicri).

İbn Həzmin "ən-Nəsix vəl-Mənsux" əsəri. (456 hicri).

Əbu Bəkr Zeynud-Din əl-Həmədaninin "əl-İtibar fin-Nəsixi vəl-Mənsuxi minəl-Əəsər" əsəri. (584 hicri).

Əbul-Fərəc əl-Covzinin "əl-Musaffə bi-Əkuffi əhlir-Rusuxi min ilmin-Nəsixi vəl-Mənsuxi" əsəri. (597 hicri).

Mər'i əl-Məqdisinin "Qaləidil-Mərcən fi Bəyəni ən-Nəsix vəl-Mənsux" əsəri. (1033 hicri).

Şeyx Muhəmməd əl-Əmin əş-Şinqitinin "Bəyənin-Nəsix vəl-Mənsux min Əyiz-Zikril-Həkim" kitabı. (1393 hicri).

Artıq yuxarıda qeyd etdik ki, hədisin Quran ayəsini "nəsx etməsi" (yəni hökmdən, qüvvədən salması) alimlər arasında ixtilaflı olsa da, hədisin hədisi nəsx etməsi (hökmdən salması) isə sabit bir məsələdir.

Biz burada nəsxin hər iki növünə misallar çəkərək mövzunu uzatmaq istəmirik. (Hətta ki, artıq bəzi misallar çəkdik) Bunun qeyd edilməsində əsas məqsəd budur ki, əgər bir hədis digər hədisi qüvvədən sala bilirsə, bu qüvvədən düşən hədisin isnadına xələl deyil.

Çünki, əgər hədis qüvvədən düşərsə, digər səhih bir hədis möminlərə rüxsət (rahatlıq, asanlaşdırma) və ya başqa baxımdan yeni hökmü gətirərsə, bu o demək deyil ki, birinci hökmün rəvayət olunduğu hədis uydurmadır, təbii ki, bu zaman hər iki hədisin isnadı mötəbər, sağlam, səhih olmalıdır.

**Buna bəzi misallar çəkmək olar:**

**Birinci misal:** Məsələn; İslamın ilk dönəmində namazlar iki rükət qılınırdı[133], sonradan rükətlərin sayının dəyişildiyini rəvayət edən hədis və ya əvvəllər iki rükət olduğunu xəbər verən hədisləri özümüzdən zəifləşdirə bilmərik.

Çünki isnad mötəbərdirsə, burada fərq birinci hökmün qüvvədən düşməsi, yəni nəsx edilərək ikinci hökmlə əvəz edilməsidir.

Əgər kimsə bu məsələni başa düşmürsə, deməsin ki, birinci və ya ikinci hədis uydurmadır və ya zəifdir. Çünki o birinci bizə hədis elminin mötəbər qaydalarına əsasən bu hədislərdən hansınınsa uydurma olmasını isbat etməlidir.

Əgər bunu edə bilmirsə, anlamalıdır ki, burada nəsx (qüvvədən düşmə, hökmü silinmə) var.

Hədis inkarçıları İslamın ilk dövrlərində namazın yalnız iki rükət qılınması, sonra isə rükətlərin fərqli formaya düşməklə üç-dörd rükətli namazların da olmasının nəsx yoluyla olduğunu qəbul etməmişlər.

---

[133] Möminlərin anası Aişə (Allah ondan razı olsun) demişdir: "Allah namazı fərz etdiyi zaman - səfərdə və qeyri-səfərdə iki rükət, iki rükət fərz etmişdi. Sonra isə səfər namazı qısa olaraq qaldı, qeyri-səfər namazının rükətlərində isə say artırıldı". (Səhihi Müslim. 685) Buxaridəki hədisdə isə qeyri səfərdə iki rükət artırıldığı, məğribin isə üç rükət qaldığı qeyd olunur. (Bax: Səhih əl-Buxari. 3935).

Ümumiyyətlə, quranilərin dünyada mövcud olan firqələri namazın rükət sayları və qılınış forması barədə ən azı beş rəy irəli sürərək ixtilaf etmişlər[134].

**İkinci misal:** Yaxud da Səhihi-Müslimdə Əbu Hüreyrədən (Allah ondan razı olsun) rəvayət edilən ***"Odda bişirilmiş yeməkləri yedikdən sonra dəstəmaz alın"***[135] əmrini verən hədisin peyğəmbərin ﷺ son qərarı ilə ləğv edilməsini misal gətirirlər.

Birinci hədis Cabirin hədisi[136] ilə nəsx edilmişdir. Bəzi alimlər isə bu hədisləri cəm edərək odda bişirilmiş qidalardan yedikdən sonra dəsnamaz almağın vacib deyil, bəyənilən olmasını qeyd etmişlər.

Doğru olan bu iki mənadır. Lakin, bəzilərinin görüşünə görə burada qəsd olunan «dəstəmaz» mənasında işlədilən "vudu" sözündə lüğəvi mənanın qəsd edilməsini, yəni,

---

[134] Quraniyyun və Şubuhətuhum həvləs-Sunnə. Xadim Hüseyn İlahi Bəxş. səh. 366. Məktəbətus-Siddiq.

[135] Səhihul-Cami. Albani. 3007. Aişə və Əbu Hüreyrənin rəvayətləri. Həmçinin, Nəvəvinin Səhihi Müslimə şərhi, Heyz Kitabı, od toxunan şeylər üçün dəstəmaz almaq babı. Əbu Hüreyrənin rəvayəti. no: 351.

[136] Cabir ibn Abdullahın (Allah ondan razı olsun) hədisi belədir: "Peyğəmbərin ﷺ iki halından axırıncısı odda bişən şeylərə (onları yedikdən sonra) görə dəstəmaz almağı tərk etmək idi". Bu ləfz Səhih İbn Hibbandakı ləfzdir. no: 1134.

ağızınızı və əllərinizi yuyun - mənasının çox uzaq məna olmasını alimlər bəyan etmişlər.

Səhabələrdən bəziləri də ilk öncə bu hədislərə əməl edirdilər. Çünki, onlardan bəziləri sonradan bu hökmün aradan qalxmasını bilmirdilər.

İmam Nəvəvi (Allah ona rəhmət etsin) də bu barədə demişdir: *"İslamın ilk dönəmində qeyd etdiyimiz (odda bişirilmiş şeyləri yedikdən sonra dəstəmaz almaq) ixtilaf var idi. Sonra alimlər icma etdilər ki, odda bişirilmiş şeyləri yedikdən sonra dəstəmaz almaq vacib deyil"*[137].

**Üçüncü misal:** Əli İbn Əbu Talibdən (Allah ondan razı olsun) rəvayət olunan ***"Xeybər günü siğə nigahının və əhilləşdirilmiş uzunqulaq ətinin qadağan edilməsi"***[138] barədə olan hədis.

Bundan əvvəl isə bu şeylər icazəli idi. Bu barədə olan hədislər icazə və qadağan arasında olduğu üçün son hökm əsas götürüldükdə icazənin nəsx (hökmün silinməsi) edilməsi aydın olur.

Peyğəmbərin ﷺ son halı bu şeylərin qadağası üzərində olmuşdur. Ona görə də biz bu məsələnin uzun təfsilatına getmədən məsələnin nəsx tərəfini qeyd etməklə kifayətlənirik.

---

[137] Şərhu Müslim. Nəvəvi. 4/266.

[138] Səhih əl-Buxari. 4216; Səhihi Müslim. 1407.

Hədislərin hədisləri nəsx etməsi, hökmdən salmasına çox misallar çəkmək olar.

Onlar hədislərin birinin digərini nəsx edib qüvvədən salması barədə, xüsusən də ilk hökmlə son hökmü bilməmələri ucbatından həmin hədisləri bir-birinə zidd hesab etmişlər.

Gəlin, bura kimi dediklərimizi ixtisar edək:

*Quranilərin "hədislər Qurana ziddir" demələri əsasən bu məsələlər üzərində dövr edir: Qəsdlərinin müxtəlif olması, mənasını dərhal anlamaya bilmədikləri hədisləri öz ağıllarına görə yozması, nəsix (hökmdən salan) və mənsux (hökmdən salınmış) məsələsi.*

Buna əlavə olaraq isə quranilərin İslam alimlərinin zahiri ilk andan ziddiyyətli görünən hədisləri cəm etmək və tərcih (üstün çıxartma) üslubunu bilməmələrini əlavə etmək olar.

**Dördüncü misal: Sünnənin (hədislərin) Quranla əlaqəsi üç növdür:**

**1) Hədislər Quranda gələni təsdiq edir.**

Qurandakı bəzi günah əməllərin haram olmasının təsdiqi kimi; içki, sələm, qumar, zina kimi əməllər.

Quranda qeyd olunmuş gözəl və pis əxlaqların təsdiqi kimi; gözəl söz söyləmək, təvazökarlıq etmək, valideynə, qonum-qonşuya yaxşılıq, sədəqə vermək, pis söz

söyləməkdən uzaq durmaq, sözbazlıqdan, qeybətdən, lağlağıdan, təkəbbürlükdən və s. uzaq durmaq kimi onlarla əməlləri buna misal çəkmək olar.

Hədislərin Qurandakı namaz, oruc, zəkat, həcc və digər əməllərin ümumi təsdiqləyicisi olması misalı. Bununla yanaşı hədislər bu əməllərin təfsilatını da verir[139].

**2) Hədislər Quranda gələni təfsir edir, açıqlayır, ümumi gəlmiş hökmü xüsusiləşdirir və s.**

**Məsələn:** Qurani-Kərimdə: "**Səndən heyz barəsində soruşurlar. De: "Bu, əziyyətverici bir haldır. Heyz vaxtı qadınlardan uzaq olun və pak olmayınca onlara yaxınlaşmayın"** (əl-Bəqərə, 222).

Yəhudilər qadınlara heyz vaxtı yaxınlaşmırdılar, bəziləri qadınları otaqdan belə çıxarır, ümumiyyətlə yaxın durmurdular, bir yerdə yemək yemir və s. bu cür tərk edirdilər.

Peyğəmbərdən ﷺ bu barədə soruşulduqda cinsi əlaqədən başqa bütün yaxınlıqlara icazə verərək bu ayənin

---

[139] Məsələn: Qurandakı "namaz qılın" əmrini, çoxsaylı hədislərdə keçən namazın neçə rükət olması, vaxtları, qılınış forması, sözləri və s. təsdiqləmiş, üstəlik təfsilatını da verir. Orucda, zəkat, həcdə və digər əməllərdə də vəziyyət budur.

mənasını müsəlmanlara öz sözü, hədisi vasitəsilə izah etmiş oldu[140].

Beləcə, ayədəki "yaxınlaşmamaq" sözü ümmətə aydın oldu və ümmət qadınları heyz vaxtı yəhudilər kimi tərk etmədi.

Həmçinin Quranda qənimət barədə ümumi danışılsa da, xüsusi məna ifadə edərək (döyüş meydanında) öldürülən düşməndən ələ keçilirən qənimətin düşməni öldürən şəxsin özünə aid olmasının bəyanını hədislərin bu xüsusi izahına aid etmək olar.

Miras haqqında Quranda qaranlıq qalan, qeyd olunmayan qohumların mirasdan payları və ya mirasa aid toxunulmayan məsələlərin hədislərdə ətraflı izahı və s. mövzuların hədislərdə əhatəli şəkildə qeyd olunması da hədislərin Quranın ümumi hökmlərini xüsusi izah edərək xüsusi təfsilat verməsinə aid etmək olar.

**3) Hədislər Quranda gəlməyən bir şeyi (hökmü və ya xəbəri) bəyan və ya təfsir edir.**

Siğənin və uzunqulaq ətinin haram olması kimi.

Homoseksualların şəriətdəki cəzası kimi.

Qızıl və ipəyin kişilərə bu dünyada haram olması kimi.

---

[140] Nəvəvinin Səhihi Müslimə şərhi. Heyz kitabı. Heyzli qadının öz yoldaşının saçını yuması və daramasının icazəli olması fəsli. 2/846. no: 680.

Qadınların özlərini kişilərə, kişilərin də qadınlara bənzətməsinin böyük günahlardan olmasının bəyanı və s. onlarla əmr və qadağalar.

Qadının əmisinin və dayısının onun məhrəmlərindən olması kimi. (Məhrəmlərin bəyan edildiyi ayədə bu məsələ yoxdur)

Süd qohumluğu ilə məhrəm olan hər kəsin nəsəblə də məhrəm olması.

Malı girov qoymağın icazəli olması.

Babanın mirasının hökmü.

Heyzli qadına oruc və namazın qadağan olması.

Ramazanın səhəri yoldaşıyla yaxınlıq edənə kəffarənin vacib olması və s.

Böyük İslam alimi İbn Qeyyim (Allah ona rəhm etsin) bu üç növü təfsilatı ilə zikr edəndən, Qurandan ziyadə hədislərdə qəsd olunan mənaları misallarla qeyd etməzdən əvvəl demişdir: *"Və bu üç qismdən heç birini rədd etmək caiz deyildir"*.[141]

Onu da qeyd edək ki, bəzi əməllərin Quranda pisləndiyi yer alsa da, onlara verilməsi gərəkən şəri cəza hədislərdə gəlmişdir. Məsələn; homoseksualların şəriətdəki cəzası Quranda deyil, hədislərdə gəlmişdir.

Ona görə də Quran hədislərlə, hədislər də Quranla tamamlanır. Bu iki mənbə İslamın əsas iki mənbəsidir.

---

[141] İləmul-Muvəqqiin. İbn Qeyyim. 2/323.

Ona görə də Muhəmməd Peyğəmbər ﷺ buyurmuşdur: ***"Mənə Quran və onun misli (hədislər) verilmişdir"[142].***

Həmçinin Hakimin Əbu Hureyrədən (Allah ondan razı olsun) gələn rəvayətində Peyğəmbər ﷺ belə buyurmuşdur: ***"Sizə iki şeyi tərk edirəm ki, bunlardan sonra yolunuzu azmazsınız: Allahın kitabı və Peyğəmbərin sünnəsi"***[143].

Bütün bu izahlardan ağılı başında olan hər bir müsəlman onu dərk edir ki, sünnə Quranın izahıdır. Sünnəni inkar etmək İslamın iki böyük mənbəsindən birini inkar etmək və küfrdür.

Nəticədə sünnə Qurana müxalif deyildir, əksinə, onun bəyanı və izahıdır.

---

[142] Hədisi Əbu Davud, Tirmizi, ibn Macəh və Darimi rəvayət etmişlər.

[143] əl-Mustədrək, əl-Elm, 1/93; Bu rəvayətdən öncə isə mönbədə səhabə İbn Abbasın (Allah ondan razı olsun) bu hədisə şahidliyi var; Həmçinin, İbn Abdil-Bərr də bunu rəvayət etmişdir.

## ON ÜÇÜNCÜ ŞÜBHƏ:
## Ömər ibnil-Xəttab'ın
## "Bizə Allahın kitabı yetər!" sözü.

**Şübhə belədir:** Ömər ibnul-Xəttab (Allah ondan razı olsun) Peyğəmbərin ﷺ vəfatına yaxın «Bizə Allahın kitabı yetər» demişdir, bunu necə anlayaq?

**Bu şübhənin cavabı:** Bu cümləni Ömər (Allah ondan razı olsun) nə zaman demişdi deyə sual verilsə, deyəcəyik ki, peyğəmbərin ﷺ çətin vəziyyətində, xəstə yatağında hansısa yazı yazıb əziyyətə düşməməsi üçün demişdi.

Ömər (Allah ondan razı olsun) peyğəmbərin ﷺ halından narahat idi. Əslində məsələ sadədir. Ömər (Allah ondan razı olsun) həmin vəziyyətdə yazı yazılmasını doğru hesab etmirdi.

Ərəblər yazıya "kitəbə" deyirlər. Yəni peyğəmbərin ﷺ bu ağır vəziyyətində belə bir yazıya lüzum yoxdur. O, bununla ümumən hədisləri yazmağı yox, həmin andakı yazını qəsd edirdi.

Bunun sübutu da Ömərin (Allahın ondan razı olsun) həyatı boyunca sünnəyə sadiqlik etməsi, özünün də peyğəmbərdən ﷺ eşitdiyi nə qədər hədisləri rəvayət etməsidir. Əslində, o çətin vəziyyətdə deyilən bu cümlə "bizə

indi hansısa bir yazı yazmaq lazım deyil, Quranda yazılanlar doğru yolu göstərir" mənasına gəlir, söhbət doğru yoldan gedir.

Çünki hamı bilir ki Quran hidayət kitabıdır, şəriətin bütün təfsilatının olduğu kitab deyil. Hədislərdə isə bu təfsilat vardır. Eyni zamanda Quran və Sünnə (hədislər) bir-birini tamamlayır, hədislər də Quranı izah edir. Bu cümlə heç də "bizə Quran bəsdir, hədis lazım deyil" anlamında deyil, "Bizə doğru yol göstərən Quran bəs edir.

İndi isə hansısa yazıya ehtiyac yoxdur" kimi anlaşılmalıdır. Ömərin bu cümləsini ən çox şiələr əhli sünnəyə qarşı bir şübhə istifadə etsələr də, hətta onlar belə bu cümləni hədis inkarçılığı ilə əlaqələndirməyiblər.

Görünən odur ki, səhabələrin bəzi sözlərini hər tayfa öz marağına, mənafeyinə görə yozmağa səy göstərmişdir.

Həmçinin səhabələr peyğəmbərin ﷺ bu xəstəlikdən öləcəyindən əmin deyildilər. Çünki bu hadisədən sonra peyğəmbər ﷺ dörd gün yaşadı. Əgər o istəsəydi, yenə yazmaq istədiyini yazardı. Haqqı bəyan etməmək peyğəmbərə ﷺ yaraşmaz – alimlər bu fikri qəti şəkildə demişlər.

Peyğəmbərin ﷺ sağ olduğu növbəti günlərdə bu yazını yazmaması, bu yazının elə də şişirdilən qədər mühüm olmaması və onun ﷺ Ömərlə (Allah ondan razı olsun) razılaşıb onu təsdiqləməsi anlamına gəlir.

Çünki, peyğəmbər ﷺ haqqı gizlədə bilməzdi, nə də bunu etmək ona yaraşmazdı. Bu kiçik girişdən sonra gəlin bu şübhənin cavabını bir neçə aspektdən bəyan edək:

**Birincisi:** Bəzi rəvayətlərdə Ömərin (Allah ondan razı olsun) "Allahın kitabı bizə bəsdir" deməsi peyğəmbəri qəsd etməklə olmamışdır, bu xitab onun "yazıya gərək yoxdur" rəyini dedikdə etiraz edənlərə xitabən dediyi söz idi.

O cümlədən də, peyğəmbərin ﷺ sağlığında onun əmrinə əsasən hədislər Quranla qarışmasın deyə yazılmırdı.

İmam Nəvəvi demişdir: *“Ömərin ”bizə Allahın kitabı bəsdir” deməsi peyğəmbərin ﷺ əmrinə qarşı deyil, onunla mübahisə edən kimsəyə dediyi söz idi”*[144].

**İkincisi:** Həmçinin məlumdur ki, o, həyatı boyu peyğəmbərin ﷺ sünnəsini yaymış və peyğəmbərdən 539 hədis rəvayət etmişdir[145].

Belə olduğu halda onun hədisləri qəbul etməməsi absurd fikirdir.

O, peyğəmbərin ﷺ sünnəsinə o qədər həris biri idi ki, hətta peyğəmbərin ﷺ təravih namazını insanlar ixtilaf etdiyi üçün dayandırmasına baxmayaraq, o, yenidən təravih

---

[144] Şərhu Səhihi Muslim. Nəvəvi. 11/93.

[145] Bax: İbn Muləqqin, "əl-İləm bi-Fəvaidi Umdətil-Əhkəm" kitabı.

namazını, peyğəmbərin ﷺ bu sünnəsini əhya etmiş (diriltmiş) oldu[146].

Hətta o, sünnəyə (hədislərə) əməl etməyə o qədər həris idi ki, peyğəmbərin ﷺ vəfatından sonra ona bir fiqhi məsələyə aid eşitmədiyi hədisi deyirlər və o dərhal həmin hədisə əməl edərək öz etdiyi əməli tərk edir.

Yəni, öz bildiyini deyil, səhabənin "Peyğəmbər ﷺ mənə belə-belə yazdı" - deməsiylə dərhal öz rəyindən dönür. Ömər ibnil-Xəttab (Allah ondan razı olsun) hesab edirdi ki, qanpulu yalnız kişinin öz qan qohumlarına aiddir, həyat yoldaşına aid deyil. Lakin Dahhak İbn Süfyan[147] (Allah ondan razı olsun) ona: Peyğəmbər ﷺ mənə yazdı ki, "Əşim əd-Dabəbinin diyətinin[148] mirasından onun həyat yoldaşına

[146] Çünki peyğəmbərin ﷺ təravih namazını dayandırmasının xüsusi səbəbi varıydı və o bu namazın ümmətə vacib olmasından ehtiyatlanırdı. O həqiqətən də ümmətinə çox şəfqətli idi. Peyğəmbər ﷺ vəfat etdikdən sonra isə təravih namazının vacib olmasından ehtiyatlanmağa bir gərək qalmadığı üçün, təməli peyğəmbər ﷺ tərəfindən qoyulmuş bir əməli səhabə Ömər (Allah ondan razı olsun) bir xəlifə olaraq sadəcə yenidən bərpa etmiş oldu.

[147] Dahhak İbn Süfyan əl-Kiləbi: Adı Əbu Səid Dahhak ibn Süfyan ibn Ovf ibn Kəb ibn Əbi Bəkr ibn Kiləb ibn Rabia ibn Amir ibn Sasa əl-Kiləbi əl-Amiridir. O, Həvazin qəbiləsindən idi. Peyğəmbər onu öz qövmündən İslamı qəbul edənlərə vali təyin etmişdi. Hicrətin 11-ci ilində vəfat etmişdir.

[148] Əşim əd-Dabəbi xəta ilə öldürülmüşdü və bu rəvayətdəki mövzu onun qanbahası haqqındadır.

pay verməliyəm" dedikdə Ömər (Allah ondan razı olsun) öz rəyindən döndü[149].

Bu rəvayətdən də görünür ki, Ömər (Allah ondan razı olsun) peyğəmbərdən ﷺ eşitmədiyi bir hədisi eşitdikdə dərhal öz rəyindən dönürdü.

Səhabə Əbu Zərin (Allah ondan razı olsun) belə dediyi rəvayət olunur: ***"Mən peyğəmbərin ﷺ belə dediyini eşitdim: Allah – azzə və cəllə – haqqı Ömərin dilində etmişdir, o da haqqı deyər"***[150].

Həmçinin, Ömər İbn əl-Xəttabın (Allah ondan razı olsun) belə dediyi rəvayət olunur: ***"Sizin yanınıza (bəzi) qövmlər gələcək, onlar sizinlə Quran barədə şübhələr gətirib mübahisə edəcəklər. Onlara sünnələr ilə cavab verin. Çünki sünnə əhli Allahın kitabını daha yaxşı bilir"***[151].

Ömər ibnul-Xəttabın (Allah ondan razı olsun) peyğəmbərin ﷺ sünnəsinə olan qayğısı, sünnəni yayması, tətbiq etməsi barədə rəvayətlər olduqca çoxdur.

Onun həyatı bütünlüklə buna dəlalət edir. Belə olduqda, bu şübhədə gətirilən rəvayətdən çıxarılan mənaların batil olduğunu görmək olar.

Həmçinin, Ömər İbn əl-Xəttabın (Allah ondan razı olsun) peyğəmbərin ﷺ vəfatından sonra onun hədislərini, xüsusən də eşitmədiyi hədisləri başqa səhabələrdən öyrənməsi və

---

[149]Səhih Əbi Davud. Albani. 2927. Səid ibnil-Museyyibin rəvayəti.

[150] Səhih əl-Cami. Albani. 1834.

[151] Zəmmul-Kəlam və Əhlih, Abdullah əl-Ənsari, no: 171.

buna əməl etməsi də Ömərin (Allah ondan razı olsun) sözünün onun qəsd etmədiyi yanlış mənalara yozulduğunun sübutlarından biridir.

**Üçüncüsü:** Ehtimal olunur ki, Ömərin (Allah ondan razı olsun) bu sözü deməsi səhabələrin öyrəşdiyi ilkin əmr ilə bağlıdır. Onlardan bəziləri soradan hədis yazmağın icazəli olmasını bilir, bəziləri isə yəqinliklə bilmirdilər.

Çünki, Peyğəmbərin ﷺ müəyyən məqamlarda hədis yazmağa icazə verməsinə bütün səhabələr şahidi olmamışdılar.

İlkin əmr isə Quranın hədislərlə qarışmasının qarşısını almaq məqsədilə hədislərin yazılmasının bir müddət dayandırılması idi.

Bu hadisədə peyğəmbərin ﷺ Qurandan başqa bir şey yazmaq istəməsini hədislərin yazılmasına növbəti dəfə icazə verməsi kimi də hesab etmək olar.

Biz Ömərin (Allah ondan razı olsun) sözünü yalnış anlayıb hədisləri inkar edənlərə sual verərək deyirik ki, bəs siz nə üçün peyğəmbərin ﷺ özünün son anında Qurandan başqa bir yazı olan hədisi yazmaq istəməsini hədis yazmaq qadağasının aradan qalxdığına dəlil kimi götürmək istəmirsiniz?!

Baxmayaraq ki, bundan öncə də peyğəmbərin ﷺ hədis yazmağa icazə verməsinə dəlillər vardır[152].

**Dördüncüsü:** Ömərin (Allah ondan razı olsun) fikri hədislərə qarşı deyil, sırf həmin məqamda yazılacaq yazıya qarşı idi. Bunu təsdiqləyən amillər:

a) Ömərin özünün Peyğəmbərin ﷺ hədislərini yayması amili; Buna dəlillər çoxdur, gəlin birini qeyd edək:

İpəyin haram olması barədə hədis Ömər ibnul-Xəttabdan (Allah ondan razı olsun) rəvayət olunur. O, valilərindən biri

---

152 Hədislərdən bəzilərini xatırladaq: *Peyğəmbər ﷺ dedi: "Əbu Şah üçün yazın". (Buxari. Kitəbul-Elm. 6880). *Həmçinin, peyğəmbər ﷺ buyurmuşdur: "Qoy burada sizdən iştirak edən gəlməyənlərə (bu xütbəm, vida xütbəsi) barədə xəbər çatdırsın. Ola bilsin ki, (sonradan eşidən) xəbər verilən şəxs (söhbətdə) iştirak edən kəsdən daha yaxşı əməl edər". (Səhih əl-Buxari. 6667). *Həmçinin, peyğəmbər ﷺ buyurmuşdur: "Allah o kişinin üzünü ağ etsin ki, bizdən bir hədis eşidər, onu anlayar, əzbərləyər və onu eşitdiyi kimi çatdırar". (İbn Məsudun hədisi; Əhməd, 4157; Tirmizi, 2657; İbn Macəh, 232). Çatdırmaq isə həm şifahi ola bilər, həm də yazı ilə. *Həmçinin, sabit olmuşdur ki, peyğəmbər ﷺ dövründə yaşayan dövlət başçılarına və Ərəbistan yarımadasında olan liderlərə məktublar yazıb göndərmiş, onları İslama dəvət etmişdir. (Bax, Tabaqat İbn Səd, 2/22-56). Bu məktublar da hədis hesab olunur və hədis elmi vasitəsilə bizlərə nəql edilmişdir. Həmçinin, peyğəmbər ﷺ bəzi işçilərinə qoyun və dəvədən zəkatın hansı miqdarda çıxarmaq gərəkdiyini yazdırmışdı. (İbn Abdil-Bərr, Cəmiu Bəyən əl-İlm).

olan İbn Fərqada bu barədə məktub yazmış və peyğəmbərin ﷺ ipəyi qadağan etməsini bildirmişdir.

Hədisin Buxari və Müslimdəki ləfzində: "Ömər ibnil-Xəttab (Allah ondan razı olsun) dedi ki, peyğəmbər ﷺ belə deyib: *"İpək geyinməyin, çünki hər kim onu bu dünyada geyinərsə, axirətdə (cənnətdə) geyinməz"*[153] - deyə gəlir.

Bu barədə hədislər çoxdur. Yuxarıda Ömərin (Allah ondan razı olsun) peyğəmbərdən ﷺ 539 hədis rəvayət etməsini də qeyd etmişdik. Yüzlərlə hədisləri burada qeyd etməyə ehtiyac görmürük

b) Ömərin (Allah ondan razı olsun) sonradan bilmədiyi hədisləri belə tapıb öyrənməsi, özünün də o hədislərə əməl etməsi amili; Ömər (Allah ondan razı olsun) insanlara hədis rəvayətini qadağan etmirdi. Sadəcə onlara rəvayətləri dəqiqləşdirməyi tələb edirdi.

Bununla da o, rəvayətlərə daha çox yəqin olurdu. İnsanlara isə Peyğəmbərdən ﷺ eşitdiklərini danışmağı qadağan etmirdi.

Onun Əbu Musa əl-Əşaridən (Allah ondan razı olsun) eşitdiyi hədisi dəqiqləşdirməsi də bu qəbildən idi.

Əbu Musa əl-Əşari qapı arxasından "icazə almaq" barədə hədisi danışdıqda Ömər (Allah ondan razı olsun) onun bu rəvayəti eşitdiyinə dair şahid tələb edir, sonra isə digər səhabə Ubey İbn Kəb (Allah ondan razı olsun) gəlib şahidlik

[153] Səhih əl-Buxari, 7/150. Libas kitabı; Bu hədisi Müslim də Səhihində Suveyd ibn Ğaflədən rəvayət etmişdir. bax: 2069.

edir, Ömər (Allah ondan razı olsun) isə deyir: *"Mənə bu hədis çatmamışdı, çünki, mənim (həmin vaxtlar) bazarda ticarət etməyim bu hədisi eşitməyimə mane olmuşdu"*[154].

Yəni o dövrdəki bir çox müsəlmanların peşəsinin ticarət olduğu kimi Ömər (Allah ondan razı olsun) də bir müddət ticarətlə məşğul olmuşdu.

Bu rəvayətdə o, demək istəyir ki, ticarətlə məşğul olmaq onun Peyğəmbərdən ﷺ daha çox hədis eşitməsinə mane olmuşdu, bu Əbu Musə əl-Əşaridən eşitdiyi hədis də bu qəbildən eşitmədiyi hədislərdən idi, lakin dəqiqləşdirdikdən sonra o hədisi də qəbul edir.

Bu hədisdəki faydalardan biri də Ömərin (Allah ondan razı olsun) eşitmədiyi bir hədisə görə təəssüf hissi keçirməsidir.

Görün, indi o, eşitmədiyi çoxlu hədislərə görə necə təəssüflənirdi?

Bu hal isə normal idi. Çünki bütün səhabələrin gecə-gündüz peyğəmbərin ﷺ yanında olub hədisləri daim eşitmək imkanları yox idi. Onlardan bəziləri müxtəlif peşələrdə işləyir və ailələrini dolandırmalı idilər. Ona görə də peyğəmbərdən ﷺ onun zövcələri (Allah onlardan razı olsun) daha çox hədis rəvayət etmişdilər.

[154] Səhih Müslim. Ədəb kitabı. İcazə fəsli. 3/1696. no: 2153.

Çünki, çox vaxt peyğəmbəri ﷺ görmək və eşitmək imkanları olurdu.

Xülasə, peyğəmbərin ﷺ xəlifələri (Allah onlardan razı olsun) onun sünnətini öyrənməyə və yaymağa həris idilər. Bunda heç bir şəkk ola bilməz. Biz bu barədə rəvayətləri çoxalda da bilərdik, sadəcə uzunçuluq olmasın deyə bu qədəri ilə kifayətlənirik.

Nəticə olaraq aydın olur ki, xəlifə Ömər ibnl-Xəttab (Allah ondan razı olsun) daim Quran və sünnənin xidmətində olmuş, insanları daim bu iki mənbədəki xeyirlərə yönəltmişdir.

Səhabələrin sözlərindən onların qəsd etmədikləri batil mənaları çıxarmaq haramdır.

# SON SÖZ

Son olaraq bəzi nəticələr və araşdırmalar ilə əlaqəli tövsiyələr etmək istərdim. Ümumiyyətlə, sünnənin müdafiəsi günümüzdə çox mühüm məsələlərdən biridir.

Çünki, hava əhli, dini öz nəfsinin istəyinə uyğunlaşdırmaq istəyən, şəriəti Allah və elçisinin ﷺ deyil, öz naqis ağlına görə yozan tayfaların, firqələrin hədəfi ilk öncə sünnə ilə mübarizə olur.

Allahın və elçisinin ﷺ əmri nəfsinə ağır gələn, hər itaəti özünə ağır bir qaya qaldırmaqdan da betər çətin hesab edən azmış firqələr ya şəriəti öz maraqlarına uyğun yozur, ya da əvvəlcə nəyəsə etiqad edir, sonra isə o batil əqidəyə dəlil axtarırlar.

Əhli Sünnə isə bütün etiqadını dəlillər üzərində (Quran, Sünnə və sələfin dini anladığı anlayış üzərində) qurur.

Əhli Sünnənin yolu Allaha və elçisinə ﷺ şəksiz tabeçilikdir.

Əhli Sünnə peyğəmbəri ﷺ Quranın izah edəni kimi qəbul edir. Bu izahı özündə ehtiva edən peyğəmbər ﷺ sünnəsi ya Quranı təfsilatı ilə izah və bəyan edir, ya Quranda gələn bir xəbəri və ya hökmü təsdiqləyir, ya da Quranda gəlməyən bir xəbəri və ya hökmü müsəlmanlara bildirir.

Bununla da sünnə şəriətin tamamlayıcısı və bəyanı rolunu oynayır.

Sünnənin belə bir mühüm bir funksiyası var ikən onu öyrənib əməl etmək yerinə, görəsən, insanları sünnədən uzaqlaşdıranlar Allahdan qorxmurlarmı?

Məgər Allah bizə Quranda peyğəmbərin hökmünə boyun əyməyi əmr edir və ona qarşı çıxmaqdan çəkindirmirmi?

Uca Allah Quranda buyurmuşdur: **“Hər kəs doğru yol ona bəlli olduqdan sonra Peyğəmbərə qarşı çıxsa və möminlərin yolundan başqa bir yolla getsə, onu üz tutduğu yola yönəldər və Cəhənnəmdə yandırarıq. Ora nə pis dönüş yeridir”.** (ən-Nisa, 115).

Quranilər də çox vaxt özlərinə doğru yol bəlli olduqdan sonra peyğəmbərin ﷺ sünnəsinə qarşı çıxanlardır.

Onlar gərək bu ayə barədə düşünsünlər və ayədə deyildiyi kimi möminlərin yolundan başqa bir yolla getdiklərini dərk etsinlər.

Çünki, onlar möminlərin zirvəsi sayılan İslam alimlərinin əsrlər boyu getdiyi yolu tərk etmiş, yeni və asan bir yol tapdıqlarını zənn etmiş, müsəlmanlarının ümumunun, cumhurunun daim qəbul etdiyi bir mənbəni inkar etməklə indiyə kimi gəlib getmiş milyardlarla müsəlmanı azğınlıqda ittiham etmişlər.

Sanki, bu qədər milyardlar içindən bu barmaqla sayılacaq qədər olan azmış tayfanın üzvləri haqq mənbəni düzgün anlamışlar.

Uca Allah həmçinin belə buyurmuşdur: "**Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar**". (ən-Nisa, 65).

İndi isə həm gələcəkdə bu kitaba əlavə etmək istədiyimiz mövzuları, həm də bu kitabdan faydalanıb digər mövzu ilə əlaqəli digər şübhələri öyrənmək istəyənlərin (xüsusən də bu sahədə araşdırma edənlərin) amalını asanlaşdıracaq bəzi şübhələri yeni araşdırmaların mövzusu kimi tövsiyə edirik. Əslində bu şübhələrin hamısı elm əhli tərəfindən cavbalandırılmışdır.

**Həmin şübhələrdən:**

1) Yalnız Allahın Quranda haram etdiyini (hədislərdəki haramları deyil) haram qəbul etmək və yalnız Qurandakı halalı halal hesab etmək.

2) Əhəd (tək səhabə yoluyla rəvayət edilən) hədisləri inkar etmək.

3) Buxari, Müslim və başqa hədis ravilərinə qarşı əsassız ittihamlar irəli sürmək.

4) Səhabələrdən çox hədis rəvayət edənlərə (Əbu Hureyrə, Aişə və s.) - Allah onlardan razı olsun - qarşı müxtəlif ittihamlar irəli sürmək.

5) Bəzi mötəbər hədis alimlərini guya əməvilərin və ya abbasilərin maraqlarına uyğun hədis uydurmaqda ittiham etmək.

6) Sünnənin ümməti ixtilafa apardığını iddia etmək[155].

7) Sünnə ilə hökm verməyin hökmdə şərikliyə aparması iddiası.

8) Hədisin Quran ayəsini nəsx edə bilməməsi iddiası.

9) Quranilərin (hədis inkarçılarının) özlərini firqələrə bölünənlərdən olmadıqlarını iddia etmələri.

10) Cahiliyyə dönəmində rəcm cəzasının olması iddiası.

11) Əməvilər dövləti hədis uydurmasına rəvac veribmi?

Bunun üzərinə də Quranilərin etiqadlarından, şəriət məsələlərindəki (namaz, oruc, zəkat, miras və s. məsələlərdəki) təhriflərindən və Quranı yanlış təfsir etmələrindən müxtəlif nümunələr də əlavə etmək olar.

*Sonda Allahın salavatı və salamı Muhəmmədə,*
*onun ailəsinə və səhabələrinin üzərinə olsun!*

[155] Çox maraqlıdır ki, onlar "sünnənin ümməti ixtilafa apardığını" deyirlər, lakin özləri tək Quranı mənbə olaraq götürsələr də təkcə namazın vaxtı və rükətləri barədə beşdən çox fikir üzərində ixtilaf etmişlər.

# İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR:


1. Quranın Azərbaycan dilinə tərcüməsi. Ə. Musayev.
2. Səhih əl-Buxari, Muhəmməd ibn İsmail əl-Buxari.
3. Səhih əl-Muslim, Müslim ibnil-Həccəc əl-Quraşi.
4. Sünəni Əbi Davud, Süleyman ibnil-Əş’as əl-Əzdi.
5. Sünən ibn Macəh, Muhəmməd İbn Yəzid ibn Macəh.
6. Sünən ət-Tirmizi, Muhəmməd ibn İsa ət-Tirmizi.
7. Sünən əd-Dərimi, Abdullah ibn Abdur-Rahmən.
8. Sünən əd-Darəqutni, Əbul-Həsən Əli ibn Ömər.
9. Musnədi Əhməd, İmam Əhməd ibn Hənbəl.
10. əl-Mərifə, Əhməd ibnil-Huseyn əl-Beyhəqi.
11. əl-Mustədrək, Əbu Abdullah əl-Hakim ən-Nisaburi.
12. Fəthul-Bari Şərhi Sahihil-Buxari. İbn Həcər.
13. Riyadus-Salihin, Yəhya İbn Şərəfud-Din ən-Nəvəvi.
14. Mərifətu Ənvai Ulumul-Hədis, ibn Salah.
15. Şərhi Sahihil-Muslim, Yəhya ən-Nəvəvi.
16. Şərhi Divanul-Həməsə, Əhməd əl-Mərzuqi.
17. Cəmiu Bəyənil-İlmi va Fadlihi, ibn abdil-Bərr.
18. Sahih əl-Cami, Muhəmməd Nasiruddin əl-Albani.
19. Mustalah əl-Hədis, Muhəmməd Saleh əl-Useymin.
20. Təqyidul-İlm, Əbu Bəkr Əhməd Xətib əl-Bağdadi.
21. Tabaqatul-Kubra, Muhəmməd İbn Səd əl-Haşimi.
22. əl-Muvafaqat, İbrahim ibn Musa əş-Şatibi.
23. Haşiyətu İbn Abidin, Muhəmməd Əmin əd-Diməşqi.

24. Xizənətul-Ədəb, Əbu Bəkr Əhməd Xətib əl-Bağdadi.
25. Difəan anis-Sunnə, Abdul-Ğani Abdul-Xaliq.
26. Cəmiul-Bəyən, İbn Cərir Ət-Təbəri. Ə. Şakir.
27. Təfsirul-Quranil-Azim, İsmail ibn Ömər İbn Kəsir.
28. Təfsirul-Quranil-Kərim, İbnul-Qeyyim əl-Covziyyə.
29. Teysirul-Kərimur-Rahmən, Abdur-Rahmən əs-Sədi.
30. Təfsirul-Muyəssər. Nuxbətun minəl-Uləmə.
31. Ədvaul-Bəyən, Muhəmməd Əmin əş-Şinqiti.
32. əs-Sunnətu və Məkənətuhə fit-Təşrii əl-İsləmi, dr. Mustafa əs-Sibəi.
33. əl-Quraniyyun, nəşə'uhum, aqaiduhum, ədillətuhum, Ali Muhəmməd Zeynu.
34. Kitəb ər-Ruh, İbn Qeyyim.
35. əl-Hədis Huccətun binəfsihi fil-Aqaidi vəl-Əhkam, Nasiruddin Albani.
36. Məkənətu Sunnətin-Nəbəviyyə. Umar əl-Huseyni.
37. əl-Hədisud-Daif va Hukmul-İhticəc bihi. Dr. Abdulkərim əl-Xudeyr.
38. Quraniyyun va Şubuhətuhum həvləs-Sunnə. Yusuf Abdur-Rahman.
39. Zəmmul-Kəlam və Əhlih, Əl-Həravi, Abdullah əl-Ənsarinin təhqiqi ilə.
40. Hucciyyətul-Hədis ən-Nəbəvi. Muhəmməd İsmail əs-Sələfi.
41. əs-Sunnətu Hucciyyətuhə va Məkənətuhə fil-İsləm var-Raddu alə Munkiriyhə, Muhəmməd Loğman.
42. Naqd Usul əl-Aqlaniyyin, Süleyman əl-Xuraşi.

43. Əl-İtibar fin-Nəsixi vəl-Mənsuxi minəl-Əəsər, Əbu Bəkr əl-Həmədani.
44. Movsuatul-Aqidə vəl-Ədyən vəl-Firaq vəl-Məzəhib əl-Muasırah. Dr. Suud Əli Suud.
45. Movsuatu Məhəsinil-İsləm var-Raddu alə Şübuhətil-Liəm. Əhməd Eyyub.
46. əl-İtticəhət əl-Aqləniyyə əl-Hədisə. Nasir Abdul-Kərim əl-Aql.
47. Dirasəət fil-hədis ən-Nəbəvi va tarixi tədvinuhu, Muhəmməd Mustafa əl-Əazami.
48. Dələilin-Nubuvvət. Əbu Bəkr əl-Beyhəqi.
49. Savaiq əl-Mursələ. İbnul-Qeyyim.
50. Məcmuul-Fətəva. İbn Teymiyyə.
51. əl-Ənvar fi Şəməilin-Nəbiyyil-Muxtar. əl-Bəğavi.
52. İləmul-Muvaqqiin, İbnul-Qeyyim.
53. əl-Kəbəir va Təbyinul-Məhərim. əz-Zəhəbi.
54. Teysiru Mustalah əl-Hədis. dr. Mahmud Tahhan.
55. Məcmuul-Fətəva. İbn Teymiyyənin fətvalar toplusu.
56. ər-Risələ əl-Arşiyyə. İbn Teymiyyə.
57. əs-Sələfiyyə va Qadayə əl-Asr. Abdur-Rahman ibn Zeyd əz-Zuneydi.
58. Tuhfətut-Təhsil fi Ruvatil-Mərasil. Əbu Zura ibnul-İraqi Əhməd ibn Abdur-Rahim ər-Raziyani.
59. Keyfə Təbhasu Əhvalur-Ruvat. Muallimi.
60. Tarixi Bağdad. Xətib əl-Bağdadi.
61. əl-Cəmiu li-Əhkəmil-Quran. Əbu Abdullah Muhəmməd ibn Əhməd əl-Qurtubi.

62. ən-Nihəyətu fi Ğaribil-Hədis val-Əsər. əl-Mubarək ibn Muhəmməd ibn Abdul-Kərim əş-Şeybani ibnul-Əsir.
63. Təqyidul-İlm. Xətib əl-Bağdadi.
64. Lisənul Arab. İbn Mənzur.
65. əl-Fəvaid əd-Dərari fi Tərcəməti əl-İməm əl-Buxari. Siratul-Buxari. AbdusSələm Mubarəkfuri.
66. əl-Mucəm əl-Vaciz əl-Mədrəsi. Dr. Salahuddin əl-Həvari.
67. Muqəddimətu ibn Salah.
68. Kitəbətus-Sunnə fi ahdin-Nəbi ﷺ vas-Sahabə. Rafət Fovzi əl-Muttalib.
69. Nuzhətun-Nazar Fi Şərhi Nuxbətil-Fikr. İbn Həcər əl-Asqalani.
70. əl-İləl va Mərifətir-Ricəl. Əhməd ibn Hənbəl əş-Şeybəni.

# MÜNDƏRİCAT:

ÖN SÖZ ........ 4
BİRİNCİ ŞÜBHƏ: "Hədislərimi Quranla tutuşdurun" rəvayəti ........ 7
İKİNCİ ŞÜBHƏ: "Biz Kitabda heç bir şeyi nəzərdən qaçırmadıq" - ayəsinin mənası ........ 9
ÜÇÜNCÜ ŞÜBHƏ: "Biz Kitabı sənə hər şey üçün bir izah etdik" ayəsinin mənası ........ 12
DÖRDÜNCÜ ŞÜBHƏ: Allah zikri qoruyacağını deyir, bəs hədislər? ........ 15
BEŞİNCİ ŞÜBHƏ: "Quranda hər şey ətraflı izah olunub" ayəsinin düzgün izahı ........ 19
ALTINCI ŞÜBHƏ: Zəif və uydurma hədislər var, bunu necə anlayaq?! ........ 22
YEDDİNCİ ŞÜBHƏ: Sünnə vəhy deyil, biz Qurana tabe olmalıyıq ........ 26
SƏKKİZİNCİ ŞÜBHƏ: Peyğəmbərə itaət ayələri yalnız peyğəmbərin zamanına aiddirmi? ........ 44
DOQQUZUNCU ŞÜBHƏ: Peyğəmbər hədis yazmağı birdəfəlik qadağan etmişdirmi? ........ 48

ONUNCU ŞÜBHƏ: Hədislər peyğəmbərdən ﷺ iki yüz il sonra yazılıb? ........ 73

ON BİRİNCİ ŞÜBHƏ: Hədislər ağıla ziddir, belə olduqda onu necə qəbul edək?! ........ 82

ON İKİNCİ ŞÜBHƏ: Hədislər Qurana ziddir, belə olduqda onları necə qəbul edək?! ........ 98

ON ÜÇÜNCÜ ŞÜBHƏ: Ömər ibnil-Xəttab'ın "Bizə Allahın kitabı yetər!" sözü ........ 116

SON SÖZ ........ 126

İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR: ........ 130

**Qeyd: Hörmətli oxucular!**

Şəkk yoxdur ki əlinizdəki bu kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçınılmazdır.

**Xahiş edirik ki, kitab haqqında hər hansısa bir mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz:**

sahibfarmanoglu@gmail.com

Kitabın adı:

# HƏDİS İNKARÇILARININ MƏŞHUR ŞÜBHƏLƏRİNƏ CAVABLAR

Kitabın ilk elektron versiyasının tarixi:
15.01.2019

Redaktədən sonrakı tarix:
29.09.2022

Kitabın səhifələrinin sayı: 137
Kağız ölçüsü: A4 (21 sm × 29,7 sm)

**Müəllif:**
**Sahib Əsədov**

**İxtisas redaktorları:**
**Fərman İsayev**
**Fərhad Adayev**
**Asim Məmmədov**

**Redaktorlar:**
**Qabil Şükürov**
**Xaqan Abbaslı**

**Dizayner:**
**Mehman Hidayətov**

İSLAMIN MÜDAFİƏSİ